Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

**İxtisasın adı: Təhsil psixoloqu**



# PSİXOLOJİ MAARİFLƏNDİRMƏ VƏ PROFİLAKTİKA İŞLƏRİNİN APARILMASI

**Bakı 2020**

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlərə və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəllif:** İlahə Güləliyeva

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT


**ƏSAS ANLAYIŞLAR ... 8**

**GİRİŞ ... 11**

**MODULUN SPESİFİKASİYASI ... 12**

**TƏLİM NƏTİCƏSİ 1: PSİXOLOJİ MAARİFLƏNDİRMƏ İŞLƏRİNİ APARMAQ ... 15**

1.1. Maarifləndirmə və təşviqat işlərinin forma və strategiyalarını təsvir edir ... 16

1.1.1. Maarifləndirmə konsepsiyasının açıqlanması ... 16

1.1.2. Təhsil sahəsində maarifləndirmə işlərinin aparılması ... 18

Tələbələr üçün fəaliyyətlər ... 20

Qiymətləndirmə ... 21

1.2. Müasir psixoloji bilikləri təhlil edir ... 22

1.2.1. Elmi biliklərin xarakteristikası ... 22

1.2.2. Müasir məqalələrin qiymətləndirilmə prinsipləri ... 24

Tələbələr üçün fəaliyyətlər ... 28

Qiymətləndirmə ... 29

1.3. Yaşlar üzrə maarifləndirmə və təşviqat materialları tərtib edir ... 30

1.3.1. Yaşların ümumi xüsusiyyətləri ... 30

1.3.2. Psixologiyada yaş təsnifatı ... 30

Tələbələr üçün fəaliyyətlər ... 37

Qiymətləndirmə ... 38

1.4. Böhran dövrləri və yeni şəraitə uyğunlaşma müddətində pedaqoq, valideyn (qəyyum), tərbiyəçi və digər səlahiyyətli şəxslərə təhsilalanlara psixoloji dəstək vermək üçün tövsiyələr verir ... 39

1.4.1. Ailənin uşağın inkişafındakı rolu ... 39

1.4.2. Ailənin əsas funksiyaları ... 39

1.4.3. Uşağın inkişafında təhsil sisteminin rolu ... 40

1.4.4. Böhranın psixoloji xüsusiyyətləri ... 40

Tələbələr üçün fəaliyyətlər ... 46

Qiymətləndirmə ... 47

1.5. Müvafiq situasiyalarda şəxsiyyətin inkişafını ləngidən neqativ təsirin qarşısını almaq üçün təhsilverənləri məlumatlandırır ... 48

1.5.1. Fərd, şəxsiyyət və fərdiyyət anlayışları ... 48
1.5.2. Şəxsiyyət və onun xüsusiyyətləri ... 48
1.5.3. Şəxsiyyətin inkişafına mane olan səbəblər ... 50
1.5.4. Şagirdlərin fərdi keyfiyyətlərinin inkişafında müəllimin rolu ... 52
Tələbələr üçün fəaliyyətlər ... 54
Qiymətləndirmə ... 55
**TƏLİM NƏTİCƏSİ 2: PSİXOLOJİ PROFİLAKTİKA İŞLƏRİNİ APARMAQ ... 57**
2.1. Psixoloji problemlərin qarşısını almaq üçün yaş mərhələləri üzrə qabaqlayıcı tədbirlər həyata keçirir ... 58
2.1.1. Psixoloji monitorinq ... 60
2.1.2. Psixoloji dəstək ... 61
2.1.3. Profilaktik işlərin növləri ... 61
4.1.4. Psixoprofilaktika problemlərinin həlli zamanı psixoloq və müəllimin əməkdaşlığı ... 65
4.1.5. Yaş xüsusiyyətləri ... 66
4.1.6. Məktəbdəki yaş mərhələləri və uşaqların psixoloji xüsusiyyətləri ... 67
Tələbələr üçün fəaliyyətlər ... 81
Qiymətləndirmə ... 82
2.2. Yaradıcı və istedadlı uşaqların xüsusiyyətlərinə uyğun planları tərtib edir ... 83
2.2.1. İstedad əlamətləri ... 84
2.2.2. İstedadlı uşaqlar ilə işləmək üçün pedaqoji yanaşmalar ... 85
2.2.3. İstedadlı uşaqların xüsusiyyətləri ... 87
2.2.4. İstedadlı uşaqların problemləri ... 89
2.2.5. İstedadlı uşaqların inkişaf xüsusiyyətləri ... 89
Tələbələr üçün fəaliyyətlər ... 91
Qiymətləndirmə ... 92
2.3. Valideyn və pedaqoqlara təhsilalanların psixoloji sağlamlığının qorunması məqsədi ilə onların hüquqları (insan uşaq hüquqları) haqqında müvafiq məlumatlar verir ... 93
2.3.1. Valideynlərlə aparılan pedaqoji-psixoloji işin məzmunu və formaları ... 94
2.3.2. Məktəb daxilində tələbələrin hüquqları ... 95
Tələbələr üçün fəaliyyətlər ... 98
Qiymətləndirmə ... 99

2.4. Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı işləri “Risk qrupu”na aid olan uşaqların ehtiyaclarına uyğun olaraq planlaşdırır ........ 100
2.4.1. Hiperaktiv uşaqlar ........ 106
2.4.2. Disfunksiyalı ailələrdə tərbiyə olunan uşaqlar ........ 106
2.4.3. Pedaqoji baxımdan laqeyd olan uşaqlar ........ 107
2.4.4. Deviant davranışlı uşaqlar ........ 107
Tələbələr üçün fəaliyyətlər ........ 113
Qiymətləndirmə ........ 114
2.5. “Risk qrupu”na aid olan istedadlı uşaqlar üçün planlaşdırılan fəaliyyətlərin reallaşdırılması üçün psixoloji tövsiyələr hazırlayır ........ 115
Tələbələr üçün fəaliyyətlər ........ 118
Qiymətləndirmə ........ 119
2.6. Psixoloji problemlərin qarşısını almaq üçün pedaqoji heyətlə konsiliumlar təşkil edir ........ 120
2.6.1. Konsiliumun formaları ........ 121
Tələbələr üçün fəaliyyətlər ........ 126
Qiymətləndirmə ........ 127
**ƏDƏBİYYAT SİYAHISI ........ 128**

## ƏSAS ANLAYIŞLAR

**Adaptasiya –** uyğunlaşma, orqanizmin yeni şəraitə vərdiş etməsi.

**Aparıcı fəaliyyət –** ontogenezin müəyyən mərhələsində psixi inkişafın xarakterini müəyyən edən fəaliyyət növü.

**Aqressivlik –** insanın başqalarına ziyan vurması ilə ifadə olunan davranış və münasibət tərzi.

**Assosiasiya –** psixi anlayışların birləşdirilməsi, əlaqələndirilməsi.

**Bacarıq –** qarşıya qoyulmuş məqsədə müvafiq olaraq iş qaydalarının seçilməsi və həyata keçirilməsi üçün mövcud bilik və vərdişlərdən istifadə olunması.

**Deviant davranış –** normadan kənar, hüquqa və əxlaqa zidd asosial davranış.

**Eqosentrik nitq –** məktəbəqədər yaşlı uşağın oyununu müşayiət edən və onun özünə yönəldilmiş nitq fəaliyyəti. Xarici nitqdən daxili nitqə keçid mərhələsinin təşkil edir.

**Fenomen –** insan şüurunun daxili psixoloji məzmununa aid olan fakt, hadisə.

**Fəaliyyət –** ətraf gerçəkliyə fəal yanaşma forması, insanın dərk olunmuş məqsədi ilə tənzim olunan daxili və xarici fəallığı.

**Fəaliyyət məhsullarının təhlili –** psixologiyanın metodlarından biri. O, uşağın dəyərli fəaliyyət məhsulları olan şəkillər, şeirlər, hekayələr, applikasiya və quraşdırma nümunələrinin tədqiqini nəzərdə tutur.

**Hüquq psixologiyası –** insan tərəfindən hüquq normaları və davranış qaydalarının öyrənilməsini nəzərdən keçirir, hüquq sisteminin reallaşdırılması ilə bağlı olan psixoloji məsələləri aydınlaşdırır. Onun məhkəmə psixologiyası, kriminal psixologiya, islah-əmək psixologiyası və digər bölmələri vardır.

**İnstinkt –** mühitin müəyyən şəraitinə, təsirinə qarşı mürəkkəb anadangəlmə reaksiya forması.

**İstedad –** qabiliyyətlərin bir və ya bir neçə fəaliyyətin müvəffəqiyyətli icrası üçün şərt olan özünəməxsus birliyi.

**Kommunikativ bacarıq və vərdişlər –** insanın başqaları ilə ünsiyyətində təzahür edən bacarıq və vərdişlərin toplusu. O, özünü ünsiyyət zamanı verbal və qeyri-verbal vasitələrdən istifadə etməklə qarşılıqlı anlaşma məqsədilə insanlara təsir göstərməyi əks etdirir.

**Kompetentlik –** bu və ya digər fəaliyyət sahəsində insanın yararlılığı, səriştəliliyi, problemləri həll etmə qabiliyyətini əks etdirən xarakteristikası.

**Konflikt –** bir-birinə əks, zidd olan baxışlar, maraq və nəzərlər, davranış formalarının toqquşması. O, özünü insanın özü və başqaları ilə daxili münaqişələrində əks etdirir.

**Motiv –** bu və ya digər tələbatın təmin olunması ilə bağlı olan, fəaliyyətə təhrik edən amil.

**Məqsəd –** insanın fəaliyyət zamanı hansı nəticəyə nail olmağa yönəlməsi.

**Nitq –** insanlar arasında dil vasitəsilə həyata keçirilən ünsiyyət prosesi.

**Praktik psixoloq –** praktik psixoloji məsələlərin həlli ilə məşğul olan, ali psixoloji təhsilli mütəxəssis. O, psixologiyanın tədrisi və elmi-psixoloji tədqiqatlarla məşğul olmur.

**Proyektiv metodlar –** proyeksiya (köçürmə) mexanizmi əsasında istifadə olunan psixodiaqnostik metodların sistemi.

**Psixodiaqnostika –** xüsusi psixoloji bilik və metodların sahəsi. Onların köməyi ilə insanların psixi prosesləri, xassə və vəziyyətləri ölçülür, kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilir.

**Psixokorreksiya –** xəstəlik xarakteri daşımayan, insanın psixikası və davranışındakı müxtəlif qüsurların aradan qaldırılması ilə bağlı psixoloqun peşəkar fəaliyyət sahələrindən biri.

**Psixoloji xidmət –** insanlara operativ psixoloji kömək məqsədi ilə xüsusi müəssisələrdə rəsmən yaradılmış sistem. Belə xidmət sahələri müxtəlif sosial institut və təşkilatlarda, məsələn, tibb, təhsil, iqtisadiyyat, siyasət, ordu, hüquq sistemində yaradılır.

**Psixoloji məsləhət vermə –** praktik psixoloq tərəfindən insanlara məsləhət və tövsiyələr formasında göstərilən yardım formalarından biri.

**Psixoloji təhsil –** psixoloqların ali məktəblərdə aldığı xüsusi peşə hazırlığı.

**Psixoterapiya –** müxtəlif xəstəliklərin psixoloji vasitələrlə müalicəsini həyata keçirən tibbin sahəsi.

**Psixoloji diaqnoz –** diaqnostik müayinənin nəticəsi və onun əsasında tərtib edilən rəy. Bu rəy əsasında sınanılan şəxsin fərdi-psixoloji xüsusiyyətləri aşkara çıxarılır. Psixoloji məsləhət və ya korreksiyaedici və inkişafetdirici proqramların tərtibində həmin rəydən istifadə edilir.

**Rol-cins davranışı –** müəyyən cinsə mənsub olan insan üçün səciyyəvi olan sosial cəhətdən qəbul edilən davranış forması.

**Refleksiya –** insanın şəxsi təcrübəsi, xüsusilə, öz psixoloji xüsusiyyətləri haqqında düşüncələri.

**Senzitivlik –** həssaslıq.

**Senzitiv dövrlər –** ətraf gerçəkliyin müəyyən təsirlərinə qarşı həssaslıqla müşayiət olunan ontogenetik yaş dövrləri.

**Sensor inkişaf –** qavrayışın inkişafı.

**Sosiallaşma –** fərdin sosial təcrübəni fəal şəkildə mənimsəməsi prosesi.

**Sosiometriya –** qruplar və kollektivlərdə rəğbət və nifrət tipli şəxsiyyətlərarası

münasibətlərin kəmiyyətcə qiymətləndirilməsi və qrafik təsviri üçün tətbiq olunan standartlaşdırılmış metodik üsulların məcmuyu.

**Stimul –** təhrikedici amil.

**Şüur –** dil mənaları sistemində obyektiv gerçəkliyin psixi inikasının yüksək, yalnız insana xas olan forması.

**Şüuraltı və ya təhtəlşüur –** aktual şəkildə dərk edilməyən, lakin davranış və şüurun məzmununa nəzərə çarpacaq dərəcədə təsir göstərməyə qabil olan psixi proses və alətlərin məcmuyu.

**Test –** standartlaşdırılmış psixodiaqnostik metodika. Onun vasitəsilə insanın bu və ya digər psixoloji xüsusiyyəti kəmiyyət və keyfiyyətcə ölçülərək qiymətləndirilir. Psixologiyada bir neçə min test növü vardır.

**Treninq –** nəyinsə öyrədilməsinə xidmət edən xüsusi məşq. İnsanda faydalı bacarıq, vərdiş və adətlərin formalaşdırılması üçün tətbiqi psixologiyada müxtəlif treninqlərdən istifadə olunur.

**Tərbiyə –** tərbiyə olunanda müəyyən davranış formaları, dünyagörüş, xarakter və qabiliyyətlər, hisslərin formalaşdırılmasına yönəldilmiş məqsədyönlü və sistematik təsir prosesi.

**Ünsiyyət –** insanlar arasında informasiya mübadiləsi, onların psixoloji və davranış baxımından bir-birinə qarşılıqlı təsirini əks etdirən proses.

**Ümumi psixologiya –** fundamental psixoloji bilikləri özündə cəmləşdirən elm sahəsi.

**Verbal –** sözlü.

**Yaş psixologiyası –** insanda anadan olandan ömrünün axırına qədər psixi inkişafın dinamikası, qanunauyğunluqları, şəxsiyyətin psixi prosesləri və xassələrinin ontogenezdə inkişaf xüsusiyyətlərini öyrənən elm sahəsi.

**Yeni pedaqoji təfəkkür –** təhsilin pedaqoji və psixoloji dəyərlərə əsaslanan mentaliteti. Humanistləşdirmə, demokratikləşdirmə, humanitarlaşdırma, fərdiləşdirmə və inteqrasiya yeni pedaqoji təfəkkürün əsas prinsipləridir.

# GİRİŞ

Psixoloji maarifləndirmə müasir təhsildə çox vacib rol oynayır. Psixoloji maarifləndirmə uzun zaman müstəqil sahə kimi seçilmirdi.

Müasir dövrdə cəmiyyətin inkişafı və onda baş verən sosial-iqtisadi dəyişikliklərin optimallaşdırılması üçün müasir psixologiyanın elmi-nəzəri və praktiki araşdırmalarının yayılması üçün maarifləndirmə böyük rol oynayır.

Bu modul 2 təlim nəticəsini əhatə edir və hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi üçün "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

İlk təlim nəticəsi psixoloji maarifləndirmə, məqsəd, vəzifələr, yaş qrupları və xüsusiyyətləri ətraflı şəkildə əks etdirir.

İkinci təlim nəticəsi psixoloji profilaktika işləri mövzusundadır. Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı (preventiv) tədbirləri yaş qrupuna uyğunluq, "Risk qrupu"na aid olan uşaqların ehtiyacları, yaradıcı və istedadlı uşaqların xüsusiyyətləri, problemlərin qarşısını almaq üçün pedaqoji heyət ilə ehtiyaclara uyğun qabaqlayıcı (preventiv) tədbirləri əhatə edir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

## MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması |
| **Modulun kodu:** | SS-2020-08 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra təhsilalan müvafiq maarifləndirmə və təşviqat işlərini həyata keçirmək, psixoloji problemlərin qarşısını almaq üçün psixoloji tövsiyələr hazırlamaq, profilaktika işlərini aparmağı bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Psixoloji maarifləndirmə işlərini aparmaq | ➢ Maarifləndirmə və təşviqat işlərinin forma və strategiyalarını təsvir edir;<br>➢ Müasir psixoloji bilikləri təhlil edir;<br>➢ Yaşlar üzrə maarifləndirmə və təşviqat materialları tərtib edir;<br>➢ Böhran dövrləri, yeni şəraitə uyğunlaşma müddətində pedaqoq, valideyn (qəyyum), tərbiyəçi və digər səlahiyyətli şəxslərə təhsilalanlara psixoloji dəstək olmaq üçün tövsiyələr verir;<br>➢ Müvafiq situasiyalarda şəxsiyyətin inkişafını ləngidən neqativ təsirin qarşısını almaq üçün təhsilverənləri məlumatlandırır. |
| 2. Psixoloji profilaktika işlərini aparmaq | ➢ Psixoloji problemlərin qarşısını almaq üçün (preventiv) yaş mərhələləri üzrə qabaqlayıcı tədbirlər həyata keçirir;<br>➢ Yaradıcı və istedadlı uşaqların xüsusiyyətlərinə uyğun planlar tərtib edir;<br>➢ Valideyn və pedaqoqlara təhsilalanların psixoloji sağlamlığının qorunması məqsədi ilə onların hüquqları (insan və uşaq hüquqları) haqqında müvafiq məlumatlar verir;<br>➢ Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı (preventiv) işləri "Risk qrupu"na aid olan uşaqların ehtiyaclarına uyğun olaraq planlaşdırır;<br>➢ "Risk qrupu"na aid olan istedadlı uşaqlar üçün planlaşdırılan fəaliyyətlərin reallaşdırılması üçün psixoloji tövsiyələr hazırlayır; |

| | |
|---|---|
| | ➢ Psixoloji problemlərin qarşısını almaq üçün pedaqoji heyətlə konsiliumlar təşkil edir. |

# TƏLİM NƏTİCƏSİ 1

# PSİXOLOJİ MAARİFLƏNDİRMƏ İŞLƏRİNİ APARMAQ

## 1.1. Maarifləndirmə və təşviqat işlərinin forma və strategiyalarını təsvir edir

### Maarifləndirmə və təşviqat

### 1.1.1. Maarifləndirmə konsepsiyasının açıqlanması

***Terminologiya***

Psixoloji maarifləndirmə psixoloji biliklərin yayılması, psixoloji mədəniyyət və psixoloji yardımın artırılmasına yönəldilmiş bir sıra tədbirlərdir.

Psixoloji maarifləndirmənin qısa tərifi İ.V. Dubrovina (2000) tərəfindən verilmişdir: "Psixoloji maarifləndirmə - böyüklər (tərbiyəçi, müəllim və valideynlər) və uşaqların psixoloji elmlə bir vəhdətdə olmasıdır".

***Bu sahənin tarixi inkişafı***

Psixoloji maarifləndirmə uzun zaman müstəqil sahə kimi seçilmirdi. Bu gün psixoloji maarifləndirmənin inkişafı barəsində mübahisəyə ehtiyacın olmamasına baxmayaraq, bu sual hələ də öz həllini tapmayıb. Psixoloji maarifləndirmə hələ də xüsusi növ məşğuliyyət hesab olunmur və buna görə spontan şəkildə təşkil olunur.

Müasir dövrdə cəmiyyətin inkişafı və onda baş verən sosial-iqtisadi dəyişikliklərin optimallaşdırması üçün müasir psixologiyanın elmi-nəzəri və praktiki araşdırmalarının yayılmasında maarifləndirmə böyük rol oynayır.

Psixoloji maarifləndirmə prosesinin rolu uzun müddətdir ki, araşdırılır. Buna baxmayaraq, bu mövzuda çox az sayda ədəbiyyat vardır. XX əsrin əvvəllərində Luriya öz araşdırmalarında psixoloji informasiyanın əhəmiyyətli rolunu sübut etmişdir. Psixoloji mədəniyyətin olmaması, əsasən, əhalinin zəif psixoloji təhsili ilə bağlıdır. Təhsilalanlar üçün məktəbin rolu böyükdür və buna görə psixoloji maarifləndirmə məktəbdə yer almalıdır. Müasir təhsil sistemində geniş tətbiq olunan psixoloji maarifləndirmə haqqında konsepsiyalar içərisində İ.V. Dubrovinanın konsepsiyaları öz orijinallığı ilə fərqləndirilir. Müəllifin fikrinə görə, psixoloqun işi həkim modelinə bənzərdir və bu modelin psixoloji işin qurulmasında böyük əhəmiyyəti vardır. Burada psixoloqun əsas vəzifəsinin maarifləndirmə, profilaktika və psixi inkişafdakı qüsurların korreksiyasından ibarət olması ön plana çəkilir.

***Maarifləndirmə prosesinin funksiyaları***

Bu gün praktika və elmdə mövcud olan məlumatlar psixoloji maarifləndirmə üçün bütün hallarda təsirli olan proqramların təşkilinə yol açır. Psixoloq müəllim tərbiyəçi və valideynlər arasında müxtəlif formada maarifləndirmə işi aparır. Onlar müxtəlif mövzulara uyğun bilik sahələri ilə tanış edilir, uşaqların inkişafı, təlimi və tərbiyəsi xüsusiyyətləri və yaş dövrlərinin dəyişməsi ilə əlaqədar uşaqların psixologiyasında meydana çıxan böhranların psixoloji təbiəti ilə tanış edilir və yaradılan münaqişələrin həlli yolları haqqında məsləhət və tövsiyələr verilir.

Proqram təşkilində növbəti aspektlərə diqqət yetirilməlidir: Maarifləndirmənin forması (şifahi, yazılı, fərdi və qrup şəklində), auditoriya və çatdırılan fikrin strukturu (fərdi və fərqli yaş qruplarına yönləndirilməlidir).

Maarifləndirmənin funksiyaları:

- Məlumatlılığın artırılması;
- Psixoloji cəhətdən sağlam münasibətlərin formalaşdırılması.

***Maarifləndirmənin əsas vəzifələri (maarifləndirmədə həll edilməli olan məsələlər)***

Təhsil sistemində psixoloji maarifləndirmə işlərinin əsas və ən çətin sayılan vəzifəsi təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Təhsil sistemində çalışan psixoloqun vəzifələri:

- Müəllimlər arasında maarifləndirmə işi və psixoloji biliklərin təbliğinin aparılması;
- Müəllimlərin peşə fəaliyyəti ilə bağlı müxtəlif pedaqoji-psixoloji problemlərin müzakirə və təhlili;
- Şagirdlərin təlim, tərbiyə, inkişaf və fəaliyyətləri ilə bağlı maarifləndirilməsi;
- Əhalinin şəxsiyyət, kommunikasiya, fəaliyyət və özünüidarəetmə psixologiyasının əsasları ilə tanışlığı;
- Təlim və təhsil sahəsində yeni psixoloji tədqiqatların nəticələrinin izahı;
- Psixoloji biliklərə ehtiyac və onlardan şagirdlərin həyat və fəaliyyətlərində istifadə mə niyyətinin formalaşdırılması;
- Psixoloji elm və praktiki psixologiya haqqında elmi ideyalar və münasibətlərin formalaşdırılması;
- Psixoloji bilik məsələləri üzrə ictimaiyyətin məlumatlandırılması.

***Maarifləndirmənin formaları***

Maarifləndirmə prosesi müxtəlif formalarda keçirilə bilər, lakin əsasən, 2 formada olur:

- Verbal (verbal-kommunikativ): mühazirə, fərdi söhbətlər, qrup təlimi, diskussiya xarakterli disputlar, seminarlar, treninqlər, ictimai çıxışlar, radio və televiziya çıxışları, interaktiv görüşlər və s.;
- Vizual (qeyri-verbal): buklet, plakat, poster, kitabça, stend, məqalə, illüstrativ materiallar, kitab və broşürlər, test və anket nümunələri.

Maarifləndirmə işləri aparılarkən təqdim edilmiş informasiya və təqdimat metodlarının bəzi xüsusiyyətləri nəzərə alınmalıdır:

- İşin məzmunu, forması və metodların inkişaf səviyyəsi və tamaşaçıların yaşı və peşəkar xüsusiyyətləri ilə uyğunluğu;
- Təmin edilən məlumatın praktiki zərurəti və məqsədəuyğunluğu;
- İnformasiya və biliyin elmi cəhətdən etibarlılığı.

Şəxslərlə işləyərkən mühazirələr, söhbətlər, broşürlər, məlumatlandırıcı stendlərin məzmunu və metodiki vəsaitlər abstrakt ola bilməz. Onlar yalnız bu insanların fəaliyyətləri, müəssisələri və digərləri ilə bağlı konkret psixoloji problemlərin təhlilindən ibarət olanda effektiv ola bilər.

### 1.1.2. Təhsil sahəsində maarifləndirmə işlərinin aparılması

Təhsil sistemində psixoloji xidmət pedaqoji psixologiyanın formalaşdırılmasında olan yeni sahələrdən biridir.

Təhsil müəssisələrində psixoloji maarifləndirmə, ilk növbədə, inkişaf etdirilən şəxsiyyətə yönləndirilir və sistematik tədris və tərbiyə məzmununa əsaslandırılır. Bu işin ayrılmaz hissəsi şagirdlərin maarifləndirilməsindən başqa bütövlükdə, təhsil müəssisəsinin də faydalanmasıdır.

Təhsil müəssisəsində çalışan praktik psixoloq şagird və müəllimlər arasında yaradılan çətinliklərin aradan qaldırılmasına çalışmalıdır, verilən tövsiyələr münaqişələrin yumşaldılması və dramatikləşdirmənin qarşısının alınması strategiyasına yönəldilməli və bu məqsədə xidmət edilməlidir. O, risk qrupuna aid olan uşaqlar üçün ümuminkişaf tipli proqramlar hazırlamağı bacarmalıdır.

Psixoloji savadlılıq inkişaf etdirilən şəxsiyyətin müstəqil həyata effektiv hazırlanması üçün vacib və təbii şərtdir. Mütəxəssislər özünüdərketmənin vacibliyini tam həyatın peşəkarcasına yaşanmasının əsas şərti olaraq vurğulayır.

Təhsil sahəsində maarifləndirmə işləri kompleks xarakter daşıyır. Psixoloq müxtəlif qruplar və müxtəlif yaş kateqoriyaları ilə işləyir:

- Pedaqoji heyət ilə - müəllimlər və məktəb direktoru;
- Şagirdlər ilə - 6-19 yaş aralığında olan uşaq, yeniyetmə və gənclər;
- Valideynlər ilə.

Valideyn və müəllimlərlə aparılan maarifləndirmənin mövzuları fərqləndirilir.

Ailə mühitinin mənəvi-psixoloji cəhətdən sağlam olması uşağın normal inkişafını təmin edir. Valideynlərlə aparılan maarifləndirmə işləri ər-arvad cütlüyü arasındakı münasibətlərin uşaqların tərbiyəsinə təsiri və ailə tərbiyəsi tiplərinin izahına yönəldilməlidir.

Valideynlər arasında aparılan maarifləndirmə işində aşağıdakı mövzular müzakirə edilə bilər:

- Uşaqların məktəbə hazırlığı və adaptasiyası;
- Uşaqların identifikasiyası və psixoseksual inkişaflarının xüsusiyyətləri;
- Ailə daxilində baş verən dəyişikliklərin uşağın inkişafına təsiri və s..

Müəllimlərlə aşağıdakı mövzular müzakirə edilə bilər:

- Müəllimin təlim, tərbiyə və inkişafla bağlı rolu;
- Uşaqların ümumi və xüsusi qabiliyyətləri;
- İstedadlı şagirdlərin məktəb şəraitinə adaptasiyası və onların inkişafı;
- Risk qrupuna aid olan uşaqlarla işləmə və təlim-tərbiyə işlərinin təşkili xüsusiyyətləri;
- Uşaqların pedaqoji-psixoloji statusunun qiymətləndirilməsi;
- Peşə seçimi ilə bağlı problemlərin həlli.

Təhsil sahəsində maarifləndirmə prosesində aşağıdakı funksiyalar yerinə yetirilir:

1. Psixoloji məlumatları (psixologiya sahəsində nailiyyətlər və psixologiyaya aid materiallar) tanıtmaq və izah etmək;
2. Müəllim, valideyn və şagirdlər arasında psixoloji bilikləri yaymaq;
3. Təhsilalanları özünü identifikasiya, özünüinkişaf və özünütənzimləmənin əsasları ilə tanış etmək;
4. Pedaqoji prosesin iştirakçılarına psixoloji işin mahiyyətini başa salmaq və təhsildə praktiki psixoloji xidmətə ehtiyacın dərk edilməsinə kömək etmək;
5. Valideynlərin psixoloji savadlılıq səviyyəsini (və ya mədəniyyəti) artırmaq;
6. Təhsilalanları peşə əldə etmək üçün zəruri olan psixoloji bilik və bacarıqlar barədə məlumatlandırmaq;
7. Pedaqoji işçilər, valideynlər (qanuni nümayəndələr) və təhsilalanlara təhsildə yardım göstərmək;
8. Mərhəmət, məsuliyyət və özünəinam prinsipləri və başqa bir şəxsin hüquq və azadlıqlarını pozmadan aktiv sosial qarşılıqlı fəaliyyət qabiliyyətini formalaşdırmaq.

Beləliklə, maarifləndirmənin mürəkkəb və kompleks bir proses olduğunu görürük.

Maarifləndirmə işi təhsil sistemində bütün qruplarla aparılmalıdır: valideyn, müəllim və təhsilalanlar. Maarifləndirmənin öz növləri, funksiyaları və vəzifələri vardır.

Maarifləndirmənin təhsil sahəsində rolu zəruridir. Uşaqların harmonik böyüdülməsində əsas rol valideynlərin üzərinə düşür və buna görə valideynlərin biliklərinin artırılması uşağın həyat şəraitinin yaxşılaşdırılmasına təsir göstərir. Uşağın inkişafında məktəb və müəllimin rolu da böyükdür və bu rol təkcə biliyin ötürülməsi ilə məhdudlaşdırılmır. Son araşdırmalarda müəllim və onun şəxsiyyətinin xüsusiyyətlərinin məktəb kollektivinə təsiri vurğulanır.

## Tələbələr üçün fəaliyyətlər

1. Maarifləndirmənin təhsil sistemində rolunu təhlil edin (funksiyalarına əsaslandırılaraq).
2. Problemli uşaqların valideynlərinin psixoloqla görüşü zamanı hansı psixoloji maarifləndirmə formasını seçmək daha münasib olar və nəyə görə? Seçiminizi izah edin.
3. Valideynlər ilə keçirəcəyiniz marifləndirici proqram yazın və öz seçiminizi əsaslandırın.
4. Maarifləndirmədə hansı funksiyalar yerinə yetirilir?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Maarifləndirmə və təşviqat işlərinin forma və strategiyalarını təsvir edir”**

1. Maarifləndirmə nədir?
2. Maarifləndirmənin formalarını sadalayın.
3. Psixoloqun təhsil sahəsindəki mariflәndirici işi kimə yönəlik ola bilər?
4. Hansı psixoloji maarifləndirmə forması yeniyetmələr üçün daha effektiv olar?
5. Psixoloji maarifləndirmədə həll edilməli olan məsələləri sadalayın.
6. Maarifləndirmə işi aparılarkən nəyə fikir vermək lazımdır?
7. Praktik psixoloqun valideynlər arasında aparacağı maarifləndirmə işinin məzmununu açıqlayın.
8. Valideynlərlə aparılan maarifləndirmə işinin əsas formaları hansıdır?

## 1.2. Müasir psixoloji bilikləri təhlil edir

### 1.2.1. Elmi biliklərin xarakteristikası

Psixoloji maarifləndirmənin məqsədlərindən biri insanlara müxtəlif psixoloji biliklər və proseslər barədə etibarlı məlumatları düzgün formada çatdırmaqdır. Bu məqsədə nail olmaq üçün yalnız etibarlılığı təsdiq edən və bütün mərhələlərdən keçən məqalələrin nəticələrini paylaşmaq olar. Psixologiya sürətlə inkişaf edən gənc bir elmdir və o, abstrakt terminlərlə işləyir və buna görə də səhv məlumatların yayılması ehtimalı çox böyükdür.

Təhsil sahəsində işləyən psixoloqların mühüm vəzifələri təhsilalanlar, gənc nəsil və pedaqoji kollektivə psixoloji elmin əsasları haqqında məlumat vermək, bu bilikləri təcrübəyə tətbiq etmək və psixoloji qanunauyğunluqlara dərindən yiyələnməkdir.

Məlumat topladığı zaman psixoloq situasiyaya obyektiv yanaşmalıdır. İlk növbədə, hansı yaş qruplarına məlumat veriləcəyinə diqqət yetirilməlidir. Buna əsasən, məlumatın düzgün seçilməsi və müxtəlif formalarda çatdırılması üsulları seçilməlidir.

Müasir psixologiyanın əsas sahələrindən biri yaş psixologiyasına aiddir. Bu sahənin predmetini insan psixikasının inkişaf dinamikası, şəxsiyyətin psixi prosesləri və psixi xassələrin ontogenezinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi təşkil edir. Buna uyğun olaraq insanın hər bir yaş dövründə fərqli xüsusiyyətləri inkişaf edir və hər yaşa xüsusi sensitiv (ən çox hissiyatlı) dövrlər aiddir. Valideynlər və təhsil müəssisəsinin işçilərinə bu dövrlər barədə düzgün məlumatın çatdırılması və maarifləndirmə böyük rol oynayır və onlara uşaqların psixi inkişafı üçün şərait yaradılmasına kömək edir. Psixi inkişafın şəraiti deyiləndə psixi inkişafa daima təsir edən və onu istiqamətləndirən daxili və xarici amillər nəzərdə tutulur.

Təhsil sahəsində işləyən psixoloq aşağıdakıları bilməlidir.

Müvafiq yaş mərhələsində psixoloji inkişafı xarakterizə edən tipik və fərdi-psixoloji əlamətlər;

- İnsanın psixoloji formalaşmasının qanunauyğunluqları;
- Koqnitiv bacarıqlar və emosional sferanın inkişaf mexanizmləri;
- Sosiallaşma prosesinin mexanizmləri və qanunauyğunluqları;
- Ümumi və spesifik psixoloji metodların düzgün seçilməsi və istifadəsi;
- Xarici dildən elmi məqalələr və ədəbiyyatın tərcümə edilməsi;
- Materialların düzgün interpretasiyası;
- Şəxsiyyətin inkişaf problemləri, ayrı-ayrı yaş dövrlərində olan xüsusiyyətləri, psixi inkişafının dinamikası və ümumi qanunauyğunluqlarını valideynlər və pedaqoji kollektivə çatdırmaq üçün yaş qruplarının təsnifatı və fəaliyyət növü.

Böyük rus psixoloqları Vıqotski, Leontyev və Elkonin inkişaf prosesində fəaliyyətin növlərini seçərək yaş təsnifatları yaratmışdılar.

**Psixologiyada yaş təsnifatları**

Hazırkı dövrdə məktəbin qarşısında bir çox mühüm vəzifə durur və bu vəzifələrin

həyata keçirilməsində psixoloji biliklər köməklik edir. Məktəb yaşı dövründə şəxsiyyətin formalaşdırılmasının psixoloji şərtləri müxtəlif nəzəriyyələrdə izah edilir. Psixologiyada müxtəlif yaş dövrləri ayırd edilir. İnkişaf dinamikasında hər yaş dövrünün müsbət funksiya daşıyan xüsusi yaş böhranları vardır.

Uşağın inkişafında böyük rol cəmiyyətə məxsusdur. Cəmiyyətdə uşağın inkişafının istiqaməti və keyfiyyəti müəyyənləşdirilir. Psixi funksiyaların iki növü vardır - təbii (anadangəlmə) və mədəni (qazanılmış). Uşaqlar hər şeydən əvvəl təbii funksiyalarla dünyaya gəlir, sonra isə vasitə və işarələrdən istifadə edərək mədəni funksiyaları qavrayırlar. Bu vasitə və işarələrdən əvvəl başqalarının davranışı idarə edilərkən istifadə edilir, lakin sonra öz davranışını idarə edən vasitəyə çevrilir. Bu proses interiorizasiya adlandırılır - şəxsiyyətlərarası idarəetmə funksiyası şəxsiyyətdaxili funksiyaya çevrilmə prosesi. Uşağın düzgün inkişafı üçün 3 amil vacibdir:

1. Sosial şərait;
2. Aparıcı fəaliyyət – uşağın şəxsiyyətinin formalaşdırılmasını təmin edən və ayrı-ayrı psixi proseslərinin inkişafını şərtləndirən fəaliyyətdir. Uşağın müəyyən inkişaf mərhələsində onun tələbatlarını ödəyən və onun psixi proses və şəxsiyyətinin fərdi psixi xassələrinin inkişafını şərtləndirən fəaliyyət növüdür;
3. İnsanın şəxsi fəallığı.

Ontogenezdə fəaliyyət növləri dəyişilir və biri digərini əvəzləyir.

Müxtəlif psixoloqlar müxtəlif yaş dövrlərini müəyyənləşdirirlər. Hal-hazırda psixologiyada yaş təsnifatları çoxdur. Fəaliyyət növlərinə əsaslandırılan Elkoninin təsnifatına nəzərə salaq. D.B. Elkoninə görə yaş təsnifatı 6 qrupa bölünür.

Yaş dövrləri və ona uyğun aparıcı fəaliyyətlər:

1. Körpəlik dövrü, 1 yaşadək və aparıcı fəaliyyət - vasitəsiz emosional ünsiyyət;
2. Erkən uşaqlıq dövrü, 1-3 yaş aralığı və aparıcı fəaliyyət – manipulyativ fəaliyyət;
3. Məktəbəqədər yaş dövrü, 3-6 yaş aralığı və aparıcı fəaliyyət – rollu oyunlar;
4. Kiçik məktəb yaşı, 6-10 yaş aralığı və aparıcı fəaliyyət – təlim fəaliyyəti;
5. Yeniyetməlik dövrü, 10-15 yaş aralığı və aparıcı fəaliyyət – şəxsi-intim ünsiyyət;
6. Gənclik dövrü, 16-18 yaş aralığı və aparıcı fəaliyyət – təlim-peşə fəaliyyəti.

Valideyn və pedaqoji kollektivdə maarifləndirmə işləri yaş dövrləri və əsas fəaliyyət növləri nəzərə alınaraq aparılmalıdır.

Ayrıca gənclik dövrünü təhlil edək. Gənclik dövründə əsas fəaliyyət peşə seçimidir. Təcrübə göstərir ki, müasir dövrdə peşələrin kəmiyyət və keyfiyyət etibarilə kifayət qədər çox spektrli və rəngarəng olması yeniyetmələrin bu peşə müxtəlifliyi qarşısında düzgün və zəruri seçim edə bilməmələrinə səbəb olur. Bu baxımdan, yeniyetmə və gənclərin peşə və ixtisaslara düzgün istiqamətləndirilməsi və onların şüurlu və məqsədyönlü seçim etmələri üçün geniş məlumatlar alınmalıdır.

E.A. Klimova görə, peşə seçimində səkkiz bucaq (amil) əsas təsir göstərir:

1. Ailənin yaşlı üzvlərinin mövqeyi. Bu amil Azərbaycanda olduqca mühüm rol

oynayır. Əksər hallarda problemi məhz böyüklər, xüsusən, ata və analar həll etdiklərindən heç də həmişə uğurlu nəticələrə nail olunmur;

2. Yoldaşlar, rəfiqələr və dostların mövqeyi. Peşə seçimində bu amil bəzən digər amillərdən daha təsirli olur;
3. Müəllimlər və sinif rəhbərlərinin mövqeləri;
4. Şəxsi peşə planı - peşənin insandan tələb edəcəyi psixoloji, fizioloji və mənəvi tələblərin olduğunu bilmə və ixtisasa yiyələnmə yollarını müəyyən etmək. Müsbət və mənfi amilləri müəyyənləşdirmək;
5. Qabiliyyətlər - qabiliyyətin peşəyə uyğun gəlməsi çox müsbət rol oynayır və təbii imkanlar peşənin öyrənilməsinə yeni imkanlar yaradır;
6. Cəmiyyət tərəfindən qəbul olunmanın iddia səviyyəsi;
7. Məlumatlılıq - seçiləcək əmək sahəsi haqqında məlumatların genişliyi, dərinliyi və düzgünlüyü bildirilir. Peşə və ixtisas haqqında ətraflı məlumata yiyələnmək vacibdir. Psixoloq düzgün maarifləndirmə işləri apardığı və müasir psixoloji tərəfləri bildirdiyi zaman gənclərə peşə seçimində kömək edir;
8. Hər hansı sahəyə meyllilik.

### 1.2.2. Müasir məqalələrin qiymətləndirilmə prinsipləri

**Elmi məqalələrin xüsusiyyətləri**

Müasir dövr informasiya dövrüdür və hansısa bir məlumatı tapmaq böyük problem yaratmır, çünki hər məlumatı sosial şəbəkələr və internetdə tapmaq mümkündür. Məhz buna görə də 21-ci əsr elmin inkişafına yol açır, lakin bu zaman elmi maqalələrin qeyri-peşəkar məqalələrdən fərqləndirilməsi vacibdir.

Psixologiya elmi çox böyük sürətlə inkişaf edir. Yeni biliklər və araşdırmalarla yanaşı, eyni zamanda yeni texnologiyaların istifadəsi də genişləndirilir. Bu yeni yaradılan fürsətlər müxtəlif istiqamətlərdə araşdırmaların sayının çoxaldılmasına gətirib çıxarır. Təhsil sahəsində psixofiziologiya metodları geniş yayılır və təhsilalanların psixofizioloji statusu ilə onların intellekt səviyyəsinin əlaqəsi göstərilir. Psixofizioloji metodların genişləndirilməsi onun obyektivliyi və dəqiq fizioloji parametrlərin hesablanması ilə bağlıdır.

Psixoloji biliklər daim yenilənir və buna görə son 5 ildə çıxarılan məqalələrin nəticələrinin təhsil sahəsində yayılması daha düzgün hesab edilir.

Məqalənin strukturu və hansı portalda yerləşdirilməsi vacibdir. Ali Attestasiya Komissiyasının tələblərinə cavab verən elmi saytlar və jurnallarda çap olunan məqalələrdən istifadə etmək lazımdır. Həmin məqalələr yoxlanılır və plagiat olub-olmaması, məlumatın keyfiyyəti və obyektivliyinə baxılır. Hal-hazırda bir çox axtarış platforması məqalələrin tam pulsuz oxunması və yüklənilməsinə imkan verir.

Axtarış internet platforma və sistemləri aşağıdakılardır:

- Google Scholar;
- Web of Science;
- Scopus;

- Elsevier;
- eLibrary;
- ScienceResearch;
- Scirus.

Beynəlxalq statusa malik elmi mənbələrdə məqalənin yazılma prinsipləri yoxlanılır. Bu prinsiplərə aşağıdakılar aiddir:

- Məqalədə yerləşdirilən məlumatın mövzuya uyğun olması;
- Məqalənin müvafiq struktura malik olması:
- Giriş;
- Məqsəd (obyekt və predmet);
- Metodlar;
- Nəticələr;
- Müzakirə.

**Məqalələrin qiymətləndirilmə prinsipləri**

Psixoloji biliklər müasir dövrdə ən çox iki formada yayılır: çap (kitab və jurnallar) və elektron. Yalnız elmi platformalarda yerləşdirilən və elmi nəşrlərdə çap olunan psixoloji biliklər istifadə edilə bilər.

Psixoloji araşdırmalar 3 növə bölünür:

1. Nəzəri;
2. Empirik;
3. Tətbiqi.

Nəzəri tədqiqatların məqsədi psixoloji fenomenlər barədə geniş məlumat almaqdır. Empirik araşdırmaların məqsədi nəzəriyyənin sübutu üçün faktiki materialların alınmasıdır. Tətbiqi araşdırmaların məqsədi yeni bilik əldə etmək deyil və praktik psixoloji effektin təhlilidir. Tətbiqi araşdırmalar, adətən, dövlət və özəl sektorların sifarişi ilə keçirilir və hansısa effekt və fenomenin konkret situasiyalarda öyrənilməsinə yönəldilmiş olur.

Nəzəri və praktik məqalələrin məqsədi, metodu və diskussiya bölmələri olmalıdır. Nəzəri məqalələrdə yeni fikir irəli sürülmür və nəzəriyyələr analiz edilərək məqsədəuyğun problemin müxtəlif hissəsi analiz edilir və ümumiləşdirilir.

Praktiki məqalələrdə praktiki araşdırma aparılır və bu zaman bir neçə məqama diqqət yetirilməlidir: üzərində araşdırma aparılan qrupun yaş, təhsil və digər kriteriyaları.

Qrupun ölçüsü - araşdırmanın miqyası və araşdırılan psixoloji xüsusiyyətin obyektivliyi bildirilir. Kiçik araşdırmalar 10-50 nəfər, böyük araşdırmalar isə 50-500 və daha çox insan arasında aparılır. Bəzi araşdırmalarda eksperiment və kontrol qruplar seçilir (fenomenin reallığından asılı olaraq) və araşdırmanın - eksperimentin təsiri göstərilir.

Araşdırma üçün vacib olan hipotezin formalaşdırılması üçün əsas elementlər və prosesləri aşağıda verilmiş Sxem 1.1-də görürük:




**Sxem 1.1. Hipotezin formalaşması prosesi**

1. Araşdırmanın dizaynı və eksperimentin sxemi (hansı şəraitdə və nə zaman keçiriləcək);
2. Metodikaların istifadəsi - hansı psixoloji alətlərdən istifadə olunacaq (proyektiv metodlar, anket, sorğu, cihazlar və s.). Elmi araşdırma üçün yalnız aprobasiya və mədəni adaptasiya (uyğunlaşma) aparılmış metodikalardan istifadə edilə bilər (qeyri-verbal metodikalarda aprobasiya tələb edilmir, lakin hər verbal metodika üçün mütləq şəkildə mədəni uyğunlaşma aparılmalı, bunun üçün ikitərəfli tərcümə olunmalı və pilotaj araşdırma aparılmalıdır). Uyğunlaşdırılmamış metodikalar yanlış məlumatların alınmasına gətirib çıxara bilər və belə araşdırmanın nəticələri obyektiv sayıla və yayıla bilməz;
3. Statistik təhlillərin istifadə olunması - nəticələrin obyektiv olması üçün statistik təhlil aparılır, psixologiyada elmi araşdırma meyarlarından biri sayılır və çox geniş istifadə edilir. Bir çox xarici elmi platforma statistik təhlillərdən istifadə edilməyən məqalələri qəbul etmir (nəzəri məqalələrə aid deyil). Sosial elmlərdə statistik təhlil üçün geniş istifadə olunan statistik proqramlar: SPSS (Statistical Package for the Social Sciences), R və İRT (İtem Response Theory). İRT-dən intellekt testlərin yaradılması üçün istifadə olunur və SPSS və R proqramları oxşar funksionallığa malikdir;
4. Bir çox psixoloji araşdırmada əsas bunlardan istifadə olunur: korrelyasiya təhlili (iki və daha çox psixoloji meyarın uyğunluğu), reqressya təhlili (bir fenomenin digərinə təsiri) və faktor və klaster təhlilləri – çox sayda meyarı olan fenomenin kiçildilməsi üçün və s.;

5. Nəticə: nəticələrin düzgün təhlili. Araşdırmanın nəticələri ilə hipotezin uyğunluğu olmalıdır.

21-ci əsr informasiya dövrü sayılır: elmi məlumatlar qeyri-peşəkar məlumatlardan ayrılmaqla get-gedə çətinləşdirilir. Bu səbəbdən də hansı mənbələrin istifadə edilməsi və elmi araşdırmaların (məqalələrin) qiymətləndirilməsi prinsipləri bilinməlidir. Keyfiyyətli araşdırma üçün sosial-iqtisadi faktorların nəzərə alınması və etibarlı metodlar və son beş ildə çap olunan məqalələrin istifadə edilməsi daha məqsədəmüvafiqdir.

Müasir araşdırmaların yayılması düzgün maarifləndirməyə gətirib çıxarır. Maarifləndirmə zamanı paylaşılan məlumatın obyektivliyi, sübut olunması və etikası psixoloqun peşəkarlığını göstərir. Psixoloq tərəfindən səhv məlumatın paylaşılması təhlükəli nəticələrə gətirib çıxara bilər. Psixoloq paylaşdığı məlumata görə məsuliyyət daşıyır, buna görə də o, müasir bilikləri qiymətləndirməyi bacarmalı, etik və təşkilatçılıq qaydalarına riayət etməli, normativ tələbləri bilməli və araşdırma etməyi bacarmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Yaş dövrlərinin təsnifatı və onun meyarlarını təhlil və müqayisə edin.
2. Elmi portaldan bir məqalə seçin və onu quruluşuna görə təhlil edin.
3. İnternet axtarış platformasından istifadə edərək bir nəzəri və bir praktiki məqalə tapın və onları təhlil edin.
4. Tanıdığınız axtarış portallarına daxil olaraq psixoloji mövzuda son beş ildə nəşr olunan məqalə tapın və təhlil edin.
5. Bir peşə növünü seçib Klimovun 8 bucaq konsepsiyasına görə təhlil edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Müasir psixoloji bilikləri ətraflı şəkildə izah edir”**

1. Aparıcı fəaliyyət anlayışının psixoloji təhlilini verin.
2. Psixi inkişafın yaş dövrləri bir-birindən nə ilə fərqləndirilir?
3. Məşhur yaş təsnifatları üzrə nümunə gətirin. Hansı yaş təsnifatı daha geniş və müasir sayıla bilər? Öz seçiminizi ətraflı izah edin.
4. İlk gənclik dövrü üçün hansı fəaliyyət növü aparıcı sayılır?
5. Kiçik məktəb dövrü hansı yaş mərhələsini əhatə edir?
6. Klimova görə, peşə seçimi neçə mərhələdən keçirilir?
7. Elmi məqalələrin meyarlarını izah edin.
8. Məqalələrin qiymətləndirilmə prinsiplərinə nə aiddir?

## 1.3. Yaşlar üzrə maarifləndirmə və təşviqat materialları tərtib edir

### 1.3.1. Yaşların ümumi xüsusiyyətləri

Maarifləndirmə işi insanların yaş xüsusiyyətlərinə uyğun olmalıdır. Maarifləndirmə mövzusunun müəyyənləşdirilməsi üçün aparıcı fəaliyyət, yaş böhranları və sosial vəziyyət nəzərə alınmalıdır.

İnsanın inkişafı və şəxsiyyətin formalaşması mürəkkəb və qeyri-stabil prosesdir.

İnsan doğuş anından qocalıq dövrünə qədər bir neçə yaş və böhran mərhələlərindən keçir.

İnsan obyekt kimi bir çox elm tərəfindən öyrənilir və bununla bağlı bioloji, xronoloji və psixoloji yaşların anlayışı dəyişilir. Bir çox elmdə spesifik təsnifatlar mövcuddur.

Bioloji yaş fərdin orqanizmində dəyişikləri əks etdirir, yəni orqanizmin, bütövlükdə, bioloji inkişafı bildirir və bununla bağlı daha konkret yaş mərhələləri ayırır. Orqanizmin fərdi inkişafı ontogenez adlandırılır. Ontogenez insanın dünyaya gəldiyi vaxtdan ölənə kimi keçirdiyi dövrü əhatə edir.

Fizioloji cəhətdən fərdi inkişaf 2 mərhələdən ibarətdir:

1. Perenatal (doğulana qədər) - bu dövr özü 3 mərhələyə bölünür: başlanğıc, embrional və döllənmə;
2. Postnatal (doğulandan sonra) bölünür:
   - Çağalıq - 1-10 gün;
   - Südəmər - 10 gündən 1 ilə qədər;
   - Uşaqlıq: erkən dövr: 1-3, birinci uşaqlıq dövrü 3-7 və ikinci uşaqlıq 7-12 ilə qədər);
   - Yeniyetməlik -13-16 yaş aralığı;
   - Gənclik - 17-21 yaş aralığı;
   - Yetkinlik - 22-60 yaş aralığı;
   - Yaşlılıq - 60-74 yaş aralığı;
   - Qocalıq - 75-90 yaş aralığı;
   - Uzunömürlülük dövrü - 90 yaş və daha yuxarı.

Xronoloji yaş dövrü pasport yaşını göstərir. Sosioloji yaş insanın cəmiyyətdə mövqeyini əks etdirir və bura pensiya dövrü və s. aiddir. Psixoloji yaş insanın psixi, koqnitiv, emosional xüsusiyyətlər, həmçinin, şəxsiyyətin inkişafını əks etdirir.

### 1.3.2. Psixologiyada yaş təsnifatı

Psixologiyada müxtəlif yaş təsnifatları vardır. Onların əsasında bir çox meyar dayandırılır. Elmdə öz əksini tapan və geniş yayılan yaş təsnifatlarının təhlilinə nəzər yetirək.

Yaş dövrlərinin ayrılması 2 konsepsiyaya əsaslandırılır: insanın inkişafı fasiləsiz, sürətlənməyən və əksinə, yavaşlamayan daimi xarakter daşıyır və digərinə görə diskret

tempini dəyişən və keyfiyyətcə fərqli olan bir prosesdir.

Müasir psixologiya elmində diskret nəzəriyyənin tərəfdarları daha çoxdur. Diskret nəzəriyyəyə əsaslandırılaraq inkişaf prosesində yaş dövrlərinin ayrılmasına pedaqoji baxımdan əhəmiyyət verilir.

Psixologiyada J.Piaje, Z.Freyd, A. N.Leontyev, D.B. Elkonin və E.Erikson təsnifatları geniş tanınır və bu təsnifatların yaş dövrlərinə ayrılma meyarları müxtəlifdir (Cədvəl 1.1 və Cədvəl 1.2).

| № | İnkişaf mərhələlərinin adı | Yaş mərhələləri | Xüsusiyyəti |
|---|---|---|---|
| 1. | Erkən körpəlik | 0-1 yaş aralığı | Valideynlərə bağlılıq və məhəbbət hissi. İnsanlara inam formalaşır. |
| 2. | Körpəlik | 1-3 yaş aralığı | Uşaqda müstəqillik, özünəinam və sə bəstlik formalaşır. |
| 3. | Erkən uşaqlıq | 3-5 yaş aralığı | Rollara müvafiq davranış və təxəyyül formalaşır. |
| 4. | Orta uşaqlıq | 5-11 yaş aralığı | Əməksevərlik, qarşıya məqsəd qoyma və fantaziya forma aşır. |
| 5. | Yeniyetməlik və gənclik | 11-20 yaş aralığı | Zaman perspektivinin formalaşdırılması və yeni rolların öyrənilməsi ilə xarakterizə olunur. |

**Cədvəl 1.1. Eriksonun şəxsiyyətin inkişaf mərhələlərin modeli**

Piajenin fikrincə, uşaq avtonom və fəal məxluqdur. Piaje intellektual inkişafın ümumi inkişafa təsirini bildirir. Piaje intellekt inkişafını 4 mərhələyə ayırır:

1. Sensomotor intellekt (0-2 yaş aralığı);
2. Əməliyyata qədərki (2-7 yaş aralığı);
3. Konkret əməliyyatlar (7-11 yaş aralığı);
4. Formal əməliyyatlar (11-15 yaş aralığı).

Piaje intellekt dövrlərini müfəssəl tədqiq edir və intellekt səviyyəsinin diaqnostikası üçün xüsusi metodlar kəşf edir. Piaje uşaqlarda əvvəlcədən eqosentrik təfəkkürün yaradılması, sonra isə rasionalla əvəz olunmasını bildirir.

Psixologiya bir çox təsnifatın əsasında tarixilik və fəaliyyətin inkişafı prinsiplərinə istinad edir. L.S. Viqotskiyə görə uşağın inkişafı zamanı stabil mərhələlər krizis mərhələsinə keçir və bu dövrlər bir-birini əvəzləyir. Viqotski böhranı mənfi xarakter daşıyan proses kimi təsvir etmir, əksinə, böhran fəal inkişaf dövrü sayılır və bu zaman köhnə xüsusiyyət yenisi ilə əvəz olunur. Böhran böyümə və inkişaf deməkdir.

Viqotskiyə görə, böhrandan iki çıxış yolu olur: inkişaf, yeni mərhələyə keçid və ya köhnə mərhələdə qalmaq. İnkişafın ləngiməsi və krizisdən çıxmamasının bir çox səbəbi olur: uyğun sosial inkişaf vəziyyətin olmaması, əlverişsiz mühit və s..

| № | Yaşın adı | Yaş mərhələsi | Yaş dövrünün xüsusiyyəti |
|---|---|---|---|
| 1. | Çağalıq böhranı | 0-2 ay | İlk olaraq L.S. Vıqotski tərəfindən müəyyən və təsvir edilmişdir. Doğum zamanı uşaq fiziki olaraq anadan ayrılır, lakin bioloji cəhətdən ayrılmamış sayılır. Uşaq əsas həyati funksiyaları uzun müddət yerinə yetirmə iqtidarında deyil və bioloji cəhətdən asılı bir vəziyyətdə qalır. Bu dövr prenatal və postnatal mərhələlərin keçid dövrü sayılır. |
| 2. | Körpəlik dövrü | 2 ay-1 il | Körpənin yalnız bioloji bir varlıq kimi olduğu görünə bilər, lakin bu, yanlış fikirdir. Bu yaşda uşaq artıq sosial bir varlıqdır. Onun bütün ehtiyacları yalnız böyüklər tərəfindən təmin olunur. Uşağın dünyaya münasibətinin kəskin dəyişməsi baş verir - fəal maraq və sosial reaksiyalar yaranır (sevinc, müdafiə və axtarış – müşahidə hərəkətləri yaranır). |
| 3. | 1 yaş böhranı | 1 yaş | Uşaq artıq ayağa qalxmağı öyrənir və onda müstəqillik yaranır. Yeni bacarıqlar kəskin artır - oyunda və özünə xidmətdə çox saylı bacarıq yaranır, müstəqil hərəkətlərə cəhd göstərir və böyüklərin köməyindən bəzən imtina etməyə başlayır.<br>Bu dövr çox həssas hesab olunur. |
| 4. | Erkən uşaqlıq dövrü | 1-3 yaş | Erkən uşaqlıq dövründə fiziki inkişaf, intensiv böyümə və bədən çəkisi artımı ilə xarakterizə olunur. Sinir sistemi aktiv şəkildə inkişaf edir. Uşağın hərəkət qabiliyyəti yaxşılaşır - uzun müddət gəzə bilir və onda nitq və koqnitiv bacarıqlar güclənir. Uşağın müstəqilliyi, digər obyektlərə marağının artması və onun üçün təhlükəli olan vəziyyətlərin sayının artmasına gətirib çıxarır ki, bu da valideynlərin narahatlığının artmasına səbəb olur. Nəticədə qadağalar ortaya çıxır və bu, yeni krizisə gətirib çıxarır. |
| 5. | 3 yaş böhranı | 3 yaş | L.S. Vıqotski üç yaşın böhranı dövründə uşağın xüsusiyyətlərini "7 simpton" ilə izah edir. Bu simptonlar aşağıdakılardır:<br>1. Neqativizm - böyüklərin söylədiklərinə tam əks reaksiya verilməklə xarakterizə olunur; |

| № | Yaşın adı | Yaş mərhələsi | Yaş dövrünün xüsusiyyəti |
|---|---|---|---|
| | | | 2. Despotizm - uşağın yaxın adamlarla bağlı onların istədiyi hər şeyi etməyə məcbur edilməsidir;<br>3. İnadkarlıq - uşağın öz istədiyi üçün deyil, başqaları tələb etdiyi üçün bir şeyə israr edən reaksiyasıdır və hadisə dəyişdiyi halda belə öz qərarından imtina etmir;<br>4. Təvazişlik - tərbiyə normaları, münasibətlər sistemi və ailənin həyat tərzinə qarşı yönəldilmişdir;<br>5. Özbaşınalıq - hər şeyi özü etmə arzusu ("mən özüm" əsas sözlərdir) və uşağın qabiliyyətinə yetərli olmayan və çox vaxt uşağın imkanları üçün qeyri-adekvat olan hərəkətlər etmə arzusudur. Bu halda uşaq öz gücünü sınayır və imkanlarını yoxlayır;<br>6. Üsyan - valideynlər ilə tez-tez qarşıdurmalarda ortaya çıxır. Uşağın müstəqilliyini ciddi şəkildə qəbul etməsi ilə bağlıdır;<br>7. Dəyərsizləşmə - uşağın gözündə tanış və əvvəl maraqlı olan sevdiyi əşyaların dəyərsiz olması ilə xarakterizə olunur. |
| 6. | Məktəbəqədər yaş dövrü | 3-7 yaş aralığı | Nitqin inkişafı ilə xarakterizə olunur. Oyun xüsusi rol oynayır. Bu yaşa uyğun oyun növləri cədvəl 1.3-də göstərilib. |
| 7. | 7 yaş böhranı | 7 yaş | Krizis uşağın sosial vəziyyətinin dəyişməsi və yeni rolların adaptasiyası ilə (şagird rolu) bağlıdır. Uşaq böyüklər kimi olmağı arzulayır və bu dövrdə uşağın sosial bir "mən" rolu meydana çıxır. Əsas fəaliyyət növü dəyişir: artıq oyun yox, məktəbə hazırlıq və təhsil fəaliyyəti önəmli rol oynayır. |
| 8. | Məktəb yaş dövrü | 7-13 yaş | Məktəbdə yeni biliklərin əldə edilməsi ilə xarakterizə olunur. Məktəbə başladıqdan sonra yeni qorxuları yaranır:<br>xəstələnmə, dərsə gecikmə, pis qiymət alma, valideynlərin bəyənməməsi (pis qiymətə görə onları məyus etmə) və s.. |

| № | Yaşın adı | Yaş mərhələsi | Yaş dövrünün xüsusiyyəti |
|---|---|---|---|
| 9. | 13 yaş böhranı | 13 yaş | Davranışın dəyişməsi (məktəb fəaliyyətinin passivləşməsi, valideynlərlə münasibətlərin pisləşməsi və s.). Bu dövrdə bütün maraq sisteminin radikal şəkildə dəyişilməsi və yenidən qurulması ilə xarakterizə olunur. Uşaq valideynlərindən uzaqlaşmaq və özünü yeni fəaliyyət növlərində sınamağı arzulayır və yaşıdları ilə münasibətlər birinci yerdə durur. |
| 10. | Pubertat yaş | 13-17 yaş aralığı | Fizioloji və hormonal dəyişikliklər baş verir - cinsi yetişmənin sürətlənməsi psixi inkişafa da böyük təsir göstərir. Müstəqilliyə tələbat artır və ziddiyyətdən törənən yaş böhranı yeniyetmənin yaşlılığa keçidini şərtləndirir. Romantik coşqunluq və kobud hərəkətlər peyda olur. |
| 11. | 17 yaş böhranı | 17 yaş | Yeni həyat qorxusu yaranır: səhv etmə qorxusu, düzgün seçim etməmə; həm təhsil, həm də həyat yolu seçimində. Həyat tərzinin kəskin dəyişilməsi, yeni fəaliyyətlərin daxil edilməsi yeni insanlarla ünsiyyət əhəmiyyətli gərginliyə səbəb olur. Dünyagörüşün formalaşdırılması dövrü hesab olunur. |

**Cədvəl 1.2. L.S. Vıqotskiya görə uşağın inkişafının dövrləşdirilməsi**

Məktəbəqədər yaşda uşağın psixikasının inkişafına rollu-süjetli oyunlar xüsusi təsir göstərir. Bu oyun növü təşəbbüskarlıq əsasında formalaşır, oyunun süjetini özləri müəyyən edir və rollar və oyun materialları paylaşırlar. Rollu-süjetli oyunlarda fantaziyanı genişləndirilir və təxəyyül zənginləşdirilir (Cədvəl 1.3).

| Oyunda inkişafın mərhələləri | Uşağın yaşı | Məzmun | Oyun partnyorları | Oyunun uşağın inkişafına təsiri |
|---|---|---|---|---|
| Əşyavi-manipulyativ | Kiçik məktəbəqədər yaş dövrü (2,5-4 yaş aralığı) | Böyüklərin rolları təkrarlanır. | Partnyor tələb olunmur. | İnsanların cəmiyyətdə olan funksiyaları öyrənilir (ana, satıcı, müəllimə və s). |
| Rollu-süjetli oyunlar | Orta məktəbəqədər yaş (3,5 yaş) | Oyunların məzmunu mürəkkəbləşdirilir. Qaydalar vardır, | Yoldaş tələb olunur və qaydaları pozduğu | Birgə fəaliyyət oyun formaları daha çox oynanılır. |

| Oyunda inkişafın mərhələləri | Uşağın yaşı | Məzmun | Oyun partnyorları | Oyunun uşağın inkişafına təsiri |
|---|---|---|---|---|
| | | lakin açıq formada müzakirə olunmur. Daha çox ailə həyatına aid olunan (ana, qardaş və nənə), tərbiyəedici (dayə və müəllimə), peşə (həkim, əsgər və kosmonavt), nağıl personajlarına və s. aid rollar yer tutur. | zaman uşaqlar arasında dava yaranır. | Əməkdaşlığın sadə formaları yaranır. |
| Rollu-süjetli qaydalı oyunlar | Böyük məktəbəqə ər yaş dövrü (5-7 yaş aralığı) | Qanun və qaydalar açıq müzakirə olunur və ciddi nəzarətdə saxlanılır. Oyun formaları təkmilləşdirilir və yeni fəaliyyət növləri meydana çıxarılır. | Yoldaş tələb olunur və qaydalar pozulduğu zaman həmin şəxs başqa uşaqlar tərəfindən oyundan uzaqlaşdırılır. | Özünütənzimləmə, idrak, təşkilatçılıq və idarəetmə bacarıqları inkişaf etdirilir. |

**Cədvəl 1.3. Məktəbəqədər yaşlarda oyun fəaliyyətinin əsas mərhələləri**

D.B. Elkonin öz modelində Vıqotski və Leontyevin nəzəriyyələrini birləşdirərək yeni təsnifat yaradıb. Elkoninin öz yaratdığı modelində 6 aparıcı fəaliyyət növü hər yaşa uyğun ayrılıb:

1. Körpəlik dövrü, 1 yaşadək və aparıcı fəaliyyət – vasitəsiz emosional ünsiyyət;
2. Erkən uşaqlıq dövrü, 1-3 yaş aralığı və aparıcı fəaliyyət – manipulyativ fəaliyyət;
3. Məktəbəqədər yaş dövrü, 3-6 yaş aralığı və aparıcı fəaliyyət – rollu oyunlar;
4. Kiçik məktəb yaşı, 6-10 yaş aralığı və aparıcı fəaliyyət – təlim fəaliyyəti;
5. Yeniyetməlik dövrü, 10-15 yaş aralığı və aparıcı fəaliyyət – şəxsi-intim ünsiyyət;
6. Gənclik dövrü, 16-18 yaş aralığı və aparıcı fəaliyyət – təlim-peşə fəaliyyəti.

Müasir psixologiyada yaş dövrlərinin ayrılması şərti deyil, lakin yaş dövrlərinin anlayışı və hər mərhələyə uyğun psixoloji amillərin anlaşılması təhsil sahəsində işləyən psixoloq üçün zəruridir. Təsnifatların təhlili göstərir ki, hər yaş psixoloji xüsusiyyətlər və yeniliklərlə fərqləndirilir (aparıcı fəaliyyət növü və inkişafın sosial şəraiti ilə və s).

1. Maarifləndirmə zamanı aşağıdakı tələbləri yerinə yetirmək zəruridir:
2. Mövzu yaş qruplarına uyğun seçilməlidir;
3. Qarşılıqlı, səmimi münasibət qurulmalıdır;
4. Suallar əvvəlcədən düşünülməlidir;
5. Verilən məlumat və materiallar mövzuya uyğun olmalıdır;
6. Suallar konkret və aydın olmalıdır.

Kiçik məktəb və məktəb yaşlı uşaqlar üçün onların psixoloji xüsusiyyətləri nəzərə alınaraq maarifləndirmə proqramı oyun formasında qurulmalı və 30-50 dəqiqədən çox olmamalıdır. Daha böyük yaş qrupları üçün rollu-süjetli oyunlar formasında, kiçik qrupa aid olunan uşaqlar üçün isə təlimin fərdi keçirilməsi daha effektiv sayılır. Böyüklərlə işlənərək xüsusi standartlaşdırılmış və yaş normalarına uyğunlaşdırılmış testlərin istifadəsi mümkündür: intellektual inkişaf səviyyəsinin müəyyənləşdirilməsi üçün intellekt testləri olan Veksler, Raven və Amtxauer; psixoemosional vəziyyəti üçün proyektiv metodlar; peşə seçimi üçün proforientasiya testləri, oyunları və s..

## Tələbələr üçün fəaliyyətlər

1. Vıqotski və Elkonenin təsnifatını müqayisə edin. Hər modelin müsbət (güclü) və mənfi (zəif) tərəflərini göstərin.
2. Bioloji və psixoloji təsnifatların fərqlərini göstərin.
3. Hansı yaş qrupları məktəb dövrünü əhatə edir? Hər təsnifata görə bu yaş qruplarının xüsusiyyətlərini təsvir edin (aparıcı fəaliyyət və inkişaf prinsipləri).
4. Eriksonun təsnifatından istifadə edərək yeniyetmə qrup üçün maarifləndirmə mövzularını müəyyənləşdirin.
5. Yeniyetməlik və gənclik dövrlərinin psixoloji fərqlərini təhlil edin.
6. Yuxarıda qeyd olunan (yeniyetməlik və gənclik) yaş qruplarının valideynləri üçün maarifləndirmə proqramını təsvir edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Yaşlar üzrə maarifləndirmə və təşviqat materialları tərtib edir”**

1. Aparıcı fəaliyyət nədir?
2. Nəyə görə psixoloqlar yeni təsnifatlar yaradıblar? Bioloji təsnifatla psixoloji təsnifatın fərqlərini sadalayın.
3. Yaş anlayışının hansı təsnifatları mövcuddur?
4. Postnatal dövr hansı mərhələlərə ayrılır?
5. Uşaqlıq dövrünün yaş mərhələlərinin fəaliyyət növlərini təsvir edin.
6. Piajenin təsnifatının əsas cəhətlərini göstərin.
7. Eriksona görə hansı yaş dövrləri vardır?
8. Eriksonun yaş təsnifatının xüsusiyyətlərini göstərin.
9. Maarifləndirmədə yaş dövrlərinin ayrılması nə üçün lazımdır?

## 1.4. Böhran dövrləri və yeni şəraitə uyğunlaşma müddətində pedaqoq, valideyn (qəyyum), tərbiyəçi və digər səlahiyyətli şəxslərə təhsilalanlara psixoloji dəstək vermək üçün tövsiyələr verir

Valideynlər və pedaqoqların uşağın psixikası barədə məlumatlandırılması məktəb psixoloqunun funksiyalarından biridir. Uşaqların psixi və fiziki inkişafına təsir edən amillər çoxdur və valideynlər uşaqlarında baş verən psixoloji dəyişikliklərə əhəmiyyət vermirlər. Buna görə də hər bir valideyn məlumatlı olmalı və uşağının sağlam şəraitdə böyüməsini təmin etməlidir. Məktəb psixoloqu bütün istiqamətlərdə valideynlərlə birgə işlər aparmalı və inkişafın sosial situasiyasının formalaşmasında valideynlərin rolunu göstərməlidir.

### 1.4.1. Ailənin uşağın inkişafındakı rolu

Ailə cəmiyyətin vahidi və əsas quruluşudur. Ailə üzvləri və ümumiyyətlə, ailə sisteminin atmosferi və xüsusiyyətləri uşaqların həyatına təsir göstərir.

Ailə sosial bir institutdur və cəmiyyətin vahidi və modeli sayılır. Ailə qədim tarixə malikdir və bir çox dəyişikliyə məruz qalıb. 21-ci əsrdə ailə anlayışı və strukturu sürətlə dəyişilir. Hal-hazırda, demək olar ki, klassik ailədən modern ailəyə keçid dövrüdür.

Ailənin mahiyyəti onun quruluşu, forması, ailə üzvlərinin qarşılıqlı əlaqəsi və onların funksiyalarında ifadə olunur.

Növünə görə ailələr 2 tipə bölünür:

1. Sadə ailə - nuklear ailədir və ata-ana və uşaqlardan ibarətdir.
2. Mürəkkəb ailə - digər ailə üzvlərinin olması ilə xarakterizə olunur və üç və yaxud daha çox nəsildən – baba-nənə, ata-ana və uşaqlardan ibarətdir.

### 1.4.2. Ailənin əsas funksiyaları

Ailə institut kimi bir çox funksiyanı yerinə yetirir. Biz ailənin yalnız psixoloji funksiyalarını nəzərdən keçirəcəyik.

Üzvlərin xüsusi ehtiyaclarının ödənilməsi ilə birbaşa bağlı olan ailə həyatı ailənin funksiyası adlandırılır. Ailənin öz funksiyalarını yerinə yetirməsi yalnız üzvləri üçün deyil, bütövlükdə, cəmiyyət üçün vacibdir.

Ailənin yerinə yetirdiyi psixoloji funksiyalar aşağıda təqdim olunur:

1. Ailənin tərbiyəvi funksiyası olduqca mühümdür. Ailədə həm yaşlılar, həm də uşaqlar tərbiyə olunurlar. Ailə hər bir insan üçün sağlamlaşdırıcı və psixoterapevtik mühitdir. Cəmiyyətə münasibətdə və tərbiyə funksiyası yerinə yetirilərkən ailə gənc nəslin ictimailəşdirilməsi və cəmiyyətin yeni üzvlərinin yetişdirilməsini təmin edir;
2. Ailənin məişət funksiyası ailə üzvlərinin (ərzaq, sığınacaq və s.) maddi ehtiyaclarını ödəməkdən ibarətdir və sağlamlığının qorunmasına kömək edir;
3. Ailənin emosional və bərpaedici funksiyası. Ailə üzvləri tərəfindən rəğbət, hörmət, tanınma, emosional dəstək və psixoloji qorunma ehtiyacları təmin olunur. Bu funksiyada cəmiyyət üzvlərinin emosional sabitləşdirilməsi təmin edilir və psixi sağlamlığının qorunmasına aktiv töhfə verilir;

4. Mənəvi (mədəni) ünsiyyətin funksiyası, birgə istirahət üçün ehtiyacların qarşılanması, qarşılıqlı mənəvi zənginləşmə və cəmiyyət üzvlərinin mənəvi inkişafında mühüm rol oynayır.

Zaman keçdikcə ailənin funksiyalarında dəyişikliklər olur: bəziləri itirilir, digərləri isə yeni sosial şərtlərə uyğun olaraq dəyişilir.

Ailə münasibətləri qeyri-sağlam olduğu zaman uşağın məktəbə adaptasiyasının daha ağır keçməsinə səbəb olur. Psixoloqun valideynlərlə apardığı maarifləndirmə işləri ailə münasibətləri, uşaqların tərbiyəsi, psixoloji inkişaf və sağlamlıq (psixosomatika) və ailə tərbiyəsi tiplərinin izahına yönəldilməlidir. Belə iş formaları mühazirələr, seminarlar və fərdi görüşlərdən ibarət ola bilər.

### 1.4.3. Uşağın inkişafında təhsil sisteminin rolu

Təhsil sisteminin funksiyası böyükdür: məktəbdə şagirdin şəxsiyyət kimi formalaşması və şəxsi potensiallarının reallaşması üçün imkanların yaradılması.

Hal-hazırda təhsildə müəllimin fəal rolu və formalaşdırıcı təsirinin vurğulandığı şəxsiyyət və nəticə yönümlü strategiyadan istifadə olunur. Müəllimin fəaliyyəti təsirli və həlledici amil kimi qiymətləndirilir.

Pedaqoji fəaliyyət sahəsində çalışan müəllim və tərbiyəçilərin psixoloji bilikləri genişləndirilməlidir. Müəllimlərin təkmilləşməsi üçün seminarlar təşkil edilməklə müxtəlif istiqamətdə və mövzularda işlər aparıla bilər: psixologiya elmindəki yeniliklərlə tanış etmək, müəllimlərin ümumi psixoloji savadının yüksəldilməsinə kömək etmək və pedaqoji-psixoloji problemlərin müzakirələrini etmək.

Yuxarıda göstərilənlərə əsaslanaraq psixoloq təhsildə aşağıdakı vəzifələri yerinə yetirir:

- Şəxsiyyətin formalaşması və təlim-tərbiyə prosesində yaş və fərdi xüsusiyyətlər barədə maarifləndirmə;
- Uşaqların məktəb təliminə hazırlıq səviyyəsinin aşkara çıxarılması;
- Uşaqların məktəb təlimi şəraiti və məktəb həyatına daha yaxşı uyğunlaşmasının təmin edilməsi;
- Uşağın keçid və böhran dövrlərinin xüsusi nəzarətdə saxlanması;
- Təlimdə geridə qalan və mürəkkəb davranışlı uşaqların müşahidə edilməsi;
- Şagirdlər, müəllimlər və valideynlər üçün anlaşıqlı və asan tövsiyələrin hazırlanması.

Uşaqda gələcək inkişafın bazası "aktual inkişaf zonası" ilə bağlıdır. Malik olunan faktiki imkanlar ilə əldə edilən psixi imkanlar sonradan inkişaf olaraq müstəqil imkanların artırılmasına təkan verir.

### 1.4.4. Böhranın psixoloji xüsusiyyətləri

Görkəmli rus psixoloqu Vıqotski təlim və tərbiyə prosesinin rolunu göstərir və yaş

dövrlərini ayıraraq bir yaşdan digərinə keçidini böhran ilə əlaqələndirirdi. Psixoloji böhranlar haqqında bir çox tanınmış psixoloq yazıb, məsələn, Zigmund Freyd, Lev Vıqotski, Elkonin, Bojoviç və s..

Sovet psixoloqu Daniel Elkoninin fikrincə, böhranlar uşaqların zehni inkişafı üçün vacib bir mərhələdir və o, qaçılmazdır: hər bir şəxs bu böhranlarla qarşılaşacaq. "Böhranlar qaçınılmazdır və onları inkişaf dəyişiklikləri kimi dəyərləndirmək olar. Böhranın vaxtında və düzgün istiqamətdə baş verməməsi uşağın inkişafında uğursuzluğun göstəricisidir".

Elkoninə görə böhran neqativ və düzgün getməyən inkişafın əlamətidir, lakin Vıqotskiyə görə böhran normativ və pozitiv bir funksiya daşıyan prosesdir. Vıqotski konsepsiyası çərçivəsində böhranın nə olduğu, uşağın inkişafında baş verən xüsusiyyətlər və böyüklərin uşağın yeni mərhələyə keçməsinin asanlaşdırılmasına necə kömək edə biləcəyini müzakirə edəcəyik.

Yaş böhranı bir yaş dövründən digərinə keçid mərhələsidir. Yaş böhranları - dramatik psixoloji dəyişikliklərlə xarakterizə olunan və yaş inkişafında yeni keyfiyyətcə spesifik mərhələyə keçidin xüsusi və nisbətən qısa müddətli dövrləridir. Böhran dövrləri, ümumiyyətlə, bir neçə ay davam edir, lakin əlverişsiz şərtlərdə onlar bir neçə il davam edə bilər.

Yaş böhranları, ilk növbədə, inkişafın adi sosial vəziyyətinin məhv olması və insanın psixoloji inkişafının yeni səviyyəsinə daha uyğun olan yeni vəziyyətin meydana çıxarılması ilə əlaqədardır. Yaşla əlaqəli böhranların gedişatının forması, müddəti və şiddəti insanın fərdi-tipoloji xüsusiyyətləri, sosial və mikro-sosial şəraiti, ailədəki tərbiyənin xüsusiyyətləri və bütövlükdə, pedaqoji sistemdən asılı olaraq ciddi şəkildə fərqləndirilə bilər.

Hər yaş böhranı insanın dünyagörüşünün dəyişilməsi ilə yanaşı, eyni zamanda cəmiyyət və özünə münasibətdə vəziyyətin dəyişməsi ilə xarakterizə olunur.

Yaş böhranları haqqında məlumat valideynlər, tərbiyəçilər və pedaqoqlara uşaqlarla düzgün davranmaq və uşağın davranışındakı dəyişikliklərə düzgün reaksiya verməyə kömək edir. Ailə sisteminin uşağın inkişafına təsiri böyükdür, buna görə hər bir valideyn məlumatlandırılmalı və uşağı ilə nə baş verdiyini bilməlidir.

Yaş böhranları bir insanın həyatının bütün sisteminə təsir edir: ailə və dostlar ilə münasibətlər və maraq və dəyərlərin dəyişilməsi ilə müşahidə olunur.

Valideynlər və müəllimlərin bilmələri lazım olan və ümumi tövsiyələr:

1. Böhranlarla mübarizə aparmaq lazım deyil, çünki bu, normativ bir özəllikdir - müəyyən yaşda bütün uşaqlarda özünü büruzə verən bir böhranın olmaması uşağın 1-ci mərhələdən digərinə keçməməsi və ilişib qaldığını göstərə bilər, o zaman uşaq zehni və psixoloji inkişafının yoxlanması üçün mütəxəssislərə aparılmalı və düzgün diaqnoz qoyulmalıdır;
2. Böhran - duyğular, maraqlar və yeni imkanlar ilə müşayiət olunmaq, böhranla mübarizə aparmaq və özünüzə qarşı mübarizə aparmaq deməkdir;
3. Cəza uşağın psixikasına ciddi fəsadlar gətirir, qorxu yaradır və özünəhörməti azaldır. Cəzalar təsirli sayılmır, çünki uşaq cəzanın səbəblərini başa düşmür (xüsusən , uşağın yaşı azdırsa, o zaman o hansı səbəbdən cəzalandırıldığını başa

düşməyəcək). Böhran dövrlərində uşaqlar həssas olurlar və cəza uşağın psixikasında ciddi iz qoya bilər;

4. Uşaq üçün böhran çətin bir dövrdür, baş verən dəyişikliklər və çətinliklər nəzərə alınmalı və uşaqlar valideyn tərəfindən başa düşülməli və qəbul edilməlidir. Böhran zamanı uşağın tənəzzülə uğraması, dərsləri öyrənməsi, yaxşı qiymətlər alması və digər yaranan problemləri eyni vaxtda həll etməsi, sevilməsi və yaxşı oxuması üçün kifayət qədər enerjisi olmaya bilər;
5. Bir tərəfdən, uşağa daha çox muxtariyyət vermək lazımdır, amma digər tərəfdən valideyn uşağın sağlamlığı və gələcəyi üçün tam məsuliyyət daşıyır və buna görə uşağın özünə zərər verməməsi və s. üçün onu nəzarət altında saxlamalıdır.

Valideynlər və pedaqoqlar üçün verilən tövsiyələr fərqləndirilməlidir. Pedaqoqlar üçün maarifləndirmə təhsil ilə bağlı suallar ətrafında aparılır: adaptasiya problemləri, təhsil üçün motivasiyanın olmamasının səbəbləri, uşaqların yaşla bağlı xüsusiyyətləri və onların təhsilə təsiri, uşaqların aparıcı fəaliyyəti və onun yaşdan asılı dəyişməsi, risk qrupunda olan uşaqlarla bağlı tövsiyələr və uşağın sosial və ailə şəraitindən asılı olaraq krizislərin gedişatı.

Baxmayaraq ki, psixoloq maarifləndirmə işini məktəb və təhsil çərçivələrində aparır və valideynlər üçün tövsiyələr başqa mövzulara da aid ola bilər: ailə içi münasibətlər və uşağa birbaşa təsir edən ər-arvad arasında münaqişələr.

Ailə sistemi, münasibətlərin xüsusiyyətləri və valideynlərin tərbiyə mövzusunda savadlılığı uşağın təhsildəki performansına təsir edir. Bu səbəbdən də risk qrupunda olan uşaqlarla (problemli ailələr, natamam ailələr, qohumların himayəsi altında olanlar (valideynləri olmayanlar), əqli və psixi geriləmələri olanlar və pedaqoji cəhətdən boş buraxılmış uşaqlarla bağlı məsələləri ayırmaq lazımdır.

Təhsilalanların dövrü 3 böhranı əhatə edir: 7, 13 və 17 yaş böhranları. Bu böhranların təsviri, yaranan çətinliklərin səbəbləri, simptomları və böhranlarla əlaqədar valideynlərə verilən məsləhətlər Cədvəl 1.4.-də təqdim olunur:

| Böhran | Səbəblər, simptomlar və valideynlərə tövsiyələr |
|---|---|
| 7 yaş böhranı | Yaranan çətinliklərin səbəbləri:<br>• Yeni mühitə uyğunlaşma - bir neçə aya qədər davam etdirilə bilər;<br>• Uzun müddət valideynlərdən ayrılma;<br>• Yeni “məktəbli” rolunun yaradılması;<br>• Məsuliyyətin artırılması - dərs və məktəbdə özünü aparma qaydaları, ev tapşırıqları və s.;<br>• Yeni tətbiq edilməli olan ciddi məktəb qaydaları;<br>• Ev rejimindəki dəyişikliklər – oyunlara vaxtın azaldılması;<br>• Cəmiyyətin dəyişilməsi - yeni insanlar və onlarla əlaqələrin qurulması.<br>Davranış xüsusiyyətləri: |

<table>
<tr><th>Böhran</th><th>Səbəblər, simptomlar və valideynlərə tövsiyələr</th></tr>
<tr><td></td><td><ul><li>Davranışın pisləşməsi, şıltaqlıq, aqressiya və sözə qulaq asmama;</li><li>Təcavüz - valideynlər və özünə qarşı qəzəb;</li><li>Passivləşmə - vəzifələri yerinə yetirmədə çətinlik;</li><li>Maraq və motivasiyasının azaldılması.</li></ul>Valideynlərə məsləhətlər:<ul><li>Məktəbdən sonra uşaqla vaxt keçirmək, ona diqqət yetirmək və uşağa çox vaxt ayırmaq;</li><li>Uşaqdan daim əhval-ruhiyyəsi və gününü məktəbdə necə keçirdiyini öyrənmək və duyğuları və fikirləri ilə maraqlanmaq;</li><li>Uşağı rejim dəyişikliyinə əvvəlcədən hazırlamaq, yuxudan tez durmaq, tez yatmaq, TV, oyunlar və sairənin məhdudlaşdırılmasına başlamaq və daha müstəqil olacağı üçün daha çox göstəriş vermək;</li><li>Məktəblə və dərslərlə bağlı təzyiq göstərməmək və bütün ev tapşırıqlarını mükəmməl etməyə məcbur etməmək;</li><li>Öyrənməyə həvəsləndirmək və hər gördüyü işdən sonra tərifləmək;</li><li>Cədvəl və əvvəlki əlaqələri kəskin şəkildə dəyişdirməmək;</li><li>Uşağın rejimində mütləq fiziki fəaliyyətdə olma - məşq, idman və üzgüçülük;</li><li>Pedaqoqlar oxumağa motivasiyanı qaldırmaq üçün uşaqlarla daha sərbəst rəftar etməli, çox ciddi olmamalı (çünki uşaq qaydaları tam bilmir və öyrənir, bu isə vaxt tələb edir) və qiymətləndirmə prosesində diqqətli olmalı. Canlı emosiyalar olduğu halda dərslərin səmərəsi daha yüksək olar.</li></ul></td></tr>
<tr><td>13 yaş böhranı</td><td>Yaranan çətinliklərin səbəbləri:<ul><li>Orqanizmdə baş verən hormonal dəyişikliklər və bədəndəki dəyişikliklər. Yeniyetməlik çağına çatdıqda aydın şəkildə oğlanlarda kişiləşmə, ani boy artımı və ikinci seksual əlamətlərin özünü biruzə verməsi prosesi gedir. Qızlarda bu proses (3-4 il) təqribi iki il tez başlayır və oğlanlara nisbətən (4-5 il) daha az müddət davam edir. Bu yaş dövrü seksual istəklər və seksual enerjinin güclü artımı (əsasən də oğlanlarda) ilə xarakterizə olur. Bioloji inkişafın fazaları ilə istəklərin inkişafının fazaları üst-üstə düşür. Bir tərəfdən əvvəl maraqlanan əşyalara maraq itir (uşaq əyləncələrinə qınaqlı münasibət və s.). Eyni zamanda nə bacarıq, nə də mövcud</li></ul></td></tr>
</table>

| Böhran | Səbəblər, simptomlar və valideynlərə tövsiyələr |
|---|---|
| | davranış mexanizmləri itir. Digər tərəfdən, yeni maraqlar ortaya çıxır: yeni kitablar və cinsi maraq, əsasən, erotik xarakter daşıyır;<br>• Valideynlərdən azadlıq istəyi. Uşaq suverenlik, müstəqillik və sirlərinə hörmət tələb edir. 10-12 yaşlarında uşaqlar hələ də valideynləri ilə qarşılıqlı anlaşma tapmağa çalışırlar. Ancaq dəyərlər fərqli olduğundan məyusluq qaçınılmazdır. Bəzən böyüklər bir-birinin dəyərlərinə qarşı laqeyddirlər, uşaq isə maksimalistdir və özünə qarşı laqeydliyi qəbul etmir. Mübahisələr, əsasən, geyim tərzi, saç, evdən ayrılma, boş vaxt, məktəb və maddi problemlərlə əlaqəli olur. Öyrənməyə yeni münasibət müşahidə olunur. Yeniyetmə özünü inkişaf etdirmək istəyir və tez-tez qiymətlərinə qarşı laqeyd yanaşır, maraqlandıqlarını öyrənir və çox vaxt maraqlandırdığı məktəb mövzusunda olmur, yeni kitablar və hobbilər ola bilir. Bəzən intellektual qabiliyyət və məktəbdəki müvəffəqiyyət arasında uyğunsuzluq olur: imkanlar yüksəkdir, amma uğurlar azdır;<br>• Yetkinlik əks cinsin həmyaşıdları ilə romantik münasibətlərdə də özünü göstərir. Yeniyetmələrin paltarları ilə görünüşü və tərzi – bununla özlərini axtarır və cəmiyyətin marağını oyatmağa çalışırlar.<br>Valideynlərə məsləhətlər:<br>• Bir nümunə vermək - uşaq özü axtarışdadır və uşağın müdrik bir yetkinə bənzəmə istəyi onun inkişafında müsbət rol oynayır;<br>• Karyera seçimində kömək etmək - uşağın maraq və qabiliyyətlərini başa düşməsi və bu istiqamətdə inkişaf etməsinə kömək etmək. |
| 17 yaş böhranı | Bu yaş dövrünün spesifik xüsusiyyətləri:<br>• Gənclik maksimalizmi;<br>• Ətrafdakı adamlarla münaqişələrə meyllilik;<br>• Gələcək qorxusu;<br>• Peşə seçimində qeyri-tolerantlıq.<br>Valideynlərə məsləhətlər:<br>• Uşağın maraqları və qabiliyyətlərini anlamaq və bu istiqamətdə inkişaf etdirməyə kömək etmək;<br>• Peşə seçimində kömək etmək. |

**Cədvəl 1.4. Yaş böhranların təsviri**

Valideyn və müəllimlər uşağa kömək etmək üçün aşağıdakıları edə bilərlər:

- Daha az tələbkar olma, məktəbə uyğunlaşmasına icazə vermə, qayda və normaları izah etmə (uşaq bu qayda və normaları hələ bilmir və onları öyrənmək üçün vaxt lazımdır);
- Uşağa müstəqilliyi, xüsusən, məktəbdə öyrətmək lazımdır: ev tapşırıqlarını yerinə yetirməyə kömək etmək, lakin onun öz surəti ilə başlama və uşağa davam etmə imkanı vermək lazımdır;
- Bəzi vəzifələri həvalə etmək: özünün geyinməsi və stəkanı özünün yumağı. Uşaq məsuliyyət hiss edir və bu da böhranı daha asan aradan qaldırmağa kömək edir - hər şey oyun şəklində olmalı və müsbət dəstəklənməlidir (məcburiyyət olmamalıdır);
- Öyrənmə sevgisini aşılamaq: çətinlik olduğu təqdirdə uşağı həvəsləndirmək, ona kömək etmək və tərifləmək lazımdır;
- Yumşaq, lakin aydın bir gün rejimi qurmaq (gün ərzində uşağın istirahət etmə və axşam gəzintiyə çıxa bilmə şərti ilə). Dostlarla küçədə gəzməyi qadağan etməmək lazımdır;
- İntellektual yüklər fiziki yükdən çox olmamalıdır: üzgüçülük, idman və digər fiziki fəaliyyətlər çox faydalıdır;
- Uşağın sinif yoldaşlarını qonaq dəvət etməsi və yeni kollektivə uyğunlaşma proseslərinin hiss etmədən və asan şəkildə keçməsini təmin etmək lazımdır.

## Tələbələr üçün fəaliyyətlər

1. 15 yaşındakı uşaqların davranışları haqqında biliklərdən istifadə edərək valideynlərlə uşaqların ünsiyyət zamanı istifadə edə biləcəkləri tövsiyələri hazırlayın.
2. Yenicə məktəbə gedən uşaq üçün yuxarıdakı mətndə verilən məlumatlara diqqət yetirərək uyğun gün rejimi cədvəlini hazırlayın.
3. 17 yaşlı uşaqların böhranı ilə əlaqədar onlarla mariflendirici iş aparmaq üçün müəllimlərlə görüş proqramı hazırlayın.
4. 13 yaşındakı uşaqların valideynlərinə veriləcək tövsiyələr hazırlayın.

## Qiymәtlәndirmә

Aşağıdakı qiymәtlәndirmә meyarına әsasәn qiymәtlәndirәcәksiniz

**“Böhran dövrlәri vә yeni şәraitә uyğunlaşma müddәtindә pedaqoq, valideyn (qәyyum), tәrbiyәçi vә digәr sәlahiyyәtli şәxslәrә tәhsilanlara psixoloji dәstәk vermәk üçün tövsiyәlәr verir”**

1. Valideynlәr uşaqların zehni inkişafının xüsusiyyәtlәrini nә üçün bilmәlidirlәr?
2. Valideynlәrә verilәn tövsiyәlәr müәllimlәrә verilәn tövsiyәlәrdәn nә ilә fәrqlәndirilir?
3. Mәktәb dövrünә hansı böhranlar әhatә edir?
4. 7 yaşındakı uşaqlarda meydana gәlәn böhran xüsusiyyәtlәri hansıdır?
5. Yeniyetmәlәrin valideynlәrinә hansı tövsiyәlәr verilә bilәr?

## 1.5. Müvafiq situasiyalarda şəxsiyyətin inkişafını ləngidən neqativ təsirin qarşısını almaq üçün təhsilverənləri məlumatlandırır

### 1.5.1. Fərd, şəxsiyyət və fərdiyyət anlayışları

Şəxsiyyətin nə olduğu və onun inkişafına təsir edən faktorlar bir çox elmdə öyrənilir . İnsan, ilk növbədə, bioloji varlıq sayılır və növünə uyğun müəyyən anatomik-fizioloji imkanlara malikdir, lakin mahiyyət etibarilə sosialdır. Başqa canlılardan fərqli olaraq insan özünün subyektiv aləmində gədən prosesləri dərk edir və bu, inkişafının zirvəsini təşkil edir.

İnsan mövcudluğuna görə fərddir və bioloji varlıq kimi psixoloji keyfiyyətləri əks etdirir. Fərd özünəməxsus cəhətləri ilə xarakterizə olunur, cəmiyyət və sosial qrupu təşkil edən nümayəndələrdən biri kimi özünü göstərir. Fərd bioloji, sosial və psixi xüsusiyyətlərlə xarakterizə olunur. İnsan fərd kimi doğulur, lakin sosiallaşaraq şəxsiyyətə çevrilir. Fərdiyyət temperament, xasiyyət, vərdiş və üstünlük təşkil edən maraqların xüsusiyyətlərində özünü göstərir.

### 1.5.2. Şəxsiyyət və onun xüsusiyyətləri

Şəxsiyyət mürəkkəb bir termindir: bioloji, sosial və psixoloji münasibətlər inteqrasiya edilir. Şəxsiyyət anlayışının dərk edilməsi pedaqogika üçün çox vacibdir. İnsan bioloji varlıq kimi doğulur. Şəxs insanın sosial xüsusiyyətidir: inkişaf prosesində insanlarla münasibətdə nitq, bacarıq və vərdişlər qazanılır və sosial varlıq yaradılır.

Şəxsiyyətin ümumi xüsusiyyətləri aşağıdakılardır:

1. Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə yanaşı, eyni zamanda öz mənliyini də dərk edib qiymətləndirir;
2. Şəxsiyyətin mühitə aydın dərk olunmuş münasibəti olur:
   - Şəxsiyyəti əhatə edən əşyalara münasibəti;
   - Şəxsiyyətin əməyə münasibəti.
3. Şəxsiyyət fəal insandır. O, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü təkmilləşdirir və özünə nəzarət edir.

Anadan təzəcə doğulmuş uşaq hələ şəxsiyyət deyil. O, ünsiyyət və fəaliyyət prosesində ictimai münasibətləri mənimsədikcə şəxsiyyətə çevrilir.

Fərdin cəmiyyətdə şəxsiyyət kimi inkişafı çoxcəhətlidir. Şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur. Onun insanlar və ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişlənir və dərinləşir, məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir və öz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun ictimailəşdirilməsi (sosializasiyası) kimi xarakterizə olunur.

Digər tərəfdən, şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca daha çox müstəqillik və nisbi avtonomluq qazanır, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətinin fərdiləşdirilməsi prosesi təşkil edilir.

Fərdiyyət dedikdə, buraya xarakter, temperament, psixi proseslərin cərəyanetmə

xüsusiyyətləri, üstünlük təşkil edən hisslər və fəaliyyət motivlərinin məcmusu və formalaşdırılmış qabiliyyətlər daxildir.

Şəxsiyyətin formalaşması dedikdə, hər şeydən əvvəl təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyə, təlim və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur.

Psixologiya tarixinə nəzər salsaq, şəxsiyyətin formalaşması sahəsində bir-birinin əksini təşkil edən iki nəzəriyyənin – inkişafın endogen və ekzogen nəzəriyyəsinin mövcud olduğunu görərik:

- Endogen (yunanca "endon" – daxili və "genes" – mənşə deməkdir) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir;
- Ekzogen nəzəriyyələrdə isə insan bir növ "Tabula rasa"ya (ağ lövhə) bənzədilir və şəxsiyyətin formalaşması ancaq sosial amillərin təsiri ilə izah olunur.

Şəxsiyyət haqqında bir sıra nəzəriyyələr vardır. Bu nəzəriyyələri fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bunların heç də hamısı birbaşa şəxsiyyətin psixoloji mahiyyətinin müəyyənləşdirilməsinə yönəldilməyib.

Psixoanalitik Z. Freyd qeyd edir ki, şəxsiyyət bir sistem kimi inkişafın konkret hərəkətverici mexanizmlərinə malikdir. O, şəxsiyyətin strukturunu müəyyənləşdirib. Freydə görə 3 instansiya əsas yer tutur:

1. İd (o);
2. Eqo (Mən);
3. Super Eqo (Super Mən).

Freyd belə hesab edirdi ki, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi hər şeydən əvvəl libido - seksual istəkdir. Freydin fikrincə, həyata keçirilməyən arzular nevroz yaradır.

K. Yunq əsas psixoloji tipləri iki qismə ayırır: ekstravert və introvertlər. E. Fromm şəxsiyyətin beş tipini göstərir: reseptiv, istismarçı, yığıcı, bazar və məhsuldar. Hələ keçən əsrin başlanğıcında məşhur italyan psixoloq Lombrozo hesab edirdi ki, cəmiyyətdə cinayətkarlıq edən o adamlardır ki, onlarda cinayətkarlıq irsi və anadangəlmədir. Yəni əgər şəxs anadangəlmə cinayətkardırsa, onda o, cinayətə meyillidir və bu onda təzahür edib-etməməsindən asılı olmayaraq onun mütləq cinayətkar olmasına dəlalət edir.

Fərd ictimai münasibətləri öz-özünə deyil, ancaq özünün aktiv fəaliyyəti vasitəsilə mənimsəyir. Bu nöqteyi-nəzərdən fəaliyyət şəxsiyyətin formalaşmasının əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir. Fəaliyyətin müxtəlif növləri vardır. Körpəlik dövründən gənclik dövrünədək, əsasən, aşağıdakı fəaliyyət növlərinə rast gəlinir:

- Vasitəsiz emosional ünsiyyət;
- Əşyavi-manipulyativ fəaliyyət;
- Rollu oyunlar;
- Təlim fəaliyyəti;
- İntim şəxsi ünsiyyət;

- Tədris-peşə fəaliyyəti.

Şəxsiyyəti bir sıra psixoloji keyfiyyətlər müəyyən edir. Rus psixoloq L.İ. Bojoviç bir insanı şəxs olaraq təyin edən iki əsas meyarı müəyyənləşdirir:

1. Bir şəxsin öz motivlərində bir iyerarxiyanın olması. Təxirəsalınmaz impulsların aradan qaldırılmasının motivlərinin sosial cəhətdən əhəmiyyətli olduğu güman edilir;
2. İnsanın öz davranışını şüurlu şəkildə idarəetmə bacarığı. Bu təlimat şüurlu motivlərə - məqsəd və prinsiplərə əsaslandırılır. Bu meyar motivlərin şüurlu bir tabeçiliyinin əhatə edilməsi ilə fərqləndirilir. Şəxsiyyəti şəxs kimi xarakterizə edən xüsusi bir nümunə olaraq özünüdərkin varlığıdır.

V.V. Petuxov inkişaf etmiş (formalaşmış) şəxsiyyət üçün üç meyarı müəyyənləşdirir:

1. Şəxs tərifinə görə yaradıcıdır, çünki yaradıcılıq qeyri-müəyyən bir vəziyyətdə lazımdır və həmişə təyin olunmuş stereotipli davranış və düşüncə tərzini dəyişdirir;
2. Şəxsiyyət onun müxtəlif cəhətlərinin bütövlüyü və məcmusunu təşkil edir. Bir insanın bir çox tərəfi vardır və bəziləri hətta bir-birinə zidd ola bilər. Bu həqiqət və fərdlərin bir anda inkişafının bir neçə imkanını nəzərə alma ilə izah edilə bilər və bu onun daxili məhsuldar dialoqunun şərtidir;
3. Şəxsiyyət yalnız inkişafda mövcuddur. İnkişaf həm şəxsiyyətin daxili məkanı, həm də şəxsin digər insanlarla əlaqələri məkanında baş verir.

Digər rus psixoloqu A. Leontyev qeyd edir ki, şəxs inkişaf edərək 2 mərhələdən keçir:

1. "İlk doğuş" məktəbəqədər yaşda baş verir, ilk iyerarxik cəhətdən nizamlanmış münasibətlər və motivlər simvolizə edilir, şüursuz impulslar və istəklərin sosial normalara ilk təslim edilməsi ("acı konfet effekti") birdəfəlik proses deyildir. Bu, qəbulun xarici təzahürü və uşağın istədiyi obyekti yalnız tərbiyələndirən bir yetkin tərəfindən qadağan edilməsi olduğu üçün "götürməmə" qabiliyyətidir. Üstəlik, bu qabiliyyət uşağın bu obyektlə tək qaldığı zaman da özünü göstərməlidir: uşaq heç bir vəziyyətdə obyekti götürməyin mümkün olmadığını başa düşməlidir. Uşaq bir yetkinin təlimatına istəklərini bu cür uyğunlaşdıra bildisə, o zaman uşağın fəaliyyətinin xarici tənzimləyicisi kimi çıxış edən sosial normanın daxili tənzimləmə formasına çevrildiyini söyləmək olar;
2. "2-ci doğuş" prosesi, özfəaliyyət motivlərinin tanınması, idarəetmə və bir-birlərinə tabe etmə qabiliyyətinin formalaşdırılmasında ifadə olunur və yeniyetməlik dövründə baş verir. Əsas göstərici insanın ilk müstəqil və məsuliyyətli hərəkətidir.

### 1.5.3. Şəxsiyyətin inkişafına mane olan səbəblər

İndi isə bir psixoloqun təhsil sahəsində nə edə biləcəyini nəzərdən keçirək. Psixoloji işin məqsədlərindən biri valideynlər və müəllimlərin sağlam bir şəxsiyyətin formalaşması üçün psixoloji şərtlər barədə məlumatlandırılması və uşağın gələcək inkişafı əlverişli şəraitin yaradılması üçün (müxtəlif səbəblərdən) risk altında olan uşaqların

müəyyənləşdirilməsidir.

Şəxsiyyətin uğurlu inkişafına mane olan səbəblərin növlərini nəzərdən keçirək. Şəxsi inkişafın əsas amilləri irsiyyət, ətraf mühit və tərbiyədir (Sxem 1.2).




**Sxem 1.2. Şəxsiyyətin inkişafına əsas amillərin təsiri (J. Schwanzara, 1978)**

1. İrsiyyət - Uşağın genetik meylləri - maketlər ilkin şərtlərdir. Müəyyən bir fəaliyyət növü üçün genetik şərtlər inkişaf prosesində insanın qabiliyyətinə - bir fəaliyyətin müvəffəqiyyətini təyin edən fərdi psixoloji xüsusiyyətlərinə çevrilir;
2. Mühit. Bir şəxsiyyətin meydana gəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərən müəyyən sosial-tarixi şəraitdə yaşanır. Mühitin aşağıdakı növləri fərqləndirilir: a) coğrafi; b) ev; c) sosial. İnsan üçün inkişaf mənbəyi onu əhatə edənlərin hamısı deyil, yalnız aktiv şəkildə mənimsədiyi şeylərdir. Hər bir şəxs üçün sırf fərdi inkişaf vəziyyəti vardır və ətraf mühit amilləri mənbələrin özü deyil, onun onlara münasibətidir;
3. Tərbiyə. Təhsil xüsusi elmi əsaslı proqramlara əsasən məqsədyönlü şəkildə həyata keçirilir. Təhsil prosesi müəyyən bir sistemə əsaslandırılır. Təhsil funksiyası uşaqda özünütənzimləmə, öz-özünə hərəkət və özünü inkişaf etdirmə mexanizmlərinin inkişafı ("işəsalma") səviyyəsinə endirilir.

Sxem 1.2-də təsvir olunan üçbucaq ABC hər 3 faktorun optimal təsiri, digər üçbucaqlar isə hansısa faktorun zəif olduğunu bildirir və o zaman qeyri-optimal şərait formalaşır.
Digər təsnifatlara görə 3 əsas faktor seçilir:

1. Psixoloji: ailədaxili münasibətlərin pozulması və tərbiyə-təlim tərzi, məsələn, totalitar təhsil üslubunun üstünlüyü, fiziki cəzanın tətbiqi, ər-arvadlıq münasibətlərində uzunmüddətli stress və valideynlərdən birinin nevrotik pozğunluğa düçar olması nəticəsində ailədə emosional əlaqələrin itirilməsi və tez-tez baş verən münaqişələr. Ər-arvad cütlüyü arasındakı disharmoniya uşağın emosional və şəxsi inkişafına mənfi təsir göstərir;

2. Tibbi-bioloji: irsi, anadangəlmə və qazanılmış səbəblər. Məsələn, görmə qabiliyyəti lövhəni görməyi çətinləşdirir və uşaq bəzi məlumatları qəbul etmir;
3. Sosial-iqtisadi:
   - Aztəminatlı ailələrin uşaqları;
   - Tək valideynli ailələrin uşaqları;
   - Əvvəl məhkum olunmuş valideynlərin övladları;
   - Antisosial ailə: antisosial meyllər üstünlük təşkil edir və ailə üzvləri qanunla ziddiyyətə girirlər;
   - Münaqişəli ailə: psixoloji gərginlik atmosferi və tez-tez uzanan münaqişələr hər yaşda uşağın şəxsiyyəti və zehni xəstəlikləri olan ailənin uşaqlarının şəxsiyyətinin hərtərəfli inkişafına mənfi təsir göstərir.

Ailə əxlaqi keyfiyyətlər, insanlar arasındakı münasibətlər, şəxsiyyətlərarası və sosial əlaqələrin təbiəti haqqında fikirlərin formalaşdığı bir mikrocəmiyyətdir. Ailə uşağın yaşadığı sosial-mədəni şəraitdə onun sonrakı psixofiziki və sosial inkişafını əvvəlcədən müəyyənləşdirən sistemli müəyyənedici hesab olunur.

Müasir tədqiqatlarda ailə amilinin uşağın inkişaf xüsusiyyətlərinə təsiri arasında birbaşa əlaqə aşkar edilmişdir: ailə problemi nə qədər güclü olsa, onda uşağın inkişaf pozğunluğu bir o qədər yüksək olur (V.R. Nikişina, 2004).

### 1.5.4. Şagirdlərin fərdi keyfiyyətlərinin inkişafında müəllimin rolu

Şəxsiyyət bütövdür. Buna uşağın maarifləndirici, estetik və fiziki fəaliyyətə qoşulması ilə nail olunur. Risk altında (risk qrupuna aid) olan uşaqların (sosial-psixoloji və intellektual zəmində) müəyyənləşdirilməsi və onlarla birlikdə psixokorreksiya işlərinin aparılması zəruriliyi barədə nəticə çıxarılması üçün bir məktəbdə bütün uşaqlar ekspert diaqnostikasından keçirilməlidir. Bir məktəbdə bütün şagirdlərin fərdi inkişafında mümkün problemlərin qarşısının alınması üçün sistemli işlər psixoloq tərəfindən mütəmadi təlimlər şəklində aparılır və şagirdlərin problemləri yaşlarına görə fərqləndirilir.

Diaqnostika zamanı psixoloq müxtəlif metodikalardan istifadə edə bilər: anketlər, sorğular, sadə testlər, test-tapşırıqlar, proyektiv testlər, müşahidə, sənədlərin təhlili və eksperimentlər. Proyektiv metodlardan da istifadə olunur, məsələn, tamamlanmamış cümlələr metodu: şagirdlərə yarımçıq cümlələr təqdim edilir və uşaqlar cümlələri tamamlamalıdırlar, sonra isə psixoloq nəticələri təhlil edir. Bu metod proyeksiya prinsipinə əsaslandırılır. Bu metod yazılı sorğunun bir növüdür: "insanlarda ən çox dəyər verilən ..." və ya "məktəbdə məni ən çox...". Mövcud olmayan bir heyvanın rəsmi, Lüşer və Rorşax testlərindən də geniş istifadə olunur.

Təhsil sahəsində işləyən psixoloqlar daha çox testdən istifadə edirlər, çünki bu metodlardan qrup şəklində istifadə etmək olar və nəticəni hesablamaq daha asandır. Test metodundan psixologiyada geniş istifadə olunur və indiki dövrdə testlərin mindən artıq növü vardır.

Testlər bir neçə qrupa bölünür:

1. Fərdi və qrup;
2. Verbal və qeyri-verbal;
3. Kəmiyyət və keyfiyyət;
4. Ümumi və xüsusi - insanın fərdiyyətinə aid keyfiyyətləri müəyyənləşdirilir.

Şəxsiyyətin inkişafına mane olan səbəblər və bununla əlaqədar göstərilə biləcək psixoloji kömək tədbirləri haqqında mütəmadi məlumatın verilməsi üçün təhsil sistemində işləyən psixoloq aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- Ailə tərbiyəsi tipini müəyyənləşdirmək, valideynlərin uşaqlarla münasibətləri və bütövlükdə, ailədaxili münasibətlərin öyrənilməsi məqsədilə diaqnostik işləri həyata keçirmək;
- Məktəb müdiriyyəti ilə əməkdaşlıq etməklə psixoloq davranış qüsurları olan ayrı-ayrı uşaqlarla fərdi və qrup şəklində korreksiyaedici təlimlər təşkil etmək;
- Tələbələrin fərdi böyümələrinin dinamikasını izləmək üçün il ərzində psixoloji diaqnostik yoxlamalar aparmaq.

Bu işin nəticələri şagirdin inkişafının psixoloji-pedaqoji xəritəsində qeyd olunmalıdır. Müəllimlərlə belə bir ortaq işin nəticəsi hər bir şagirdin inkişafındakı tərəqqinin mahiyyəti və dərəcəsini izləmək, habelə tələbə fəaliyyətinin öyrənmə və özünü inkişaf etdirmə səylərini qiymətləndirmək baxımından daha təsirli olacaqdır. Hər bir insanın şəxsiyyəti yalnız ona xas olan bir insanın fərdiliyi və onun digər insanlardan fərqliliyini təşkil edən psixoloji xüsusiyyətləri özündə cəmləşdirir.

## Tələbələr üçün fəaliyyətlər

1. Sosial-iqtisadi amilləri təhlil edin. Sosial-iqtisadi problemləri olan ailələrdə böyüyən uşaqların üzləşdikləri çətinlikləri ayrıca nəzərdən keçirin.
2. "Acı konfet effekti"nin özünü büruzə verdiyi uşaqlarla bağlı nümunələr və vəziyyətlər barədə düşünün. Nəyə görə psixoloqlar bu effekti "şəxsiyyətin ilk doğuşu" adlandırırlar (hansı dəyişiklik və xüsusiyyətlər yaradılır)?
3. Şəxsi inkişafın şərtlərini qiymətləndirmək üçün psixoloqun məktəbdə həyata keçirməli olduğu əsas fəaliyyətləri qeyd edin.
4. Təhsildən geri qalan uşaqların valideynləri üçün tövsiyə proqramı hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Müvafiq situasiyalarda şəxsiyyətin inkişafını ləngidən neqativ təsirin qarşısını almaq üçün təhsilverənləri məlumatlandırır”**

1. Şəxsiyyət nədir?
2. Bir şəxsiyyətin “doğuş”u nə vaxt baş verir?
3. Müəllimlərlə işləyərkən psixoloqun işi nədən ibarətdir?
4. Şəxsi inkişafın əsas amilləri hansıdır?
5. Ailə nədir və şəxsiyyətin inkişafındakı rolu nədən ibarətdir?
6. Məktəbdə psixoloqun əsas faydaları hansıdır?
7. Məktəbdə psixoloqun əsas iş sahələrini qeyd edin və onların mahiyyətini təsvir edin.
8. Şəxsiyyətin inkişafına mane olan səbəbləri sadalayın.
9. Şəxsiyyətin inkişafına mane olan 3 qrup faktor hansıdır?

# TƏLİM NƏTİCƏSİ 2

# PSİXOLOJİ PROFİLAKTİKA İŞLƏRİNİ APARMAQ

## 2.1. Psixoloji problemlərin qarşısını almaq üçün yaş mərhələləri üzrə qabaqlayıcı tədbirlər həyata keçirir

Psixoloji profilaktikada psixoloqun peşə fəaliyyətinin növlərindən biridir və bu, insanlarda inkişafdan kənaraçıxmalar, vəziyyətin daha da ağırlaşması, sosial-psixoloji və fərdi dezadaptasiyaların qarşısının alınmasına yönəldilmiş bir sıra tədbirləri əhatə edilir.



Şəkil 2.1. Psixoloji profilaktika

Psixoprofilaktikada psixokorreksiya metodlarına əsaslanmaqla əhalinin vaxtında məlumatlandırılması, "Risk qrupu"na aid edilən insanların müayinəsi, onlarla psixoprofilaktik işlərin aparılması və müşahidə olunan qüsurların simptomlarının vaxtında aradan qaldırılması nəzərdə tutulur.

Müasir psixoloji profilaktikanın əsas vəzifəsi insanlara istehsalat, təhsil, idman, ailə, biznes və digər sahələr, habelə böhranlı vəziyyət və ekstremal şəraitlərdə zəruri köməyin göstərilməsindən ibarətdir. Təhsil xidmətində bu, uşağın psixi sağlamlığının qorunması və onun inkişafındakı müxtəlif pozuntuların qarşısının alınmasına aiddir və bu da təhsil mühiti, o cümlədən, ailədəki vəziyyətin mənfi təsiri ilə əlaqələndirilə bilər (Şəkil 2.1).

Təhsil psixoloqu psixoprofilaktik işlər vasitəsilə müəllim və tərbiyəçilər, valideyn və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyəti formalaşdırır və uşaqların hərtərəfli inkişafı üçün əlverişli təhsilləndirici, tərbiyəedici və inkişafetdirici mühitin yaradılmasının əhəmiyyətini əsaslandırır.

Psixoloq sinif rəhbərləri və müəllimlərə ayrı-ayrı şagirdlər və ya onların müxtəlif sosial qruplarının qarşılıqlı olaraq digərlərinə mənfi təsirinin proqnozlaşdırılması və xəbərdarlıq edilməsi ilə davranış və qarşılıqlı münasibətlərdə yarana biləcək pozulmaların vaxtında qarşısının alınmasına yardım göstərmiş olur.

Psixoprofilaktik istiqamətdə iş aparan psixoloq aşağıdakı konkret tədbirləri həyata keçirir:

- Müəllim və şagirdlər arasında pedaqoji-psixoloji biliklər təbliğ edilir;
- Şagirdlərin şəxsiyyətinə mənfi təsir edən zərərli mənbələr aşkara çıxarılır və pedaqoji kollektiv üçün onların təcrid edilməsi və ya neytrallaşdırılmasına yönəldilmiş tövsiyələr hazırlanır;
- Qayğıdan kənarda qalmış və qabiliyyətli olan baxımsız uşaqlar aşkara çıxarılır və

onların inkişafı məqsədilə müəllimlər üçün fərdi planlar tərtib edilir;

- Sinif rəhbərləri və tərbiyəçilərə məsləhətlər verilir və psixoloji yardım göstərilir, şagirdlər arasında alkoqolizm, narkomaniya və digər neqativ halların genişləndirilməsi təhlükəsinin qarşısının alınması məqsədilə zəruri iş aparılır və pedaqoji şura üçün təkliflər hazırlanır;
- Şagirdlərə qarşı müxtəlif zorakılıq hallarının qarşısının alınması və onların təlim-tərbiyəsi və həyat şəraiti ilə bağlı məlumatlar toplanır və profilaktik tədbirlər həyata keçirilir;
- Təhsil müəssisəsi və pedaqoji və şagird kollektivində əlverişli və sağlam mənəvi-psixoloji iqlimin yaradılması sahəsində iş aparılır;
- Müəllimlər və tərbiyəçilərlə birlikdə uşaqlar və şagirdlərin təhsil müəssisəsinə adaptasiyası üzrə elmi cəhətdən əsaslandırılmış proqramlar işlənib hazırlanır və onların həyata keçirilməsində iştirak edilir;
- Sinif rəhbərləri və müəllimlərə şagirdlərlə fərdi iş proqramlarının tərtib edilməsi məsələlərində məsləhətlər verilir.

Praktik psixoloqun fəaliyyətində onun iş apardığı əsas kontingent şagirdlərdir. Bu o deməkdir ki, məktəbdə psixoprofilaktikanın əsas məqsədi şagirdin fərdi psixoloji xüsusiyyətlərinin qarşısının alınması və düzgün və vaxtında tanınması üçün sistematik işdir. Bu işin məqsədləri bunlardır:

- Şagirdlərin zehni və şəxsi inkişafında baş verə biləcək xəstəliklərin qarşısını almaq, həmçinin fəaliyyət və davranışlarında sapmaların qarşısını almaq;
- İnkişaf üçün ən əlverişli olan psixoloji şərait yaratmaq;
- Mövcud çatışmazlıqların kəskinləşməsinə maneə olmaq.

Bu fəaliyyət növü psixoloq tərəfindən mütəmadi psixoloji təlimlər şəklində aparılır və bu, şagirdlərin problemlərinə və yaşına görə bölünməlidir. Müəyyən yaşda olan şagirdlərin tipik psixoloji problemləri ilə işlənməsi üçün xüsusi bilik, bacarıq və vərdişlərdən istifadə olunur.

Psixoprofilaktik iş şagirdlərin şəxsiyyətlərinin formalaşmasına təsir edən valideynlər, müəllimlər və digər yetkinlərin iştirakı ilə psixoloq tərəfindən aparılır. Psixoloq müəllimlərə bəzi qrup tələbələrin digərlərinə qarşılıqlı mənfi təsirlərini proqnozlaşdırmaq və qarşısını almağa kömək edir.

Psixoprofilaktika texnologiyası uşağın inkişafı üçün optimal sosial vəziyyətin yaradılması və pedaqoji mühitin gigiyenasına yönəldilmiş psixo-pedaqoji tədbirlər sistemidir.

Profilaktika uşaqların inkişafında müəyyən çatışmazlıqlara səbəb olan xarici səbəblər, amillər və şəraitin aradan qaldırılması ilə əlaqəli profilaktik tədbirlərdir. Buraya hələ yaranmamış problemlərin həlli də daxil ola bilər. Profilaktik tədbirlər mövcud bir problemlə əlaqədar profilaktik tədbirlərin görülməsi və ya onların ortaya çıxmasının qarşısının alınması üçün həyata keçirilir.

Psixoloqların profilaktik işlərinin xüsusiyyətləri nəzərdən keçirilməmişdən əvvəl

məktəb psixoloqunun istifadə etdiyi terminologiya və digər oxşar fəaliyyətlərə diqqət yetirək.

### 2.1.1. Psixoloji monitorinq

Psixoloji monitorinq şagirdin fərdi inkişaf prosesini ölçmək və qiymətləndirmək, hər bir tələbə üçün psixoloji məlumat bankı yaratmaq və psixi inkişafın sonrakı gedişatı və fəaliyyətin uğurunu proqnozlaşdırmaq üçün müxtəlif psixoloji metodlardan istifadə edilərək daimi izləmə sistemidir (Şəkil 2.2).



**Şəkil 2.2. Psixoloji monitorinq**

Qısa desək, monitorinq sosial qrupun sistemli müşahidəsi, qiymətləndirilməsi və proqnozlaşdırılmasıdır.

Psixoloji monitorinqin əsas meyarları bunlardır:

- Sistemli iş;
- Vəziyyətin qeydiyyatının aparılması;
- Zamanda davamlılıq.

Aşağıdakı sahələrlə bağlı qeydlər aparılır:

1. Uşağın idrak sahəsi (qavrayış, yaddaş, diqqət, düşünmə, danışma və təxəyyül);
2. Təhsil fəaliyyəti sahəsi;
3. Motivasiya sahəsi;
4. Emosional-iradə sahəsi;
5. Şəxsiyyətin inkişafı.

Təhsil sahəsində psixoloji monitorinq tələbə haqqında məlumat əldə etmək və onun xüsusiyyətləri və təhsil məzmununu mənimsəməsinin uğuruna təsir edən xüsusiyyətləri müəyyənləşdirməyi özündə ehtiva edir.

Psixoloji monitorinqin məqsədləri aşağıdakılardır:

1. Tədris prosesində rast gələnən çətinliklərin vaxtında diaqnozu ilə məktəblilərin psixi və psixoloji sağlamlığının qorunması;
2. Təhsilalanın inkişafındakı mövcud və ya mümkün sapmaların qarşısının alınması və aradan qaldırılması üçün psixi inkişafın tərəqqisinin izlənməsi;
2. Hər bir uşaq üçün məktəb ilə bağlı optimal şəraitin yaradılması və şəxsiyyətin effektiv inkişafının təmin edilməsi;
3. Dezadaptiv mexanizmlər hələ formalaşdırılmadığı zaman minimal sapmaların müəyyənləşdirilməsini əhatə edən erkən müdaxilə;
4. Psixoloji inkişafda minimal sapma olan uşaqlar üçün profilaktik tədbirlərin dəstəklənməsi;

5. Uşağa şəxsiyyət kimi münasibət formalaşdırılmalı olan təhsil mühitinin humanistləşdirilməsi.

### 2.1.2. Psixoloji dəstək



**Şəkil 2.3. Psixoloji dəstək**

Psixoloji dəstək psixoloji yardım və sosial dəstəyin verilməsi üçün psixoloq ilə şəxsin onun subyektiv psixoloji problemləri üzərində qurulan vahid birləşdirilmiş bir sistemdir (Şəkil 2.3). Psixoloji dəstək prosesi fərdin müsbət cəhətləri və üstünlüklərinə yönəldilir, özü və bacarığına inamın bərpa edilməsinə kömək edir və fərdin xarici və daxili amillərə qarşı dayanıqlılığını artırır.

Eyni zamanda, alınan qərarların məsuliyyəti şəxsin özünə aiddir və konsultant yalnız insanın maraqlarını nəzərə alaraq onunla müzakirə etmə hüquqlarına malikdir.

Təhsildə psixoloji dəstəyin məqsədi, İ.V. Dubrovinanın qeyd etdiyi kimi məktəbəqədər və məktəbli uşaqların psixi və psixoloji sağlamlığını təmin etmək, yəni ontogenezin bütün mərhələlərində uşağın tam psixi inkişafı üçün şərait yaratmaqdır. Bununla əlaqədar olaraq psixoloji dəstəyin əsas istiqaməti psixoloji sağlamlıq pozulmasının qarşısının alınması və şagirdin inkişafındakı mümkün sapmaların proqnozlaşdırılmasından ibarətdir. Beləliklə, məktəbdə psixoloji dəstək psixoloq və müəllimlərin uşağın dəyişən şəxsiyyəti ilə birlikdə irəliləməkdir ki, lazım olanda şagirdə davranış və fəaliyyətlərinin tənzimlənməsi mexanizmlərinin anlaşılması və istifadə edilməsində müvafiq yolların seçilməsində vaxtında kömək göstərilsin, həmçinin şəxsiyyətə təsir, düzəliş və formalaşdırılmanın ən yaxşı üsulları seçilsin. Bu baxımdan psixoloji dəstək müxtəlif şəxsiyyət konstruktlarının iradəli şəkildə çoxfunksiyalı dəyişdirilmə metodu hesab edilə bilər.

Korreksiyadan fərqli olaraq bu metod "çatışmazlıqlar və dəyişikliklərin düzəldilməsi" demək deyil, şagirdin inkişafı üçün gizli mənbələrin axtarışı, öz qabiliyyətlərinə güvənilməsi, şəxsiyyət olaraq böyüməsi üçün perspektivlərinin açılması, şəxsiyyətinin formalaşması və özünə dəstəyə keçid şəraitinin yaradılmasıdır.

Şagirdin təhsil prosesində psixoloji dəstəyinin nəticəsi olaraq uyğunlaşmanın artması, yəni həm əlverişli, həm də ekstremal həyat vəziyyətlərində özü və başqaları ilə münasibətlərində nisbi tarazlıq əldəetmə qabiliyyətinin aktuallaşmasıdır.

### 2.1.3. Profilaktik işlərin növləri

Yuxarıda psixoloji profilaktika ilə bağlı müxtəlif anlayışlar araşdırılmışdır. İndi profilaktik işin növləri və nəyə yönəlik olduqlarını daha ətraflı nəzərdən keçirəcəyik (Sxem 2.1).




**Sxem 2.1. Profilaktik iş növləri**

1. İlkin profilaktika problemlərin hələ ortaya çıxmadığı bir vəziyyətdə müsbət davranışın formalaşmasının psixoloji və pedaqoji metodlarıdır. İlkin profilaktika böhran dövrü və "Risk qrupu"na hələ daxil olmayan, lakin emosional və davranış

sahələrində çətinlikləri müşahidə olunan sağlam insanlara yönəldilmişdir.

İlkin profilaktika metodları, adətən, həm böyüklər, həm də uşaqların ətraf mühitində müsbət dəyişikliklərin yaradılmasına yönəldilmiş mümkün mənfi təsirlərə qarşı duran və psixi sağlamlığı qorumağa kömək edən yeni bacarıqların öyrədilməsi üçün nəzərdə tutulub (Şəkil 2.4);



**Şəkil 2.4. Profilaktikanın növləri**

4. Psixoloji monitorinq və psixoloji dəstək terminlərini izah edin.
5. Profilaktik işləri apararkən psixoloq hansı metodlardan istifadə edə bilər?
6. Məktəb dövrünə hansı yaş qrupları aiddir? Hər yaş qrupunun əsas xüsusiyyətləri və çətinliklərini sadalayın.
7. Profilaktika zamanı niyə yaş mərhələlərini nəzərə almaq lazımdır?
8. Kiçik yeniyetmə dövründə əsas yaranan psixoloji çətinliklər hansıdır?
9. İbtidai yaş qrup uşaqları hansı fizioloji və psixoloji dəyişiklərlə rastlaşırlar?
10. Psixoloji diaqnostika zamanı yaş xüsusiyyətlərini psixoloq nə üçün mütləq nəzərə almalıdır?

## 2.2. Yaradıcı və istedadlı uşaqların xüsusiyyətlərinə uyğun planları tərtib edir

İstedadlı uşaqlarla məktəb psixoloqunun işi aşağıdakı sahələrdə aparılır:

- Psixodiaqnostika;
- Psixoprofilaktika;
- Psixokorreksiya;
- İnkişaf;
- Psixoloji məsləhət;
- Psixoloji maarifləndirmə.

İstedadlı uşaqlar risk qrupa aiddirlər, çünki yüksək idrak qabiliyyətlərinin olması onları digər həmyaşıdlarından fərqləndirən aşağı sosial aktivliklə müşayiət olunur.

Uşağın istedadını müəllim "son nəticə" ilə qiymətləndirir: belə uşaqlar ardıcıl olaraq yüksək nailiyyətlər nümayiş etdirirlər.

Daha ətraflı təhlil göstərir ki, istedad özünü üç şəkildə büruzə verir: təhsil təfəkkürünün sürətinin orta göstəriciləri (tempi) üstələməsi, təhsilalanın yüksək mürəkkəb səviyyədə materialı mənimsəməsi (müvafiq olaraq eyni sinif tapşırıqlarını) və idrak işində özünəməxsusluğudur (məsələlərin həlli üçün orijinal yolları seçir, bir neçə həll yolunu tapır və s.) (Şəkil 2.9).



**Şəkil 2.9. İstedadlı uşaqların xüsusiyyətləri**

Uzun müddət bu problemlə məşğul olan amerikalı müəllimlər istedadlı şəxsləri "tanımaq" üçün bir neçə birbaşa müşahidə olunan xüsusiyyətlər müəyyən edirlər. İstedadlı şagirdlər müxtəlif idraki problemlərin həlli üçün qəbul olunmuş yanaşmalardan fərqləndirilən öz həll yollarını həvəslə ixtira edirlər.

Suallar yaranır: istedadlı uşağı necə effektiv tərbiyə etmək olar? İstedadlı uşaqlara psixo-pedaqoji dəstək hansı pedaqoji şəraitdə təsirli ola bilər və şagirdin yaradıcı potensialının real inkişafını necə təmin edə bilər? Hansı psixoloji forma və üsullar zəruri və ən məhsuldardır?

Uşaqlarla keçirilən psixoloji iş bütün məktəb sistemin vahid fəaliyyətini əhatə edir. İstedadlı şagirdlərlə işlənərkən onların müstəqil idraki araşdırma sahələrini daim genişləndirmək və tapşırıq növlərini şaxələndirmək lazımdır ki, onlar nəzəri problemlərin təhlili ilə məşğul olsun, təbii və sosial reallıq hadisələri arasındakı əlaqələri araşdırsın, müxtəlif mənşəli obyektlərin vacib xassələrini tapsın, proqnozlaşdırsın və hipotezləri qursun, müxtəlif prosesləri modelləşdirsin və fikir və konsepsiyaları sınaqdan keçirtsinlər. Fənlərarası bilik və əlaqəli təlim kursları şagirdlərin sistemli təfəkkürünün formalaşması üçün xüsusilə əhəmiyyətlidir və onların öyrənilməsi şagirdlərə elmlərin müxtəlifliyində vəhdət hiss etmək və kainatın ümumi qanunlarını başa düşməyə imkan verir.

İstedadlılar üçün adi məktəb təhsili çox vaxt kifayət etmir, çünki onlar daha sürətli bir inkişafa malikdirlər.

**İstedad** - insanın digər insanlarla müqayisədə bir və ya daha çox fəaliyyət növündə daha yüksək (qeyri-adi və görkəmli) nəticələr əldə etməsini müəyyən edən və həyat boyu inkişaf edən psixikanın sistemli bir keyfiyyətidir.

**İstedad** - yaş normaları və ya xüsusi qabiliyyətin (musiqi, bədii və s.) müstəsna inkişafı və ya zehni inkişaf ilə müqayisədə əhəmiyyətli bir irəliləyişdir. İstedadlı uşaq müəyyən fəaliyyət növündə par və gözə çarpan nailiyyətlər ilə seçilən (və ya belə potensiala sahib olan) uşaqdır.

İstedadlı şagirdlərlə işlənərkən müstəqil idrak axtarış sahələrini daim genişləndirmək lazımdır. Şagirdlərin nəzəri problemlərinin təhlilinin öyrənilməsi üçün vəzifələrin növləri şaxələndirilməlidir: təbii və sosial hadisələr arasındakı əlaqənin tədqiqatı, müxtəlif təbiət obyektlərinin əsas xüsusiyyətlərinin kəşfi, fərziyyənin proqnozlaşdırılması və quruluşu, müxtəlif proseslərin modelləşdirilməsi, fikir və anlayışlar üzərində təcrübənin aparılması.

İstedadın inkişafına təsir edən amillər aşağıdakılardır:

- İrsiyyət (təbii əmanətlər);
- Sosial mühit;
- Şəxsiyyətin özünü inkişaf etdirməsinin psixoloji mexanizmləri.

**İstedad növləri aşağıdakılardır:**

- Praktik fəaliyyətdə - sənətkarlıq, idman və təşkilati istedad;
- İdrak fəaliyyətdə - fəaliyyətin obyektiv məzmunundan asılı olaraq müxtəlif növ intellektual qabiliyyət (təbiət və insan elmləri sahəsindəki istedad, intellektual oyunlar və s.);
- Bədii və estetik fəaliyyətdə - xoreoqrafik, səhnə, ədəbi və poetik, vizual və musiqi istedadı;
- Kommunikativ fəaliyyətdə - liderlik və cəlbedici istedad.

### 2.2.1. İstedad əlamətləri

*İstedad əlamətləri* istedadlı uşağın həqiqi fəaliyyətində özünü büruzə verən və hərəkətinin təbiəti müşahidə səviyyəsində qiymətləndirilə bilən xüsusiyyətlərdir.

Aşkar (özünü büruzə verən) istedad əlamətləri onun tərifində qeyd olunub və yüksək səviyyəli fəaliyyətlə bağlıdır. Bununla birlikdə, uşağın istedadı "istəyirəm" və "mən edə bilərəm" kateqoriyalarının birliyində mühakimə olunmalıdır.

İstedad əlamətləri istedadlı uşağın davranışının iki aspektini əhatə edir: *instrumental və motivativ*. *İnstrumental* - fəaliyyətin yolları xarakterizə edilir. *Motivativ* - uşağın reallığın bu və ya digər tərəfinə münasibəti, habelə onun fəaliyyətinə münasibəti səciyyələndirilir.

İstedadlı uşaqların müəyyənləşdirilməsi prinsipləri aşağıda təqdim olunur:

1. Uşağın hərtərəfli müşahidəsi, onun davranış və fəaliyyətinin müxtəlif aspektlərdən qiymətləndirilməsi və haqqında müxtəlif mənbələrdən məlumatın toplanması onun qabiliyyət və imkanlarının daha geniş şəkildə əhatə edilməsinə imkan verəcək;
2. Şəxsiyyətin formalaşması müddəti (uşağın müxtəlif vəziyyətlərdə davranışının

ətraflı monitorinqi);
3. Meyllər və maraqlara maksimum uyğun gələn fəaliyyət sahələrində davranışın təhlili;
4. Müəyyən inkişaf təsirlərini təşkil edə bilmək üçün təlim metodlarından istifadə etmək, uşağa xas olan psixoloji "maneələr"i aradan qaldırmaq və s.;
5. İstedadlı uşağın qiymətləndirilməsi zamanı müvafiq fəaliyyət sahəsi üzrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi;
6. Uşağın istedad əlamətlərinin yalnız zehni inkişafının mövcud səviyyəsi ilə deyil, həm də ən yaxın inkişaf zonasının da nəzərə alınaraq qiymətləndirilməsi;
7. Həqiqi bir vəziyyətdə uşağın həqiqi davranışının qiymətləndirilməsi ilə məşğul olan psixodiaqnostikanın ekoloji cəhətdən etibarlı metodlara üstünlük verilməsi: fəaliyyət məhsullarının təhlili, müşahidə, söhbət, müəllimlər və valideynlərin ekspert qiymətləndirilmələri və təbii təcrübə.

İstedadın diaqnostikası üçün aşağıdakı üsullardan istifadə olunur:

- Test üsulları (müəyyən bir həddi aşan Stanford-Bine şkalasında balların bərabər dəyəri və Torrens - Gilfordun yaradıcı təfəkkürün diaqnostikası);
- Formalaşdırılmamış metodlar (uzunmüddətli müşahidə - mövzunun bir neçə il ərzində sistematik müşahidəsi və bir yaş dövründən digərinə keçid zamanı baş verən dəyişikliklərin uzunmüddətli müşahidəsi).

J. Ravenin Mütərəqqi Matrislər testi. Raven testi psixoloji praktikada ümumi zəka və qabiliyyətlərin inkişaf səviyyəsindən IQ göstəricisi şəklində öyrənilməsi üçün geniş istifadə olunur. Müxtəlif yaşda olan uşaqlar üçün norma göstəriciləri mövcuddur.

P. Torransın yaradıcı təfəkkürünün qısa testi. Test 6-18 yaş aralığı arasında olan uşaqların yaradıcılıq qabiliyyətlərinin müəyyənləşdirilməsi üçün nəzərdə tutulub. Kreativlik (yaradıcılıq qabiliyyətləri) problemlərə həssaslıq, biliklərin olmaması və onların uyğunsuzluğu kimi müəyyən edilir. Yaradıcılıq - qeyri-müəyyənlik və ya natamamlığı aradan qaldırma ehtiyacı yaradan və yaradıcılığını kəşf etməyə imkan verən təbii bir prosesdir. Əsas göstəricilər orijinallıq və düşüncə çevikliyinin hesablanmış əmsallarıdır. Müxtəlif yaşlar üçün norma göstəricilər vardır.

### 2.2.2. İstedadlı uşaqlar ilə işləmək üçün pedaqoji yanaşmalar

Pedaqoqlar və psixoloqların vəzifəsi istedadlı uşaqlara dəstək olmaq və potensialları reallaşdırmaqda kömək etməkdir. İstedadlı uşaqlar ilə işlənərkən 2 ifratdan qaçmaq lazımdır:

- Xüsusi hüquqlar vurğulanaraq və uşağı həddindən artıq ucaldaraq böyütmək;
- Digər tərəfdən, ləyaqəti açıq şəkildə alçaltmaq və ya "Ulduz xəstəliyi"nə qarşı mübarizə adı altında onun intellektual uğurlarına məhəl qoymamaq.

İstedadlı uşaqlarla işlənərkən ən vacib məqsədlərdən biri yaradıcı təfəkkürün inkişafına təkan verən şərait yaratmaqdır (uşaqların uğur qazanması və qalib gəlməsi üçün

şərait yaratmaq və qeyri-adi və qeyri-standart həll yolları tapmağı öyrətmək).

İstedadlı uşaqlar, ilk növbədə, eyni yüksək emosional və sosial yetkinliyə mütləq malik olmayan uşaqlardır (zəif uyğunlaşır, inkişaf etmiş özünü idarəetmə qabiliyyətinə malik deyil və həmişə özləri ilə məşğul ola bilmirlər və fərdi təlim və yardıma ehtiyacları vardır). Onların fiziki inkişafında bir gerilik ola bilər (hərəkətlərin zəif koordinasiyası və əyri əl yazısı, utancaqlıq, xarici zəkanın olmaması və parlaqlıq). Onlar nailiyyətlər üçün yüksək həvəsləndirmə, ən yaxşı olma arzusu və öyrənmədə şüurlu səy arzusu ilə xarakterizə olunur.

İstedadlı uşaqların məktəbə uyğunlaşmasının asanlaşdırılması, onların təcrid olunmasının qarşısının alınması və daha uğurlu sosial-psixoloji inkişafa töhfə verilməsi üçün onların xüsusiyyətləri haqqında məlumatın əldə edilməsi məktəb psixoloqu üçün zəruridir.

İstedadlı uşaqların optimal inkişafı üçün fərdi təlim proqramının bir hissəsi olaraq ayrı-ayrı fənlər üzrə xüsusi inkişaf proqramları hazırlanmalıdır. İstedadlı uşaqlar digər şagirdlərlə bir sinifdə oxumalıdırlar. Bu, istedadlı uşaqlar və yeniyetmələrin sosial uyğunlaşması və məktəbdəki bütün şagirdlərin maksimum inkişafı üçün şərait yaradır. Müxtəlif növ yaradıcı tapşırıqların yerinə yetirilməsi üçün xüsusi qabiliyyətli uşaq qrupları və ya xüsusi metodlarla işləyən şagird qruplarının yaradılması istisna edilmir.

Eyni zamanda müəllimlərin fəaliyyətinə aşağıdakılar daxildir:

- Şəxsiyyət yönümlü pedaqoji yanaşmanın həyata keçirilməsi və şəxsin yaradıcı fəaliyyət subyekti kimi ahəngdar şəkildə inkişaf etdirilməsi;
- Psixoloji və pedaqoji tədqiqatlara əsaslandırılan təhsilin inkişaf etdirilməsi və inkişaf sisteminin yaradılması və yüksək öyrənmə səviyyəsi olan uşaqların yaradıcı potensialının erkən aşkarlanması və açıqlanmasının təmin edilməsi;
- Şəxsiyyətin formalaşması proseslərinə psixoloji və pedaqoji yardım amillərinin öyrənilməsi, şagirdlərin idrak bacarıqlarının effektiv həyata keçirilməsi;
- Əsas tədris planı sistemində bütün tədris fənlərinin uyğunlaşdırılmasını təmin etmək;
- Şagirdlərin intellektual qabiliyyətlər inkişafının idarə edilməsi.

Pedaqoji sistem dörd əsas ideyaya əsaslandırılır:

1. Hər bir şagirdin özünəməxsus və təkrarolunmaz şəxsiyyət kimi daxili dəyərinin bilinməsi;
2. Hər bir uşağın inkişaf imkanları, o cümlədən, yaradıcı qabiliyyətinin tükənməzliyi;
3. Yaradıcılıq və özünüifadənin inkişafı üçün daxili azadlıq və müstəqilliyin nümayişi;
4. Şəxsi yaradıcı potensialı şəxsiyyətinin ayrılmaz bir xüsusiyyəti kimi başa düşmə. Bunun ilkin komponentləri özünü tanıma, yaradıcı öz müqəddəratını təyin etmə, özünü təşkil etmə, özünü idarəetmə, yaradıcı özünü inkişaf etdirmə və tələbə şəxsiyyətinin özünü dərk etməsidir.

İstedadlı uşaqlar ilə işlənərkən aşağıdakı təlim prinsiplərinə riayət etmək zəruridir:

- Şəxsi inkişaf üçün maksimum müxtəlif imkanlar prinsipi;
- Dərsdənkənar fəaliyyətlərin artan rolu prinsipi;
- Təhsilin fərdiləşdirilməsi və fərqləndirilməsi prinsipi;
- Şagirdlərin minimal müəllim iştirakı ilə birlikdə işləmələri üçün şərait yaratma prinsipi;
- Əlavə təhsil xidmətləri, yardım, tərbiyə və tələbələr üçün seçim azadlığı prinsipi.

### 2.2.3. İstedadlı uşaqların xüsusiyyətləri

Bir sıra psixoloji tədqiqat və xüsusi müşahidələr göstərir ki, istedadlı uşaqlar, ümumiyyətlə, digər uşaqlara nisbətən daha xoşbəxtdirlər: öyrənmə problemləri yaşanmır, həmyaşıdlar ilə daha yaxşı ünsiyyət qurulur və yeni mühitə daha tez uyğunlaşdırılır. Uşaqlıqdan bəri inkişaf etdirilən maraqlar və meylləri uğurlu şəxsi və peşəkar öz müqəddəratı təyin etmək üçün yaxşı bir zəmin rolu oynanır. Doğrudur, bu uşaqların inkişaf etmiş xüsusiyyətləri nəzərə alınmadıqda problem yarana bilər: öyrənmək çox asanlaşdırılır və ya yaradıcı potensialların inkişafı üçün şərait yoxdur.

İstedadlı uşaqların zəifliyinin səbəbləri:

- Mükəmməl olmağa çalışma;
- Toxunulmazlıq hissi;
- Həqiqi olmayan məqsədlər;
- Həddən artıq həssaslıq;
- Böyüklərin diqqətinə ehtiyac;
- Dözümsüzlük.

Beləliklə, məktəbin əsas iş istiqamətlərindən biri istedadlı uşaqlar, o cümlədən, istedadını hələ göstərə bilməyən bacarıqlı uşaqların optimal inkişafı üçün şərait yaratmaqdır. Məktəb, gimnaziya və liseylərdə istedadlı uşaqlar ilə iş yalnız məktəb proqramı çərçivəsində həyata keçirilə bilər və psixoloqun işi bu proqramın yalnız tərkib hissəsidir.

Bu zaman psixoloji dəstəyin məqsədi aşağıdakılardır: istedadlı uşaqları müəyyənləşdirmək, inkişafına kömək etmək, özlərini reallaşdırma, peşə baxımından öz müqəddəratını təyin etmək, psixoloji və fiziki sağlamlıqlarını qoruyub saxlamada onlara dəstək olmaq.

İstedadlı uşaqlarla iş zamanı psixoloqun qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

1. Təhsil müəssisəsinin digər mütəxəssisləri ilə birlikdə istedadlı uşaqların meyarlarının müəyyənləşdirilməsi və xüsusi müşayiət yolu tələb edən tələbələrin müəyyən edilməsi;
2. Müsbət bir “Mən” konsepsiyasının (özünə münasibət, özünə hörmət və özünü qəbul etmə) meydana gəlməsinin təşviq edilməsi;

3. Emosional sabitliyin inkişafı, özünü tənzimləmə bacarıqlarının formalaşdırılması, stressin idarə edilməsi və ekstremal vəziyyətlərdə davranış (konkurslar, müsabiqələr və imtahanlar);
4. Sosiallaşma və ünsiyyət bacarıqlarının formalaşdırılması;
5. İstedadlı uşaqlar ilə işləyən müəllimlərin ixtisaslarının artırılmasına təşviq etmə.

İstedadlı məktəb uşaqlarının aşağıdakı kateqoriyalarını ayırd etmək olar:

1. Qeyri-adi dərəcədə yüksək ümumi zehni inkişaf səviyyəsi olan şagirdlər (ibtidai məktəb yaşında artıq müəyyən edilirlər);
2. Müəyyən bir elm və ya fəaliyyət sahəsindəki xüsusi zehni istedad əlamətləri olan şagirdlər (ibtidai məktəb və yeniyetməlik dövründə müəyyən edilirlər);
3. Hər hansı bir səbəbdən dərsləri öyrənməyə müvəffəq olmayan, lakin parlaq idrak fəaliyyəti, zehni resurs və orijinallığı olan şagirdlər (orta məktəb çağında qabarıq şəkildə özünü göstərir).

İstedadlı uşaqların müəyyənləşdirilməsi metodlarına aşağıdakılar aiddir:

1. Müşahidə;
2. Valideynlərlə ünsiyyət;
3. Test, sorğu və söhbət;
4. Olimpiada, konkurs, müsabiqə, elmi və praktik konfrans və məktəbdə çıxışlar.

İstedadlı uşaqlar ilə işlənərkən məktəbdə psixoloqun fəaliyyəti aşağıdakılardan ibarətdir:

- Psixoloji və pedaqoji müayinə;
- İstedadlı uşaqlar ilə işin təşkili sahəsində məktəb fəaliyyətinin təhlili;
- İstedadlı şagirdlərin valideynlərinə psixoloji və pedaqoji yardımın təmin edilməsi;
- İstedadlı uşağın şəxsiyyətinin öyrənilməsi üçün proqramın hazırlanması və istedadlı uşaqların psixoloji inkişafının fərdi xəritələrinin qurulması;
- İstedadlı tələbələrə idrak, ünsiyyət, təşkilatçılıq, potensial və real imkan və bacarıqların inkişafında psixoloji yardımın göstərilməsi;
- İstedadlı uşağın fərdi inkişafı və idrak qabiliyyətləri üçün diaqnostik metodlar bankının formalaşdırılması;
- İstedadlı uşaqlar ilə işləyən müəllimlərə kömək edilməsi üçün psixoloji və pedaqoji məzmunlu materialların toplanması və sistemləşdirilməsi.

İstedadlı uşaqların fiziki xüsusiyyətləri:

1. İstedadlı uşaqlar yüksək enerji səviyyəsi ilə fərqlənir və onlar normadan az yatırlar;
2. Onların motor koordinasiyası və əl sahibliyi çox vaxt idrak qabiliyyətlərindən geri qalır.

### 2.2.4. İstedadlı uşaqların problemləri

Leta Hollinqort istedadlı uşaqların qarşılaşdıqları uyğunlaşma problemlərini anlamaqda böyük bir töhfə verdi. Onun fikrincə, istedadlı uşaqların üzləşdikləri problemləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. *Məktəbə düşmənçilik.* Bu münasibət çox vaxt istedadlı uşaqlar üçün tədris planı darıxdırıcı və maraqsız olduğu zaman ortaya çıxır. Davranış pozulmaları tədris planı onların qabiliyyətlərinə uyğun olmayanda yarana bilər;
2. *Oyun maraqları.* İstedadlı uşaqlar həmyaşıdlarının maraq göstərmədikləri çətin oyunları (şahmat, məntiqi oyunlar və s.) sevirlər. Nəticədə, istedadlı uşaq təcrid olunur və özünə qapanır;
3. *Uyğunluq.* Standart tələbləri rədd edən istedadlı uşaqlar (xüsusən, bu standartlar onların maraqlarına zidd olduqda) uyğunlaşmaya meyilli deyillər;
4. *Fəlsəfi problemlərə dalma.* Ölüm, axirət həyatı, dini inanclar və fəlsəfi problemlər kimi hadisələri düşünmək istedadlı uşaqlara xarakterikdir;
5. *Fiziki, intellektual və sosial inkişaf arasındakı uyğunsuzluq.* İstedadlı uşaqlar çox vaxt yaş baxımından böyük uşaqlarla ünsiyyətə üstünlük verirlər. Buna görə bəzən lider olmaq onlar üçün çətin olur;
6. *Mükəmməlliyə can atma.* İstedadlı uşaqların mükəmməlliyi daxili ehtiyacla xarakterizə olunur. Beləliklə, narazılıq hissi, öz qeyri-adekvatlığı və özünə inamsızlıq hissi burdan irəli gəlir;
7. *Böyüklərin diqqətinə ehtiyac.* Bilik istəyi səbəbindən istedadlı uşaqlar çox vaxt müəllimlər, valideynlər və digər yetkinlərin diqqətini inhisara alırlar. Bu, digər uşaqlar ilə münasibətlərdə toqquşmaya səbəb olur. Çox vaxt istedadlı uşaqlar intellektual inkişafdan aşağı olan uşaqlara qarşı dözümsüz olurlar. Onlar başqalarını acı və nifrətdolu sözlərlə hörmətsizlik və səbirsizlik edərək özlərindən uzaqlaşdıra bilərlər.

### 2.2.5. İstedadlı uşaqların inkişaf xüsusiyyətləri

İdraki inkişaf:

1. Qavrama əhatəliliyi ilə fərqləndirilərək ətraf dünyada baş verən hər şey dərindən hiss edilir və bu və ya digər obyektin necə qurulduğuna çox maraq göstərilir. Eyni anda bir neçə proses izlənir və ətrafındakı hər şey fəal şəkildə araşdırılır;
2. Hadisə və mövzular arasındakı əlaqələrin dərk edilməsi və müvafiq nəticələr çıxarılması qabiliyyətinə malik olunur və təsəvvürlərdə alternativ sistemlərin yaradılması sevilir;
3. Əla yaddaş, erkən dil inkişafı və təsnif etmə bacarığı bu cür uşağa çox miqdarda məlumat toplanması və ondan intensiv istifadə edilməsinə kömək edilir;
4. İstedadlı uşaqların sərbəst və aydın şəkildə danışmalarına imkan verən geniş bir lüğət vardır. Lakin zövq üçün çox vaxt şəxsi sözlər icad edilir;

5. Semantik anlaşılmazlıqların dərk edilməsi, uzun müddət qavrayış həddinin saxlanması və praktik həlli olmayan mürəkkəb və hətta problemlərin həll edilməsi istəyi ilə yanaşı, eyni zamanda istedadlı uşaqlar onlara hazır cavab verildikdə dözməzlər;
6. Uzun bir müddət diqqət cəmlənməsi və müəyyən bir problemin həll edilməsində böyük əzmkarlıqla fərqlənirlər.

Psixososial həssaslıq:

1. İstedadlı uşaqlara yüksək ədalət hissi, əxlaq və vicdanlılıq məxsusdur. Bu yüksək mənəvi inkişaf qavrama və idrakın inkişafına əsaslandırılır;
2. Özləri və başqalarına yüksək tələblər qoyulur;
3. Canlı təxəyyül, oyun elementlərinin tapşırıqların icrasına daxil edilməsi, yaradıcılıq, ixtiraçılıq və zəngin təxəyyül və fantaziya (xəyali dostlar, qardaşlar və ya bacılar) istedadlı uşaqlar üçün çox xarakterikdir;
4. Mükəmməl yumor hissləri vardır və məzəli uyğunsuzluqlar, cəzalar və zarafatlar sevilir;
5. Şagirdlərdə emosional tarazlıq çatışmazlığı vardır və erkən yaşda istedadlı uşaqlar səbirsiz və yaramaz olurlar;
6. Bəzən uşaqlar şişirdilmiş qorxu və yüksək həssaslıq ilə xarakterizə olunurlar;
7. Eqosentrizm bu yaşda adi uşaqlarda olduğu kimidir;
8. Çox vaxt istedadlı uşaqlarda özünü mənfi dərketmə inkişafı gedir və buna görə həmyaşıdları ilə ünsiyyətdə çətinliklər yaranır.

İstedadlı uşaqların əsas fiziki xüsusiyyətləri:

1. İstedadlı uşaqlar yüksək enerji səviyyəsi ilə fərqlənir və onlar normadan az yatırlar;
2. Onların motor koordinasiyası və əl sahibliyi çox vaxt idrak qabiliyyətlərindən geri qalır.

## Tələbələr üçün fəaliyyətlər

1. İstedadlı uşaqların müəyyənləşdirilməsi prinsiplərini izah edin.
2. İstedadlı uşaqların müəyyənləşdirilməsi üçün metodikalar seçin və mərhələləri təsvir edin.
3. İstedadlı uşaqlarla aparılan işləri sadalayıb təhlil edin.
4. İstedadlı uşaqların problemlərini təhlil edin və nəticələrə uyğun qısa korreksiyaedici proqram hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Yaradıcı və istedadlı uşaqların xüsusiyyətlərinə uyğun planlar tərtib edir”**

1. İstedadlı uşaqlarla məktəb psixoloqu işi hansı sahələrdə apara bilər?
2. İstedadlı uşaqları hansı metodlarla müəyyənləşdirmək olar?
3. İstedad nədir və onun meyarları hansıdır?
4. İstedad növlərini sadalayın.
5. İstedadlı uşaqlar hansı çətinliklərə rast gələ bilərlər?
6. Niyə istedadlı uşaqların risk qrupuna düşmə ehtimalı böyükdür?

## 2.3. Valideyn və pedaqoqlara təhsilalanların psixoloji sağlamlığının qorunması məqsədi ilə onların hüquqları (insan uşaq hüquqları) haqqında müvafiq məlumatlar verir

Psixi sağlamlıq və zehni rifah hər bir insanın sağlam inkişafı üçün vacib komponentlərdir. Bu, yüksək həyat keyfiyyəti, insanlara həyatlarını dolu və əhəmiyyətli yaşama və cəmiyyətin fəal və konstruktiv üzvləri olma imkanı verir.

Ruhi sağlamlıq sosiallaşma və təhsilalma prosesinin yüksəlməsini təmin edir və təhsilalanlar arasında ictimai sülh və sabitlik yaradır. Psixi sağlamlıq hazırda ən ciddi və bütün ölkələrdə geniş yayılan problemlərdən biri sayılır. Vətəndaş və təhsilalanların psixi sağlamlığının əhəmiyyəti böyükdür.

Psixi sağlamlıq cəmiyyətdə fəal həyat tərzini təbliğ edir. Məktəbdə psixi sağlamlığı təşviq edən tədbirlər psixoloq tərəfindən keçirilməlidir.

Bu istiqamətdə psixoloqun gördüyü işlər aşağıdakılardır:

1. Effektiv proqramları hazırlamaq və çətinlik yaşayan uşaqlara dəstək olmaq;
2. Uşaqlar və gənclər üçün məktəbdə psixoloji ədəbiyyatı əlçatan etmək;
3. Psixi sağlamlıq nədir? Mexanizmlər və vəzifələr ilə təhsilalanlar və pedaqoji kollektivi məlumatlandırmaq;
4. Maarifləndirməyə yönəldilmiş birgə tədbirlər həyata keçirmək;
5. Stiqmatizasiya, ayrıseçkilik və bərabərsizliklə mübarizə mövzusunda tədbirlər keçirmək;
6. Psixi sağlamlıq problemləri olan məktəblilər və ailələri üçün imkanlar yaratmaq və fəal iştirak etmələrini dəstəkləyən tədbirləri keçirmək;
7. Korreksiyaedici proqramlar aparmaq, sağlamlığın təşviqi və problemlərin qarşısını almaq - müalicə və reabilitasiya, qulluq və sağlamlığın bərpası üzrə tədbirlər (əlavə mütəxəssislərin dəvəti ilə);
8. Hər bir uşaq üçün təhlükəsizlik şəraitində təhsil alma imkanlarını yaratmaq.

Hansısa çətinlik keçirən uşaqlar çox vaxt digər şagirdlər və müəllimlər tərəfindən bullinq və stiqmatizasiya ilə qarşılaşırlar. Stiqma və bullinq məktəblərdə çox yayılan bir fenomenlərdir və vaxtında bunların qarşısını almaq çox vacibdir.

Stiqma - insanı dərin alçaldıcı sosial vəziyyətə salan psixoloji bir fenomendir. Bir çox insanı xəstəlik simptomları və ya mənfi hadisələr səbəbindən ətrafdakılar başqa cür qiymətləndirir. Məsələn, istedadlı uşaqlar qəribə və zəif kimi qiymətləndirilir və s.. Bununla əlaqədar fərdə qarşı səhv fikirlər söylənilir və yayılır. Bu vəziyyət fərdlərin fərqli əlamətləri və çətinliklərini daha da artırır.

Stiqma və bullinqin fəsadları nələrdir?

- Çətinliklərlə qarşılanan şəxslərin kömək istəməmələri - özünə qapanma və dostluq münasibətlərinin qırılması;
- Özgüvənsizlik və özünə inamın itirilməsi;
- Zehni pozuntuların gedişatına mənfi təsir;

- Cəmiyyətdən təcrid olma və stressin çoxalması.

Bu hallarda məktəb psixoloqu psixi sağlamlıq dəyərlərini inkişaf etdirməli və individual və qrup şəklində həm müəllimlər, həm valideynlər, həm də təhsilalanlarla psixoloji danışıqlar aparmalı və tədbirlər görməlidir.

## 2.3.1. Valideynlərlə aparılan pedaqoji-psixoloji işin məzmunu və formaları

Təhsil sistemində psixoloji xidmət genişlənir və valideynlərə göstərilən konsultasiyaların təşkili və keçirilməsində ixtisaslı mütəxəssis kimi praktik psixoloqun rolu çoxalır. Əvvəllər bu rol məktəb müəllimlərinin üzərinə düşürdü.

Təhsil sistemində çalışan praktik psixoloq aşağıdakı tələblərə əməl etməlidir:

- Etibarlılıq və səmərəlilik - valideynlər hiss etməlidirlər ki, psixoloq onların övladlarının tərbiyəsində xeyirxah və səmimi mövqe tutmamalı və hər bir iş faydalı olmalıdır;
- Valideynlərə verilən tövsiyələr konkret olmalı və ailənin həyat şəraiti və uşaqların fərdi xüsusiyyətləri nəzərə alınmalıdır;
- Valideynlərə tövsiyələr verilməzdən əvvəl psixoloq valideyni ona müraciət etməyə məcbur edən faktı ətraflı öyrənməli və elmi ədəbiyyatlara istinad edərək həyati nümunələrə əsaslanaraq sübutlar gətirməyi bacarmalıdır.

Psixoloq, valideyn və müəllimlər uşağın həyatında müşahidə olunan hər hansı normadan kənaraçıxma halları və patoloji təzahürləri nəzərə alıb profilaktik işlər görməlidirlər. Bəzən normal yaş böhranlarının simptomları ailədə valideynlər tərəfindən çox emosional qarşılanır və uşağa qarşı tələblər daha da kəskinləşdirilir - valideynlər uşağın imkanlarını düzgün qiymətləndirə bilmirlər və bu hal yaranan psixoloji gərginliyi bir az da çoxaldır. Belə hallarda ailəyə, ilk növbədə, övladları və yaş böhranlarının xüsusiyyətləri haqqında məlumat vermək və onun müsbət və mənfi keyfiyyətləri, güclü və zəif cəhətini göstərmək lazım olur.

Psixoloq valideynlərlə bu mövzularda maarifləndirmə işləri apara bilər:

- Uşağınızın mənfi və müsbət keyfiyyətləri hansıdır?
- Övladınızda hansı xüsusiyyətləri tərbiyə etməyə çalışırsınız və buna nə dərəcədə nail olursunuz?
- Ailədə övladınızın daimi vəzifəsi varmı və o bunu necə yerinə yetirir?
- Övladınız ailədə özünəxidmət qabiliyyətini nümayiş etdirə bilirmi?
- Ailədə uşağınızın gün rejimi necədir?
- Övladınızın ailənin digər üzvləri ilə münasibəti necədir?
- Övladınız boş vaxtlarını harada və kimlərlə keçirir?
- Övladınızın evdə ayrıca otağı varmı və o, dərslərə hazırlığa nə qədər vaxt ayırır?
- Hansı cəza metodlarından istifadə edirsiniz?

Pedaqoqlar üçün vacib ola bilәn mövzular:

1. Uşaqların davranış motivlәrini öyrәnmәk;
2. Uşağın şәxsi lәyaqәtinә hörmәt bәslәmәk, inam vә tәlәbkarlığı uzlaşdırmağı bacarmaq;
3. Valideynlәr vә pedaqoqların tәlәblәrinin uşaqların yaş vә fәrdi xüsusiyyәtlәrinә uyğunluğu;
4. Tәrbiyә prosesinin keyfiyyәti vә effekliyini yüksәltmәk üçün müxtәlif metodlarla tanış etmәk;
5. Natamam ailәdә uşağın tәrbiyәsinin xüsusiyyәtlәri;
6. Fiziki cәhәtdәn zәif vә xәstә uşaqların ailәdә tәrbiyәsi;
7. Uşağın geyimindә gigiyenik tәlәblәr;
8. Ailәdә uşağın tәlim fәaliyyәtinin tәşkili;
9. Uşaqlar vә virtual mәkan;
10. Mobil telefonlar uşaq üçün әylәncә vә ünsiyyәt vasitәsidirmi?
11. Yeniyetmәlәrin problemlәri vә s..

### 2.3.2. Mәktәb daxilindә tәlәbәlәrin hüquqları

Hәr bir uşaq hansı risk qrupuna aid olmasından asılı olmayaraq tәhsil alma hüququna malikdir:

1. Uşağın tәhlükәsizliyini tәmin edәn şәraitdә tәhsil;
2. İnsan lәyaqәtinә hörmәt, tәhsil müәssisәsinin kollektivi tәrәfindәn hörmәt qoyulan münasibәt vә müasir tәdris material bazasında hәyata keçirilәn tәlimlәr;
3. Pulsuz ibtidai tәhsil, ümumi orta tәhsil, tam orta tәhsil, müsabiqә әsasında peşә tәhsili vә ali tәhsil alma;
4. Mәktәb kitabxanalarının kolleksiyalarından tәdris әdәbiyyatından istifadә etmә;
5. Mәktәbin inkişafı üçün әmәk fәaliyyәtindә könüllü iştirak etmә;
6. Әlavә (pullu da daxil olmaqla) tәhsil xidmәtlәri alma;
7. Tәdris prosesindә sosial-pedaqoji vә psixoloji-pedaqoji yardım alma;
8. Ana dilindә tәhsil alma, hәmçinin, mövcud imkanlar daxilindә tәdris dilini seçmә;
9. Tәhsilalanların fikir vә inanclarına hörmәt etmә vә sәrbәst ifadә etmә;
10. Tәdris planında nәzәrdә tutulmayan tәdbirlәrdә sәrbәst iştirak etmә;
11. Hәr bir mәktәbli başqaları ilә bәrabәr münasibәtlәrә - hörmәt, sevgi vә materialın mәnimsәnilmәsindә kömәk alma hüququna malikdir;
12. Hәr bir tәlәbә öz xüsusiyyәtlәri vә görünüşünü qәbul etmә hüququna malikdir;
13. İlk növbәdә, valideynlәr vә ya onları әvәz edәn şәxslәr, habelә qәyyumluq vә qәyyumluq orqanları, prokurorluq orqanları vә mәhkәmәlәr tәrәfindәn şәxsi lәyaqәtә hörmәt vә onların hüquq vә qanuni mәnafelәri qoruma;
14. Mәlumat vә materiallara, xüsusәn, uşağın inkişafına yönәldilmiş vә ya onun

hüquqlarına təsir göstərən, habelə uşağın rifahı üçün zərərli olan məlumatlardan qorunma imkanlarını əldə etmə.

Təhsilalanların hüquqlarının tipik pozuntuları aşağıdakılardır:

1. Uşağın hüquq və azadlıqlarına məhəl qoyulmaması:

- Uşağın uşaq kimi qəbul edilməməsi (onunla böyük kimi rəftar edilməsi və onun uşaq olduğunun nəzərə alınmaması);
- İnsan hüquqlarının "İnsan ləyaqəti" təməl konsepsiyasına etinasızlıq (bir çox müəllimin fikrincə yalnız böyüklərin ləyaqəti vardır);
- Uşaq haqqında passiv material kimi düşüncəsi (uşaq aktiv subyektdir və fərqli xüsusiyyətlərə malikdir - oxuma tempi, qabiliyyət, xasiyyət xüsusiyyətləri, reaksiya sürəti və sinir sisteminin növü);
- Uşaqların şəxsiyyətinə tam etinasızlıq;
- Tələbə imkanlarının bərabərliyinə laqeydlik və hər kəsə bərabər münasibət yaradılmasına laqeyd yanaşılması;
- Tədrisin avtoritar üslubu geniş yayılmışdır (uşaq təhsildə bərabərhüquqlu tərəfdaş kimi deyil, obyekt kimi qəbul olunur).

2. Təhsil sistemində insan ləyaqətinə xələl gətirən cəzaların tətbiqi:

- Fiziki zorakılıq;
- Psixoloji və mənəvi zorakılıq;
- Şagirdin zəif fəaliyyəti və ya qeyri-kafi davranışına görə cərimə sistemi;
- Fənnin ümumi qiymət çıxarılmasına təsir edən pis davranışa görə aşağı qiymətin qoyulması.

Zorakılıq - uşağın fiziki və (və ya) psixi sağlamlığını pozan və onun tam inkişafına mane olan hər hansı uşağa olan pis rəftardır. Uşaqlara qarşı zorakılığın iki növü vardır - fiziki və psixoloji (mənəvi). Fiziki zorakılıq - 18 yaşına çatmamış uşağa valideyn, qohum və ya digər şəxs tərəfindən bilərəkdən zərər vurmasıdır. Bu xəsarətlər ölümlə nəticələnə və ciddi (tibbi yardıma ehtiyacı olan) fiziki və psixi sağlamlıq pozulmaları və ya inkişaf ləngimələrinə səbəb ola bilər.

Psixoloji (mənəvi) zorakılıq - valideynlər (qəyyumlar) və ya digər yetkinlərin uşağa davamlı psixi təsiridir. Bu, xarakterin patoloji xüsusiyyətlərinin meydana gəlməsinə səbəb və ya şəxsiyyətin inkişafına mane ola bilər. Zorakılığın bu formasına aşağıdakılar daxildir:

- Uşağın açıq rədd edilməsi və daimi tənqid edilməsi;
- Onun insan ləyaqətinin təhqir edilməsi və ya alçaldılması;
- Uşağın ünvanına təhdidlər edilməsi;
- Uşağın qəsdən fiziki və ya sosial təcrid edilməsi;
- Uşağın qarşısına yaş və ya qabiliyyətinə uyğun olmayan tələblər qoyulması;
- Böyüklərin yalan vədlər verməleri və ya vədləri yerinə yetirməmələri;
- Uşağın zehni travmasına səbəb olan ümumi fiziki təsir.

Uşağın maraqlarına etinasızlıq - valideyn və ya qəyyumların 18 yaşına çatmamış uşağın qida, geyim, mənzil, tibbi xidmət, təhsil, qoruma və nəzarətdəki əsas ehtiyaclarını ödəyə bilməməsidir. Psixoloji laqeydlik - valideyn və ya qəyyumun uşağı lazımi dəstək, diqqət və sevgi ilə təmin edə bilməməsidir.

3. Uşağın sağlamlığına zərərin verilməsi:

- Cədvəl (yaşına uyğun olmayan ağır dərs yükü);
- Gündə çox sayda nəzarət və yoxlama işlərinin aparılması;
- Böyük həcmdə ev tapşırığı;
- Hər hansı bir səhv və ya nöqsan üçün cəzalandırma uşaqda səhv etmə qorxusu formalaşdırır (uşaq səhv cavabı verməkdən qorxur).

## Tələbələr üçün fəaliyyətlər

1. Müəllimlər və valideynlərlə müzakirə olunan mövzuları müəyyən edin.
2. Valideynlərlə görüş zamanı profilaktik işin mərhələlərini təsvir edin.
3. Uşaqların hüquqlarını qorumaq üçün müəllimlərlə konsiliumun strukturunu tərtib edin.
4. Valideynləri ən çox narahat edən mövzuları seçin və təhlil edin.
5. Qrup şəklində konsultasiyaların təşkili üçün təxmini plan və tapşırıqlar tərtib edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Valideyn və pedaqoqlarla təhsilalanların psixoloji sağlamlığının qorunması məqsədi ilə onların hüquqları (insan və uşaq hüquqları) haqqında müvafiq məlumatlar verir”**

1. Təhsil sistemində çalışan praktik psixoloq uşaqların sağlamlığını qorumaq üçün hansı işlər apara bilər?
2. Psixoloqun uşaqların hüquqlarını qorumaq üçün apara biləcəyi tədbirləri təsvir edin.
3. Məktəb daxilində uşaqların hansı hüquqları qorunmalıdır?
4. Uşaqların hüquqları valideyn tərəfindən pozulursa, o zaman psixoloq hansı tədbirləri görə bilər?

## 2.4. Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı işləri "Risk qrupu"na aid olan uşaqların ehtiyaclarına uyğun olaraq planlaşdırır

Psixologiya və pedaqogika sahəsindəki risk qrupuna daxil olan uşaqların problemi ilə bağlı biliklərin vəziyyəti qiymətləndirilərkən iki əsas tendensiya qeyd edilə bilər. Əvvəla, ölkəmizdə olduğu kimi xaricdə də elmi ədəbiyyatda "Risk qrupunda olan uşaq" anlayışının inkişaf etməməsi və onun qeyri-müəyyənliyinə istinad edilir (Şəkil 2.10). Bu terminlə olduqca müxtəlif anlayışlar, ictimai hərəkətlər, psixoloji və somatik xüsusiyyətlərin ümumiləşdirilməsi ifadə edilir.



**Şəkil 2.10. Risk qrupuna aid uşaqlar**

"Qeyri-standart uşaqlar"ın öyrənilməsində həm fərqli elm məktəbləri, həm də fərqli müəlliflər arasında ciddi fərqlər mövcuddur. Bu problemi öyrənən alimlər bu terminin istifadəsinin subyektivliyi və onun təfsirində əhəmiyyətli fərqləri vurğulayırlar.

Digər tərəfdən, psixoloqlar arasında bir sıra əsas məqamlar barədə ümumi fikir mövcuddur və bu, "Uşaq risk qrupu"nun ümumi konturlarını müəyyənləşdirmək və bir sıra uşaq problemlərini qeyd etməyə imkan verir: uşaq özündən asılı olmayan səbəblərə görə risk zonasına daxil olur və buna görə də o, peşəkar kömək, böyüklər tərəfindən dəstək və müşayiət olmadan bu problemləri müstəqil şəkildə həll edə bilməyəcək (Sxem 2.2).




**Sxem 2.2. Təhlükə və ya risk qrupunda olan məktəblilərin problemlərinin təsnifatı**

İnkişafın müxtəlif mərhələlərində məktəblilərin problemlərinin öyrənilməsi həm uyğun olmayan davranış formalarının təzahürünün mahiyyəti və dinamikasının aşkar edilməsi, həm şəxsin idrak və emosional-könüllü sferasının yaşla bağlı inkişaf nümunələrinin dərk edilməsi, həm də duyğulu və fərdi formalaşmaların konsolidasiyası və daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Məktəb dövrü ərzində yetkinlik yaşına çatmayanların yaşadığı çətinliklər haqqında vahid bir fikrin yaradılması üçün məktəbdə yaşlı uşaqlar arasında xüsusi "Risk zonaları" və xüsusi "Risk qrupları" fərqləndirilmişdir.

L.V. Mardaxayev üzvləri həssas olan və ya müəyyən sosial şərait və ya ətraf mühitin təsirlərindən zərər görə biləcəyi qrupu “Risk qrupu”na aid edirlər. Beləliklə, o hesab edir ki, risk qrupuna çoxuşaqlı və natamam ailələr, əlil uşağı olan ailələr və valideyn qayğısından məhrum qalan uşaqlar daxildir. Risk altında olan yeniyetmə uşaqlara gəldikdə o, genetik, bioloji və sosial səbəblərə görə yarana bilər.

E.İ. Kazakovanın fikrinə görə, uşaq üçün ehtimal edilən təhlükəni yaradan üç əsas risk qrupu vardır: psixofiziki, sosial və pedaqoji. Aşağıdakı risk faktorlarını müəyyənləşdirən V.E. Letunova bu yanaşmaya daha yaxındır:

- Biotibbi (sağlamlıq problemləri qrupları, irsi səbəblər, anadangəlmə xüsusiyyətlər, pozulmuş zehni və fiziki inkişaf, uşağın doğulması üçün şərait, ananın xəstəlikləri və həyat tərzi və dölün inkişaf travması);
- Sosial-iqtisadi (çoxuşaqlı və təkvalideynli ailələr, yetkinlik yaşına çatmayanlar, işsiz ailələr və əxlaqsız həyat tərzi sürən ailələr) və cəmiyyətdə yaşaya bilməyən (səliqəsizlik, işsizlik, oğurluq, fırıldaqçılıq, döyüşlər, qətllər, intihar cəhdləri, içki və narkotik);
- Psixoloji (sosial mühitə qarşı yadlaşma, özündən imtina, nevrotik reaksiyalar, ətrafdakılarla ünsiyyətin pozulması, emosional qeyri-sabitlik, fəaliyyətdə uğursuzluq, sosial uyğunlaşmada uğursuzluq, ünsiyyət çətinliyi və həmyaşıdlar və böyüklər ilə qarşılıqlı əlaqə);
- Pedaqoji (təhsil müəssisəsi proqramlarının məzmunu və uşaqlara psixofizioloji xüsusiyyətlərin öyrədilməsi üçün şərait, uşaqların zehni inkişaf tempi və təhsil səviyyəsi, mənfi qiymətləndirmələrin yayılması, fəaliyyətə etimadın olmaması, öyrənməyə marağın olmaması, müsbət təcrübəyə qarşı biganəlik və tələbə şəklinə uyğunsuzluq).

L.Y. Oliferenko, T.İ. Şulqa və İ.F. Dementieva risk altında olan uşaqlara aşağıdakı tərifi verirlər: həyatlarının müəyyən şərtlərinə görə başqalarından daha çox cəmiyyət və onun cinayətkar ünsürlərinin mənfi xarici təsirlərinə məruz qalma ehtimalı olan yetkinlik yaşına çatmayan uşaqların kateqoriyası.

Psixoloji və pedaqoji ədəbiyyatın təhlili uşaqların risk altına düşmə səbəblərini ortaya çıxardı. Bunun əsas səbəbləri bu uşaqların aşağıdakı həyat şəraitidir:

- Bir və ya hər iki valideynin alkoqol içkilərə aludəçiliyi;
- Valideynin antisosial davranışları (parazitizm, dilənçilik, oğurluq və s.);

- Qanuni icazə olmadan silah alətləri, sağlamlığa zərər verə biləcək antisosial element və cihazların valideynlər tərəfindən evdə saxlanması;
- Valideynlərdən birinin həbs cəzası çəkməsi;
- Valideynlərdən birinin alkoqolizm və ruhi xəstəlikdən müalicəsi;
- Uşaqlara qarşı zorakılıq (döyülmə, ağır xəsarətlərlə döyülmə və aclıq);
- Körpə uşaqların yemək və su olmadan tək buraxılması;
- Başlarının üstündə bir damın olmaması, dolanışıq olmadan valideynlərlə gəzmə və daimi yaşayış yerinin olmaması;
- Evdən qaçışlar, həmyaşıdlar ilə qarşıdurmalar, böyüklər tərəfindən həddən artıq nəzarət və s..

"Çətin həyat vəziyyətində olan uşaqlar"ın müəyyən edilməsi üçün aşağıdakı meyarlar təklif olunur:

- Valideyn himayəsindən məhrum qalan uşaqlar;
- Əlil uşaqlar;
- Əqli və fiziki inkişafda zəif olan uşaqlar;
- Silahlı və millətlərarası münaqişələr, ekoloji və texnoloji fəlakətlər və təbii fəlakətlərin qurbanı olan uşaqlar;
- Qaçqın və məcburi köçkün ailəsindən olan uşaqlar;
- Ekstremal şəraitə düşən uşaqlar;
- Zorakılığın qurbanı olan uşaqlar;
- Xüsusi təhsil müəssisələrində olan uşaqlar;
- Aztəminatlı ailələrdə yaşayan uşaqlar;
- Davranış pozulmaları olan uşaqlar.

Buna görə uşaqların risk qrupunun mənsubiyyəti müxtəlif əlverişsiz etnologiyalardan qaynaqlanır, yəni fərqli sosial köklərə malikdir.

Məktəb güclü bir sosial və təhsil müəssisəsi olaraq şüur və özünüdərkin formalaşması ilə səciyyələnən şəxsiyyətin semantik sferasının inkişafının formalaşmasında həlledici təsir göstərir.

S.V. Titova ən çox müşahidə olunan uşaqlıq problemlərinin təsnifatını hazırladı. O, "çətin" və ya "pedaqoji laqeyd" uşaqlar kateqoriyalarının da risk altında olduqlarını bildirir:

1. İstedadlı uşaqlar;
2. Zəif təhsilli uşaqlar (təhsil və inkişaf problemləri olan uşaqlar). Məktəb uğursuzluqları səbəbi ilə risk altına düşən uşaqlar bir və ya bir neçə məktəb fənni üzrə bilik və bacarıq nöqteyi-nəzərdən tələblərə cavab vermirlər. Onlar həmçinin, müəllimlərin tələblərinə uyğun gəlməyən zəif fərdi qabiliyyət və imkanlara malikdir və buna görə məktəb fənlərindən qeyri-qənaətbəxş qiymətlər alırlar;
3. Xəstə uşaqlar (sağlamlığı zəif olan və psixofiziki zəifləmiş uşaqlar və əlillər);
4. Problemli və disfunksiyalı ailələrdən olan uşaqlar. Risk altında olan uşaqlar

problemli ailələrdən olan, ailənin (və ya onun ayrı-ayrı üzvlərinin) psixoloji, mənəvi, fiziki, maddi və iqtisadi çətinliklərinə görə uşağın daimi səfalət və iztirabları ilə əlaqəli emosional davranışları ilə fərqləndirilir;

5. Pedaqoji baxımdan laqeyd olan uşaqlar.

Uşaqlar düzgün olmayan psixoloji təsir nəticəsində, ailə tərbiyəsinin təhrif olunmuş formaları səbəbindən ancaq o halda pedaqoji cəhətdən laqeyd olurlar ki, problemlər böyüklər tərəfindən vaxtında və lazımi şəkildə həll olunmur. Bu, korreksiya və reabilitasiya məzmunu ilə vaxtında psixoloji və pedaqoji yardım almayan uşaqların çətin bir kateqoriyasıdır.

Jourdan-İonescu, Senarno və Metonun fikrinə görə risklərin üç əsas məna meydana gətirən növləri vardır:

1. Fərdi-şəxsiyyət risk faktorları:
   - İstənməyən hamiləlik/doğuş;
   - Hamiləlik dövründə ananın pis vərdişləri və vaxtından əvvəl doğuş (vaxtından əvvəl dünyaya gəlmiş körpə);
   - Doğuş zamanı körpənin az olan çəkisi;
   - Sağlamlıq problemləri;
   - Uşağın görünən fiziki qüsurları;
   - Psixopatoloji pozulmaların olması;
   - Yüksək və ya aşağı olan fəaliyyət səviyyəsi;
   - Çətin xasiyyət;
   - Xarici nəzarət;
   - Pis vərdişlərdən asılılıq;
   - Uşaq zorakılığı;
   - Zehni qabiliyyətlərin normadan aşağı olması.
2. Ailə risk faktorları:
   - Ailə quruluşunun qeyri-sabitliyi;
   - Hamiləlik dövründə psixososial problemlər;
   - Ailədə çox sayda uşaq və ilk doğuşda ananın erkən yaşı;
   - Yoxsulluq-valideynlərin aşağı maddi səviyyəsi;
   - Gigiyena problemləri;
   - Valideynlərin məktəb təhsillərinin olmaması;
   - Ədalət problemləri;
   - Valideynlərin psixi sağlamlıq problemləri;
   - Narkotik və alkoqol istifadəsi ilə əlaqədar problemlər;
   - Ailə zorakılığı;
   - Ailə üzvlərindən birinin fiziki sağlamlığı problemləri;

- İşsizlik;
- Ananın məhdud idrak qabiliyyəti;
- Valideyn stressi;
- Qeyri-kafi tərbiyə sistemi;
- Xəyanətkar/soyuq ailə iqlimi;
- Təhsil mühitindəki risk probleminə əsas yanaşmalarda uşaqla müsbət qarşılıqlı əlaqə olmaması;
- Bir uşağa ümid olmama və ya həddən artıq tələblər.

3. Ətraf mühitin risk faktorları:
   - Təhlükəsizliyin olmaması;
   - Qeyri-kafi şəxsi sahə;
   - Yaşayış yerini tez-tez dəyişdirmə;
   - Valideynlərin çox məhdud sosial əlaqələri;
   - Uşağın çox məhdud sosial əlaqələri;
   - Əlverişsiz yaşayış sahəsi.

Riskin psixoloji tərəfi şəxsin psixoloji təhlükəsizliyi ilə birbaşa bağlıdır. Təhsildə psixoloji təhlükəsizlik problemi onun subyektlərinin risklərini öyrənmə baxımından nəzərdən keçirilə bilər.

Təhsil mühiti ilə əlaqədar O. R. Veretina və O. G. Parxomenko aşağıdakı risk növlərini qeyd edir:

1. Funksional risk - təhsilin keyfiyyəti, ehtiyacların ödənilməməsi, problemlərin həll edilməməsi və faydaların olmaması ilə əlaqələndirilir. Funksional riskin daxili amili təhsil fəaliyyəti və müəyyən bir təhsil müəssisəsi seçimi üçün motivasiyadır. Dəyərlərə (üstünlüklərə) həm təhsil prosesinin özü, həm də yeni bilik, bacarıq və onları təsdiq edən sənədlər şəklində daxil olan nəticə daxil ola bilər;
2. Maliyyə riski - pul itkisi - istehlakçılar öz maliyyə mənbələri adekvat qiymətləndirilməlidir;
3. Fiziki risk - bəzi hallarda təhsil prosesi həddindən artıq psixoloji və fiziki streslə müşahidə olunur;
4. Psixoloji risk öz imicinin mənfi istiqamətdə dəyişilməsi və özünə hörmətin pozulması kimi müəyyən edilir;
5. Sosial risk - edilən seçimin başqaları tərəfindən qəbul edilməməsi ehtimalı;
6. Və nəhayət, vaxt itkisi ilə əlaqəli risk.

V.N. Aleşin müəllim və tələbə arasındakı təhsil mühitindəki avtoritar ünsiyyət üslubunu əsas risk mənbəyi hesab edir və bunun ənənəvi mənbələri bunlardır:

- Əksər dövlət və ictimai quruluşların iyerarxik təşkili;
- Müəllimin öz təcrübəsi və pedaqoji prosesdə avtoritar-susdurma texnologiyalarından istifadə edərkən qısamüddətli uğur;

- Müəllimin inamsızlığı və etibarsızlığını kompensasiya etmə cəhdləri;
- Bəzi tələbələrin qorxudan müəllimə həvəslə itaət etmələri;
- Avtoritar davranış tərzi olan müəllimlər arasında daha yüksək tələbə fəaliyyətinə dair mövcud qərəzlər;
- Həmkarlar, məktəb rəhbərliyi və valideynlər tərəfindən müəllimin avtoritar davranışına dair gözləntilər;
- Müəllimin bilik, təcrübə və fiziki güc baxımından tələbədən təbii üstünlüyü.

N.F. Maslovanın apardığı tədqiqatlar göstərir ki, uşaqların narhatlığı müəllimlərin uşaqlarla qarşılıqlı təsirinin xüsusiyyətlərindən birbaşa asılıdır. Tələbə öyrənməsinin aşağı səviyyəsi ali zehni funksiyalar (yaddaş, diqqət, düşüncə və təxəyyül) və özbaşına davranışın emosional-könüllü tənzimləyicilərinin yetkinliyi ilə müəyyən olunan daxili şərtlərə malikdir.

Müəllimlər üçün ciddi çətinliyi idrak motivasiyasına sahib olmayan uşaqlar yaradırlar: belə uşaqların əksəriyyətinin məktəb fənlərinə marağı yoxdur. Bu cür şagirdlər üçün uğursuz davranış formalarının qarşısının alınması məqsədilə motivləri mənəvi cəhətdən təhrif olunmuş davranışlar formalaşdırılır. Yeniyetmələr valideynlər və müəllimləri aldadır, dərsləri buraxır və ev tapşırıqlarını yerinə yetirmirlər. Belə uşaqlar üçün məktəbdə ilkin mərhələdə təlim zamanı təhsil fəaliyyətinin əsas bacarıqları formalaşdırılmır. Bu uşaqlar müəllim, psixoloq və xüsusilə, öz valideynlərindən vaxtında kömək almırlar.

### 2.4.1. Hiperaktiv uşaqlar

Xüsusi çətinliyi və qeyri-sabit bir sinir sistemi olan, artıq diqqət və davamlı pedaqoji dəstək tələb edən hiperaktiv uşaqlardır, çünki hər an onlar ictimai təhlükə yarada bilərlər: digər uşaqların sağlamlığına zərər verə bilərlər. Bu cür uşaqlar nevroloq və psixiatrın nəzarəti altındadırlar (və ya olmalıdırlar, lakin valideynlərin diqqətsizliyi səbəbi ilə vaxtında qeydiyyata alınmamışlar).

Məktəbdə sinif rəhbəri uyğun olmayan davranışları olan uşaqları diqqət zonasından kənarda qoymur. Ailə tərbiyəsinin nəticələri haqqında və şəxsiyyətlərarası ünsiyyət ilə əlaqədar məktəbin digər mütəxəssisləri (psixoloq, müəllim, loqoped və təhsil xidməti) ilə daima təmasda olur.

### 2.4.2. Disfunksiyalı ailələrdə tərbiyə olunan uşaqlar

Daha bir uşaq kategoriyası - sosial-iqtisadi və ya psixoloji-pedaqoji problemləri olan ailələr və həssas ailələrdə tərbiyə olunur. Risk zonasına düşən problemli və ya disfunksiyalı ailələrin (və ya problemli ailələrin) uşaqları ailənin (və ya onun ayrı-ayrı üzvlərinin) psixoloji, mənəvi, fiziki, maddi və iqtisadi çətinliklərinə görə uşağın daimi narahatlığı və əzabları ilə əlaqəli emosional qeyri-sabit davranışları ilə bağlıdırlar.

Sosial-iqtisadi problemləri olan, lakin yaxşı vəziyyətdə yaşayan ailələr sosial-iqtisadi risk zonasındadırlar. Bunlar təkvalideynli ailələr, çoxuşaqlı ailələr, qəyyum ailələr, əlil uşaqları olan ailələr, uşaqların valideynlərinin əlil olduğu ailələr, fərdi ailə üzvlərinin

xroniki psixosomatik xəstəlikləri olan ailələr, qaçqın ailələri, kiçik xalqların ailələri, hərbi əməliyyatların iştirakçılarının ailələri, habelə uşağın fərdi təhsil aldığı ailələrdir.

### 2.4.3. Pedaqoji baxımdan laqeyd olan uşaqlar

Məktəblilərin problemlərinin təsnifatında mərkəzi yeri bir anda iki və ya daha çox zəmində problemi olan və pedaqoji cəhətdən diqqətsiz qalan uşaqlar kateqoriyası tutur. Beləliklə, ailə tərbiyəsindəki səhvlər məktəbdəki uğursuzluq, sonra isə sağlamlıq problemlərinə səbəb ola bilər. Məsələn, istedadlı bir uşağın ciddi sağlamlıq problemi ilə yanaşı, eyni zamanda disfunksiyalı bir ailədə tərbiyə edilməsi mümkündür, və ya aparıcı məktəb intizamından geri qalan uşağın başqa bir qabiliyyəti ola bilər (məsələn, üstün idman qabiliyyəti vardır). Bu da tərbiyə və təhsilə xüsusi bir yanaşma tələb edir. Bu ən çətin uşaq kategoriyasıdır. Bu kategoriyaya ağır psixomatik xəstəlikləri olan uşaqlar aiddir. Bu uşaqlar sosial məhrumiyyət yaşamış və valideyn-uşaq münasibətlərində ciddi düzəlməz problemləri olan uşaqlardır. Qəzəb, aqressiya, nifrət, həsəd və ətrafdakı insanlara qarşı laqeyd münasibət bu uşaqların dünyanın təhrif olunmuş qavrayışına emosional reaksiyasıdır.

Çox vaxt belə uşaqlar bir məktəbdə "kök salmır", təhsil aldıqları yerləri nəticə əldə etmədən dəyişir, fərqli qohumlarla birgə yaşayır, ailədə lazımsız olduqlarını daha aydın başa düşür və valideynlər (qəyyumlar), müəllimlər və həmyaşıdlar tərəfindən anlaşılmadıqları üçün çox ağır narahatçılıq yaşayırlar. Bu uşaqlar davranışın antisosial formalarını nümayiş etdirirlər: deviant davranış və asılılıq.

### 2.4.4. Deviant davranışlı uşaqlar

Deviant davranış (sapma) cəmiyyətdə qəbul edilən hüquqi və mənəvi standartlara ziddir. Çox vaxt deviant davranış özünə inam vasitəsi, böyüklərin görünən və ya həqiqətən, mövcud ədalətsizliyinə etiraz forması kimi xidmət edir.

Asılılıq davranışı pis bir asılılıq və hər hansı bir maddənin köməyi ilə əsarət altına alınma vərdişi ilə müəyyən edilir: alkoqol, narkotik, trankvilizator, qumar və s.. Asılılıq tanış insanlar çevrəsində boşluq hissi yaradır. Asılılıq insanın öz ehtiyaclarını ödəmə qabiliyyətində olmaması, həyatdan daimi narazılığı və özünəinam hiss etməməsinin nəticəsidir. Uşağın istəyi nəyin bahasına olursa-olsun, özünə inamı qaytarmaq və başqalarının hörmətini qazanmaq asılılıq davranışının qeyri-adekvat, bəzən ölümcül formasına səbəb olur.

Uşaqların əksəriyyəti risk qrupuna gənc yaşlarında düşürlər. Buna görə bu kateqoriyalı uşaqlar ilə işləyən mütəxəssislər uşaqların psixoloji xüsusiyyətlərini bilməlidirlər. Yetkinlik yaşı çox sürətli keyfiyyət dəyişikliklərinin yaşıdır. Cinsi yetkinlik dövrünə təsadüf edir.

Risk qrupunda olan yeniyetmələrin əksəriyyəti özlərini tənha və köməksiz hiss edirlər. "Çarəsizlik" anlayışı bir şeyin öhdəsindən tək gələ bilməmək, başqalarından kömək görməmək, istəyə bilməmək və ya narahatlıq halında olmaq kimi qəbul edilir. Risk qrupunda olan yeniyetmələrdə bu vəziyyət müəyyən vəziyyətlərlə (valideynlər, müəllimlər və həmyaşıdları ilə münasibətləri dəyişə, müstəqil qərar verə və nəticə çıxara bilməməsi və

s.) əlaqələndirilir.

Uşaqlar və yeniyetmələrdə çarəsizliyin tədqiqi İ.S. Korosteleva, V.S. Rotenberg, eləcə də xarici tədqiqatçılar tərəfindən aparılmışdır. Bir çox elm adamının fikrincə, yeniyetmələrin çarəsizliyi uğursuzluqlar, xəsarətlər, axtarışdan imtina edilməsi və ya problemin həll edilməsi üçün qeyri-konstruktiv yolların olmasıdır və s.. Risk qrupunda olan uşaqların əsas fərqləndirici xüsusiyyətləri ondadır ki, onlar rəsmi və qanuni olaraq xüsusi yanaşma tələb etməyən uşaqlar hesab edilə bilərlər (ailəsi və valideynləri vardır və adi ümumi təhsil müəssisəsinə gedirlər).

Eyni zamanda, risk qrupunda olan uşaqlar yalnız mənfi amillərdən təsirlənmir, lakin çox vaxt başqalarının köməyi və rəğbətini tapmırlar, lazımi vaxtda göstərilən yardım uşağı dəstəkləyə, çətinliklərini dəf etməyə, dünyagörüşünü dəyişdirməyə, dəyər yönümlərini dəyişməyə və həyatın mənasını anlamağa kömək edə bilər və o, normal vətəndaş, insan və şəxs ola bilər.

A.L. Lixtarnikova müəyyən etdi ki, risk qrupuna aid olan uşaqların 67%-i özlərini xoşbəxt insanlara aid etmir, yeniyetmələrin yalnız 17%-i isə özlərini xoşbəxtlik anlayışı ilə əlaqələndirirlər. Bu gənclərin əksəriyyəti özünü tənha hiss etməyə meyillidirlər.

Psixoloqlar hesab edirlər ki, yeniyetmələrdə davranışdakı sapma ya müvəqqəti, ya da daimi ola bilər, hamısı yeniyetmənin yerləşdiyi ümumi vəziyyət, habelə bu yeniyetmədə bir insanın həyatına təsir edən amillərdən asılıdır.

Vaxt dövrünə görə sapmaların 2 qrupunu ayırmaq olar: situasiya sapmaları və sabit sapma formaları.

**Aqressivlik** aqressiyaya hazırlıqla müşayiət olunan psixoloji vəziyyətdir. Uşaq və yeniyetmələrdə belə davranışın yaranması bir sıra amillərlə bağlıdır:

- Uşağın ailədə tərbiyə üslubu (hiper və ya hipohimayə);
- Uşağa zorakılıq səhnələrinin nümayiş etdirilməsi və ya buna şəraitin yaradılması;
- Ailədə qeyri-sabit sosial-iqtisadi vəziyyət;
- İnsanın özünün sinir sistemi tipindən asılı olan fərdi xüsusiyyətləri (davranışda impulsivlik və fəal ləngimənin aşağı səviyyədə olması);
- Ailənin sosial-mədəni statusunun aşağı olması və s..

Əminliklə qeyd etmək olar ki, uşaqda aqressiv davranışın yaranmasında ailə mühiti və tərbiyənin mühüm rolu vardır. Uşaqla münasibətlərdə emosionallığın xarakteri, səviyyəsi, təqdir edilən və bəyənilən davranış formalarının aqressiv davranışın yaranmasında təsiri heç də az deyildir.

Aqressivlik fiziki və psixi cəhətdən şərtləndirilmiş olur. Uşağın aqressivliyini heç də həmişə birmənalı olaraq mənfi qiymətləndirmək doğru deyildir.

### 2.4.5. Risk qrupunda olan uşaqlara psixoloji yardım

Ümumiyyətlə, psixoloqun riskli uşaqlar ilə iş prinsipləri aşağıdakı kimi tərtib edilir

- “Psixoloq - uşaq” - uşaqların sosial dəstəklənməsi və müdafiəsi üçün dövlət sisteminin bütün subyektlərinin (sosial müdafiə orqanları, təhsil, polis və səhiyyə)

işə cəlb edilməsi;

- Uşağın ailəsi ilə sıx qarşılıqlı əlaqə;
- Nəzarətçi və məsləhətçi ilə daimi ünsiyyət.

Daha konkret bir planda psixoloqun işi üçün yuxarıda təklif olunan prinsiplər aşağıdakı praktik tövsiyələr şəklində təqdim edilə bilər. Bir uşaqla etibarlı əlaqənin yaradılması üçün psixoloqun psixoloji texnika ilə yanaşı, eyni zamanda uşağın şəxsiyyət xüsusiyyətləri barədə məlumat sahibi olması da vacibdir. Bu cür məlumatlar aşağıda təklif olunan sxemdən istifadə edilərək toplanıla bilər .

Psixoloji, tibbi və pedaqoji dəstəyin sxemi:

1. Müəllim və valideyndən məktəb psixoloquna müraciət;
2. İstəklərin (şikayətlərin) təhlili;
3. Əsas və ya dərin diaqnoz;
4. Diaqnostik nəticələrin təhlili, problemlərin səbəbi və təbiətinin fərz edilməsi;
5. Müəllimlər və valideynlərə tövsiyələrin verilməsi;
6. Uşaq üçün tərbiyəedici işlərin həyata keçirilməsi;
7. İşin təhlili və gələcək proqnozun aparılması.

1-mərhələ. Sinif şagirdləri haqqında ilkin məlumatların öyrənilməsi. Psixoloq bunları tədqiq edir: şagirdlərin şəxsi sənədləri, tibbi müayinənin nəticələri, pedaqoji xüsusiyyətləri, dərs fəaliyyətlərinin nəticələri, dərslərdə iştirak və məktəb xaricində şagirdlərin həyati fəaliyyətləri - şagirdlərin hansı ailələr və şəraitdə yaşadıqları.

2-ci mərhələ. Risk qrupunun şagirdlərinin müəyyənləşdirilməsi. Psixoloq risk qrupunda olan uşaqları müəyyən etmək üçün sinif xəritəsini tərtib edir və təsnifata uyğun olaraq risk qrupunun şagirdlərini müəyyənləşdirir.

3-cü mərhələ. Risk qrupunun şagirdləri ilə işin planlaşdırılması. Psixoloq sinif kollektivinin tədris fəaliyyətlərini "Risk qrupu"nda olan şagirdlərlə işləmə formaları və metodlarını nəzərə alaraq planlaşdırır. Planlaşdırma zamanı məktəbin mütəxəssisləri ilə müəllim və tibb işçisi ilə əlaqəni nəzərə almaq lazımdır.

4-cü mərhələ. Təhsil tədbirləri planının icrası. Psixoloq risk qrupuna daxil olan şagirdlər ilə təhsil fəaliyyət planında nəzərdə tutulan işlərin icrasını müşayiət edir və əlaqələndirir və müəyyən müddət ərzində nəticələrini yekunlaşdırır. Psixoloq sinif müəllimləri və məktəb mütəxəssisləri ilə qarşılıqlı əlaqələr quraraq şagirdlər və risk qrupunda olan ailələrlə işləməyi planlaşdırır. O, uşaqların yaş, şəxsiyyət xüsusiyyətləri, qabiliyyətlər, maraqlar, məktəbə münasibətlər, təhsil, davranış və ictimai çevrəsini öyrənir və bir uşağın şəxsiyyətinin strukturundakı müsbət və mənfi təsirləri müəyyənləşdirir.

Psixoloq uşağın müəyyən olunmuş problemləri ilə aşağıdakı formalarda işləyir:

- Fərdi forma: uşaq və valideynlər ilə söhbət;
- İndividual proqramlar qurma - məsləhətləşmələr və korreksiya təlimləri;
- Qrup forması: bir uşağın həyat təhlükəsizliyinin sosial kontekstdə təşkili problemləri ilə bağlı qrup müzakirələri, təlimlər, məsləhətləşmələr, mühazirələr,

sinif ilə kollektiv oyunlar və dərslər.

Pedaqoq-psixoloqun əsas fəaliyyətləri:

- Şagirdlərin həmyaşıdlar və böyüklərlə ünsiyyətinin optimallaşdırılması, özünə hörmət və inamın formalaşdırılması, qarşılarına məqsəd qoya bilmə və özünü idarə edə bilmə bacarığının inkişafı;
- Ətrafdakı sosial mikro-mühitdəki uşağın vəziyyətinin öyrənilməsi;
- Bir uşağın şəxsiyyətinin müsbət və mənfi keyfiyyətləri və meyil və qabiliyyətinin müəyyən edilməsi;
- Öyrənmə səviyyəsinin müəyyən edilməsi;
- Uşağın fiziki sağlamlıq vəziyyətinin öyrənilməsi;
- Mənəvi ehtiyaclarının təhrif dərəcəsinin müəyyənləşdirilməsi;
- Uşağın əsas dəyərlərinin öyrənilməsi.

Müxtəlif çatışmazlıqları olan uşaqların psixoloji tədqiqindən toplanmış məlumatlar göstərdi ki, hər növ pozulmuş inkişaf özünəməxsus psixoloji quruluşa malikdir. Buna görə "Risk qrupu"nda olan uşaqlar müəyyən etmə işinə başladıqda, ilk növbədə, uşağın "Risk qrupu"na aid edilə biləcək meyarlarını dəqiq müəyyənləşdirmək və onlara uyğun olaraq metodları seçmək lazımdır. İkincisi, qrupun maksimum üç meyarla məhdudlaşdırılması yaxşı olardı, əks halda ya müəyyən edilmiş qrup həddən artıq heterogen olacaq və ya uşağın hansı risk qrupuna aid olması bir çox mübahisəli vəziyyət yaranacaq.

Nəzərə almaq lazımdır ki, heç bir halda bir metoda əsaslanaraq qərar qəbul etmək olmaz və diaqnostik batareya (yəni bir neçə metodikanın istifadəsi) qurmaq lazımdır. Beləliklə, məsələn, solaxay uşaqlar ibtidai məktəbdə "Risk qrupu" ola bilər (solaxay uşaqlar risk qrupuna daxildir, çünki onları valideynlər və müəllimlər sağ əllə işləməyə öyrədirlər, buna görə yazma və oxuma ləngiyir). Bu uşaqları müəyyən etmək üçün müəllimlər və valideynlərdən məlumat toplamaq və aparıcı əli müəyyənləşdirməyə yönəldilmiş diaqnostik metodlar aparmaq lazımdır.

Psixoloq bilməlidir ki, diaqnostik texnikanın imkanları məhduddur və diaqnostik nəticələr əsasında hərtərəfli mənzərənin əldə edilməsi çox çətindir. Buna görə psixoloqun risk qrupunda olan uşaqları müəyyənləşdirmək kimi bir vəzifəsi varsa, o zaman diaqnozdan əlavə, müəllimlərin ekspert qiymətləndirmələri və uşaqların müşahidələrinin nəticələrinə də etibar etmək lazımdır.

Beləliklə, psixoloq işində müşahidə, valideynlər və müəllimlər, hətta şagirdin özü ilə söhbət və proyektiv testlər kimi müxtəlif metodlardan istifadə etməlidir.

Risk qrupunda olan uşaqların müəyyənləşdirilməsi tədris ili ərzində mütəmadi olaraq inteqrasiya olunmuş metodla aparılır və özünə aşağıdakıları daxil edir:

1. Məktəb sənədlərinin öyrənilməsi;
2. Yetkinlik yaşına çatmayanlar haqqında məlumatın digər bölmələrdən istənilməsi;
3. Müəllimlər, tələbələr, valideynlər, qonşularla söhbət və rəy sorğuları;
4. Dərs, məktəbdənkənar tədbir və ailədə müşahidələr;

5. Həm də pedaqoji diaqnostika metodları, məsələn:
   - Sinif kollektivinin təhsil səviyyəsinin müəyyənləşdirilməsi metodikası;
   - Sinif komandasının formalaşdırılmasının öyrənilməsi üçün metodika;
   - Sinif kollektivində özünüidarəetmə;
   - Tələbə şəxsiyyətinin sosiallaşmasının öyrənilməsi metodikası;
   - Sosiometriya.

Tələbə şəxsiyyətinin pedaqoji diaqnostikasında şagirdlərin özləri iştirak edərsə, o zaman risk qrupunda olan uşaqların erkən müəyyənləşdirilməsi ilə bağlı nəticələr daha dəqiq olar. Təcrübədə özünü öyrənmə və özünü qiymətləndirmənin aşağıdakı üsulları öz nəticəsini verdi:

1. Müəyyən bir mövzuya dair inşalar və tərtib olunmuş plan;
2. Özünü xarakterizə və özünə müsahibə və "Özünü tanı";
3. Özünü tanımağa yönəldilmiş oyunlar.

Hər rübdə sinif müəllimi və psixoloq müşahidələrin nəticələri və deviant davranış diaqnozunun təhlilinə əsasən müşahidələr xəritəsi doldurur. Bu xəritələrlə problemin ciddiliyi və ya disfunksiyalılığının həcm və dərəcəsinin təyin edilməsinə kömək edilir və uşağın müəyyən edilmiş problemləri nəzərə alınmaqla tələbələrlə korreksiya proqramının hazırlanması üçün əsasdır. Bundan əlavə, risk qrupunda olan uşaqlar ilə işi təşkil edərkən və bu kateqoriyadakı bütün uşaqlarla işlənərkən müşahidə edilməli olan bir neçə ümumi qaydaları müəyyən etmək olar.

Əvvəla, müəllimin məsuliyyəti böyükdür, çünki şagirdin taleyi çox vaxt nəticələrin düzgünlüyü və dəqiqliyindən asılıdır. Hər hansı bir təxmin (məsələn, kömək üçün digər mütəxəssislərlə əlaqə qurma ehtiyacı haqqında) diaqnostik işdə diqqətlə yoxlanılmalıdır.

İkincisi, uşağın problemləri barədə digər insanlara məlumat vermək lazım olduğu hallarda bu vəziyyətdə xüsusi ehtiyat və müdriklik tələb olunur. Bunun üçün klinik və psixoloji terminologiyadan imtina edib yalnız məişət - gündəlik lüğətlərdən istifadə edilməlidir. Eyni zamanda, valideynlər və digər müəllimlərə çətin vəziyyətdə olan uşağa necə kömək etmək barədə aydın və dəqiq tövsiyələr vermək lazımdır.

Üçüncüsü, ailə vəziyyətinin xüsusiyyətlərinə xüsusi diqqət yetirilməlidir. Risk altında olan uşağın ailəsi ilə işləmək çox vaxt psixoprofilaktikanın daha vacib vasitəsidir, nəinki bir qrup şagird və müəllimlərlə işləmək. Bu şərtlərə riayət etmək uşağa kömək edir və çətinlikləri aradan qaldırmaq üçün şərait yaradır.

Yuxarıda göstərilənlərin hamısını ümumiləşdirərək bəzi nəticələrə gələ bilərik. Riskli uşaqların əsas fərqləndirici xüsusiyyətləri ondadır ki, rəsmi və qanuni olaraq onlar xüsusi yanaşma tələb etməyən uşaqlar hesab edilə bilər (ailələri və valideynləri vardır və adi təhsil müəssisələrinə gedir), amma müxtəlif səbəblərə görə onlardan asılı olmayan və təməl hüquqlarını tam həyata keçirə bilməyən bir vəziyyətə düşürlər (adekvat inkişaf şərtləri olmadıqda uşaq risk zonasına düşür və onunla ortaya çıxan problemlər vaxtında və effektiv həllini tələb edir). Risk qrupunun uşaqları yalnız peşəkar hazırlıqlı mütəxəssislər tərəfindən müəyyən edilə bilər.

Risk qrupundakı şagirdlərlə işləmək üçün bütün məktəb müəllimlərinin əməkdaşlığı tələb olunur. Müşayiət sisteminin mütəxəssisləri uşağın problemlərinin həllinə hərtərəfli yanaşmalı və profilaktik işləri keyfiyyətcə təşkil etməlidirlər. Onların hər biri uşaqlar və yeniyetmələrin problemlərinin həllində müxtəlif mütəxəssislərin qarşılıqlı fəaliyyətinin çətin bir iş olduğunu başa düşməlidirlər, lakin bu, eyni problemə fərqli nöqteyi-nəzərlərdən alaraq problemləri fərqli cəhətlərdən nəzərdən keçirməyə imkan verən yeganə yoldur.

## Tələbələr üçün fəaliyyətlər

1. Risk qrupuna daxil olan istedadlı uşaqlar üçün psixoprofilaktik proqram tərtib edin.
2. Yüksək riskli ailələrdən olan uşaqlar üçün korreksiya təlim proqramını hazırlayın.
3. Psixoloqun pedaqoqlarla apardığı profilaktik işin mərhələlərini izah edin.
4. Risk zonası və risk qrupuna daxil olan uşaqlarla aparılan işin xüsusiyyətləri nəzərə alınaraq diaqnostik metodları seçin.
5. Risk qrupuna daxil olan uşaqlara köməyin göstərilməsində məktəbin rolunu izah edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı işləri “Risk qrupu”na aid olan uşaqların ehtiyaclarına uyğun olaraq planlaşdırır”**

1. Risk qrupu nədir?
2. Deviant davranış nəyə deyilir?
3. Risk zonası və risk qrupunun fərqliliklərini sadalayın.
4. Risk qrupuna daxil olan kateqoriyaları sadalayın.
5. Risk qrupunda olan uşaqlara psixoloji yardım nədən ibarətdir?
6. Risk qrupunda olan uşaqlarla davranış xüsusiyyətləri hansıdır?

## 2.5. "Risk qrupu"na aid olan istedadlı uşaqlar üçün planlaşdırılan fəaliyyətlərin reallaşdırılması üçün psixoloji tövsiyələr hazırlayır

İstedadlı uşaqlar ilə işləyərkən ilk vəzifə onların müəyyənləşdirilməsidir. Bu, müəyyən uşağın inkişafının təhlili ilə əlaqəli uzun bir prosesdir. Birdəfəlik testə əsaslandırılan istedadın effektiv diaqnozu (zəka, yaddaş və s. səviyyəsinə görə) yanlışdır. Çünki hər növ qabiliyyəti nəzərə alan etibarlı və hərtərəfli bir test mövcud deyil.

Hər şeydən əvvəl bir uşağın istedadının həm müsbət, həm də mənfi meyarlarla qiymətləndirilərkən səhv etmə ehtimalının tamamilə minimuma endirilməsi vacibdir, çünki bir və ya digər meyarın yüksək göstəricisi həmişə istedadın sübutu olmadığı kimi aşağı göstəricilər də istedadın olmamasının sübutu deyil. Psixoloji testin nəticələrini işləyərkən və təfsir edərkən bunu nəzərə almaq, xüsusilə, vacibdir.

Gilford və Torrensin intellektin psixometrik testləri üzrə yüksək göstəricilərində uşağın intellektual istedadı deyil, ancaq onun təlim və sosiallaşma fəaliyyəti göstərilə bilir. Villiams və Tunikin yaradıcılıq testləri üzrə aşağı göstəricilərdə uşağın idrak mövqeyi göstərilə bilər və bu onun yaradıcılıq qabiliyyətinin olmamasına qətiyyən dəlalət etmir.

Nəzərə almaq lazımdır ki, uşaqlıq istedadı bir yetkin insanın istedadına zəmanət vermir. İstedadlı uşağın xüsusiyyəti və mürəkkəbliyi ondadır ki, fərdi qabiliyyət və psixika sahələrinin yüksək səviyyədə inkişafı ilə bərabər uşağın digər sahələrdə geridə qalması müşahidə oluna bilər və buna görə də bu uşaqlar risk qrupuna daxil olunur. Xüsusilə, yüksək intellektual və yaradıcı qabiliyyətlərlə bərabər uşaqda aşağı səviyyədə sosial inkişaf və ünsiyyət bacarıqları müşahidə olunur, bunun nəticəsində uşaq kənardan dəstək olmadan cəmiyyətə müstəqil şəkildə uyğunlaşa bilməyəcək.

İstedadlı uşaqların problemlərinin həlli çox vacib, aktual və eyni zamanda çətin bir məsələdir. Bu məsələ təkcə pedaqoji ixtisasların nümayəndələrinin deyil, həm istedadlı uşaqların sosiallaşmasına təsir edə bilən müxtəlif profilli mütəxəssislərin diqqətini tələb edir: siyasətçilər, millət vəkilləri, iqtisadçılar, məşğulluq xidmətlərinin işçiləri və s..

Yuxarı sinif istedadlı şagirdlərinin pedaqoji və psixoloji müşayiəti istedadlı uşaqların fərdi xüsusiyyətləri və qabiliyyətlərinin inkişafı və təzahürü üçün optimal şəraitin yaradılması və qabiliyyətlərinin reallaşdırılmasına mənfi təsir göstərən amillərin zərərsizləşdirilməsi (və ya düzəldilməsi) prosesidir. Buraya ortaya çıxan fərqli xarakterli problemlərin həllində uşağa fərdi yardımın göstərilməsi prosesi də daxil edilir. İstedadlı uşaqlarla iş təhsil, diaqnostika, profilaktika və müalicə reabilitasiyası kompleks tədbirlərindən ibarətdir.

Psixoloji işlər ilkin biliyi dərinləşdirmək, insanların bu problemə marağı və müəyyən dərəcədə yüksək səviyyədə inkişaf qabiliyyəti olan uşaqların tərbiyəsinin inkişaf etdirməyə qadirdir.

Valideynlərin marifləndirilməsi uşaqların istedadının diaqnostikası sahəsində də həyata keçirilməlidir. Bir çox valideyn gələcək dahi yetişdirmək istəyir və bu səbəbdən övladlarına əslində onların sahib olmadıqları keyfiyyətləri də aid etməyə meyilli olurlar. Buna görə də əgər valideynlər hər hansı bir səbəbdən uşaq psixoloquna müraciət etmək istəmirlərsə, onda onların müxtəlif testlərlə tanış edilməsi ilə uşağın istedadının olub-

olmadığının özləri tərəfindən müəyyənləşdirilməsi üçün fürsətin verilməsi məqsədəuyğun olardı.

Diaqnostikanın əsas hissəsi uşağın təhsil müəssisəsinə qəbul edildiyi zaman həyata keçirilməlidir. Hazırda uşaqların ciddi psixoloji testlərdən keçirilməsi təhsil müəssisəsinə qəbul olunarkən hazırlıq səviyyəsinin müəyyən edilməsi üçün aparılır. Bu zaman uşaqların istedad və şəxsiyyətinin diaqnostikası üçün testlər də tətbiq edilməlidir.

İstedadlı bir uşaqla düzgün qurulan iş onun uğurlu sosiallaşmasının təmin edilməsi və şəxsi inkişafında sapmaların (mənfi xarakter dəyişikliyi, psixoloji travma və ya nevroloji xəstəlik) qarşısının alınmasına imkan verir. Buna görə istedadlı uşaqlarla profilaktik iş prosesinə valideyn və müəllimlər də cəlb olunur.

Məktəbdə istedadlı uşaqlarla hansı iş üsullarını həyata keçirmək mümkündür? İlk növbədə, təhsil müəssisəsi bazasında keçirilən və ölkə səviyyəsinə çıxışı olan yaradıcı müsabiqələr və ixtisaslaşdırılmış yarışlar (fənn olimpiadaları və konkurslar) vasitəsilə uşağın özünü reallaşdırması üçün geniş imkanlar təmin edilir. Bu tədbirlər uşağa praktik fəaliyyətlərdə özünü reallaşdırmaqdan əlavə əldə etdiyi nailiyyətlərin əhəmiyyətli dəyərləndirilməsinə də imkan verir.

Təlimi profilaktika forması kimi ayrıca təhlil edək. Uşaqlarla təlim qruplarında məşğul olmaq onların ictimai əhəmiyyətli keyfiyyət və bacarıqlarının inkişafına kömək edir və şəxsiyyətin psixoloji sabitliyini formalaşdırır, nəticədə uşaq ətraf mühitin mənfi təsirlərinə qarşı daha az həssas olur. Profilaktik funksiyadan başqa, təlim korreksiya və reabilitasiya funksiyaları da yerinə yetirilir, bu isə uşağın müsbət keyfiyyətlərinin artırılaraq şəxsiyyətin mənfi əlamətlərinin təzahürlərinin azaldılmasına imkan verir.

İstedadlı uşaqlarla iş qrup formasında da aparılır. Kollektiv fəaliyyət təcrübəsi, təlimlər, oyunlar, müsabiqələr və sərgilər həm uşaqların xüsusiyyətlərini müəyyən etmək, həm də onların sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Uşağın davranış və fəaliyyətinin fərqli cəhətlərinin qiymətləndirilməsinin xarakteri hərtərəfli olmalıdır. Bu, müxtəlif mənbələrdən olan məlumatların istifadə edilməsi və bacarıqların daha geniş şəkildə əhatə edilməsinə imkan verir.

Bu zaman müxtəlif metod və texnologiyalardan istifadə etmək lazımdır:

- Uşaqların müxtəlif monitorinq metodları;
- Xüsusi psixodiaqnostik təlimlər;
- Xüsusi proqramlar üzrə sınaq dərslərinin keçirilməsi və xüsusi oyun və mövzu yönümlü məşğələlərə uşaqların cəlb edilməsi;
- Müxtəlif intellektual oyunlar, fənn olimpiadaları, elmi konfranslar, idman yarışları, yaradıcılıq müsabiqələri, festivallar və sairənin təşkili;
- Müəllimlər, valideynlər və digər tərbiyə edənlər tərəfindən uşağın davranışlarının qiymətləndirilməsi;
- Uşaqların yaradıcılıq fəaliyyətinin xüsusi məhsullarının ekspert mütəxəssislər tərəfindən qiymətləndirilməsi;
- Müəyyən istedad halının təhlil edilməsi vəzifəsindən asılı olaraq müxtəlif psixometrik üsullardan istifadə edilməklə psixo-diaqnostik tədqiqatın həyata

keçirilməsi.

Uşaqların istedadının müəyyənləşdirilməsində hərtərəfli yanaşma səhvlərin baverməməsinə zəmanət vermir. Bundan başqa, uşağın "istedadlı", yoxsa "istedadsız" olmağı haqqında mühakimələr onun şəxsiyyətinin gələcək inkişafında çox mənfi faktor ola bilər.

İstedadlı uşaqlarda tez-tez sosial dezadaptasiya yaranır. Bu, uşağın eqosentrizmi və başqa bir insanın nöqteyi-nəzərinin qəbul edə bilməməsi ilə əlaqələndirilir. Xüsusilə, aşağıda göstərilən hallarda dezadaptasiya daha qabarıq şəkildə özünü göstərir (Şəkil 2.11):



**Şəkil 2.11. Risk qrupuna daxil olan istedadlı uşaqlar**

- Həmsöhbət intellektual cəhətdən zəifdir;
- Tədris planı darıxdırıcı və maraqsız olduqda məktəbi bəyənməmə;
- Həmyaşıdlar ilə müqayisədə fiziki inkişafdan geri qalma;
- Dialoq mədəniyyətinin olmaması və ünsiyyət qurmağın istənilməməsi;
- Söhbət əsnasında həmsöhbət məntiqi səhv edərsə və ya sözləri səhv vurğulayarsa, o zaman onun sözünü kəsmə və düzəltmə istəyi;
- Uyğunlaşma və güzəştə getmə qabiliyyətinin olmaması səbəbindən mübahisədə həmişə haqlı olma istəyi.

İstedadlı uşağın təbii təzahür və ehtiyaclarının boğulması vəziyyətində onun sosial-psixoloji reaksiyası aşağıdakı kimi özünü göstərə bilər: özünə qapanma, münasibətlərdə diqqətsiz və laqeyd olma, antisosial və aqressiv davranış kimi dezadaptiv davranış formaları.

İstedadlı uşaqların ən çox yayılmış dezadaptasiya xüsusiyyətləri aşağıdakılardır:

- Ruhən yaxın dost tapmaqda çətinliklər;
- Həmyaşıdların oyunları və əyləncələrində iştirak problemləri;
- Kainat problemləri və taleyə çox erkən maraq;
- Öyrənmə motivasiyasının itirilməsi səbəbi kimi inkişaf disinxroniyası.

İstedadlı uşaqların müəyyənləşdirilməsi, dəstəklənməsi, inkişafı və sosiallaşması müasir təhsilin prioritet vəzifələrindən birinə çevrilir. Profilaktikanın əsas məqsədi uşaqların təhsili üçün şərait yaratmaqdır.

İstedadlı şagirdlər, bir qayda olaraq, bir çox fənnə maraq göstərirlər və onların istedadı bir fəaliyyət sahəsi ilə məhdudlaşmır.

İstedadlı uşaqlar ilə işin vəzifələri:

- Daimi məsləhətləşmələr, tövsiyələr və dəstək;
- İstedadlı uşaqlarla işləmək üçün motivasiya dəstəyinin göstərilməsi;
- İstedadlı uşaqların müşayiət edilməsi;
- Müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edilərək istedadlı uşaqların dəstəklənməsi və inkişafı.

## Tələbələr üçün fəaliyyətlər

1. Yeniyetmə yaş dövründə istedadı diaqnostika etmək üçün hansı üsullardan istifadə etmək olar? Öz seçiminizi izah edin.
2. Əgər uşaqda ictimailəşmə problemi müşahidə olunarsa, hansı pedaqoji və psixoloji dəstək növlərindən istifadə etmək olar?
3. Ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün 7-10 yaşlı uşaqlar üçün təlim məşqlərini tərtib edin.
4. Məktəbdə hansı özünüifadəetmə metodlarından istifadə oluna biləcəyini izah edin.
5. Uşaqların öz qabiliyyətlərini göstərmələri üçün bir müsabiqə hazırlayın (məsələn, inşa, rəsm müsabiqələri və s.).

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Risk qrupu”na aid olan istedadlı uşaqlar üçün planlaşdırılan fəaliyyətlərin reallaşdırılması üçün psixoloji tövsiyələr hazırlayır”**

1. İstedadlı uşaqlar ilə psixoloji iş nədən ibarətdir?
2. Niyə istedadlı uşaqlar ilə işləyərkən həm müəllimlər, həm də valideynləri cəlb etmək lazımdır?
3. İstedadın diaqnostikasını hansı metodika növləri ilə keçirmək mümkündür?
4. Niyə qabiliyyət diaqnozu yalnız bir metod əsasında aparıla bilməz?
5. İstedadlı uşaqların hansı problemlərlə üzləşə biləcəklərini təsvir edin.

## 2.6. Psixoloji problemlərin qarşısını almaq üçün pedaqoji heyətlə konsiliumlar təşkil edir

Konsilium" (lat. - consilium) termini tibbi lüğətdən götürülüb və ilkin mənası "xəstənin vəziyyətini müzakirə etmək, diaqnozu müəyyənləşdirmək və müalicə üsullarını təyin etmək üçün həkimlərin görüşü" deməkdir. Beləliklə, konsilium dar mənada fəaliyyət forması kimi izah olunur: mütəxəssislərin obyektiv fikirlərinə əsaslandırılan bir fenomenin müzakirəsi və onun nəticələridir.

Psixoloji və pedaqoji məsləhətləşmə məktəb müəllimlərinin fəaliyyətinin təşkilati bir formasıdır. Əsas məqsədi məktəblilərin diaqnostikalarının nəticələrinə, müəyyən bir proqrama və ortaq əlamətlərə uyğun təlim keçirməkdir.



**Şəkil 2.12. Psixoloji konsilium**

Konsilium - mümkün sapmaların səbəblərinin müəyyənləşdirilməsi və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün kollektiv bir fəaliyyətdir (Şəkil 2.12). Konsiliumun forması, əsasən, məktəbdə çalışan müxtəlif mütəxəssislərin (tibb işçiləri, psixoloqlar və loqopedlər) iştirakı ilə müəyyən edilir.

Konsiliumda problemin yalnız eyni ixtisas üzrə mütəxəssisləri (müəllimlər və ya psixoterapevtlər) iştirak etmir və konsiliumda digər sahələrin mütəxəssislərinin eyni vaxtda iştirakı nəzərdə tutulur: müəllimlər, psixoloqlar, defektoloqlar, tibb işçiləri və s.. Bu cür çoxşaxəli fəaliyyət əvvəlcə mütəxəssislərin müştərək işinə mane ola biləcək bir problemin aşkarlanmasına kömək edir. Lakin konsiliumda iştirak edən mütəxəssislərin bir-birlərini anlamaları üçün psixoloji terminologiyaya diqqət edilməlidir. Məsələn, bir çox psixoloji termin “Autizm”, “Demensiya” və “Minimal beyin disfunksiyaları” müəllimin ənənəvi lüğətinə daxil edilmir. Bəzən eyni ifadə altında fərqli profilli mütəxəssislər tamamilə fərqli anlayışları nəzərdə tuturlar. Məsələn, "zəif şagird” kimi sadə görünən termin altında sinif müəllimi “zəif oxuyan şagird”, tibb işçisi isə “xəstə və fiziki cəhətdən zəif şagird” başa düşə bilər. Bunu nəzərə alaraq konsilium iştirakçılarına səhv başa düşülə biləcək xüsusi terminlərdən istifadə edilərkən diqqətli olmaları tövsiyə olunur.

Məktəb psixologiyasının məqsəd və vəzifələrinin yaş psixologiyasından fərqləndiyini unutmaq olmaz. Məktəb psixoloqu, ümumiyyətlə, uşaqla işləmir, o ancaq məktəb şagirdi ilə, yəni müəyyən şəraitlərdə olan və müəyyən fəaliyyət növü ilə məşğul olan uşaqlarla işləyir. Bu barədə Gilbux 1989-cu ildə "Məktəbdəki psixodiaqnostika" adlı əsərində yazmışdır: "tələbə, əsasən, gündəlik fəaliyyəti müddətində öyrənilməlidir”. Müəllif bu fikirlərini sovet psixoloqu Rubinşteynin prinsiplərinə əsaslanaraq yazıb: “uşaqları tərbiyə edərək öyrətmək və öyrədərək tərbiyə etmək - bu yol psixoloji və pedaqoji baxımdan səmərəli yoldur".

### 2.6.1. Konsiliumun formaları

İlk növbədə, nəzərə almaq lazımdır ki, konsiliumun formasından asılı olmayaraq bir qayda olaraq bəzi əsas anlayışlar dəyişməz olaraq qalır. Məsələn, məqsədinə görə konsilium ilkin, planlaşdırılmış, təcili və yekun növlərə bölünə bilər.

İlkin konsilium - təhsilalan məktəbə daxil olunandan sonra keçirilir və bir qayda olaraq bu prosesə psixoloq, loqoped, müəllim və bəzi hallarda digər mütəxəssislər cəlb edilə bilərlər. İlkin konsiliumun məqsədi şagirdin inkişaf xüsusiyyətləri və psixoloji, nitq və pedaqoji çətinliklərinin müəyyən edilməsi ilə lazımi dəstəyin göstərilməsidir.

Planlaşdırılmış konsilium – bu növ konsiliumun, adətən, altı ayda bir dəfə həyata keçirilməsi tövsiyə olunur. Məqsəd - öyrənmə və korreksiya dinamikasının qiymətləndirilməsidir; zəruri hallarda islah işlərində düzəliş və əlavələrin edilməsi, forma, rejim və ya təlim proqramının dəyişdirilməsi və əlavə müayinələrin təyin edilməsi. Bundan əlavə, planlaşdırılan məsləhətləşmələr (psixoloji-pedaqoji konsiliumlar) bir qayda olaraq ildən-ilə dəyişməyən problemlərə həsr edilə bilər.

Təhsil sistemi nəzərə alınaraq planlaşdırılmış konsiliumların aşağıdakı situasiyalarda keçirilməsi məsləhətlidir:

1. 1-ci siniflər - məktəb şəraitinə uyğunlaşma çətinlikləri;
2. 5-ci siniflər - fənn tədrisi vəziyyətinə uyğunlaşma çətinlikləri;
3. 6-8-ci siniflər – kiçik yeniyetmələrin yaş dövrü çətinlikləri;
4. 9-11-ci siniflər - yeniyetmələrin karyera və peşə seçimi çətinlikləri.

Təcili konsilium - zəruri hallarda (uzun xəstəlik, gözlənilməz affektiv reaksiya və məşq və ya korreksiya işlərində digər qəfil problemlərin yaranması zamanı) müəllim və ya şagird ilə işləyən hər hansı bir mütəxəssisin tələbi ilə keçirilir. Təcili məsləhətləşmənin məqsədi problemlərin səbəblərinin tapılması; reqressiya, dayanıqlılıq və aşılma ehtimalının qiymətləndirilməsi; icazə verilən yüklərin təyin edilməsi, rejim və ya formanı dəyişdirmə ehtiyacı.

Yekun konsilium - şagirdin yeni təhsil səviyyəsinə keçirilməsi ilə əlaqədar (məsələn, ibtidai sinifdən 5-ci sinifə keçirilməsi) və ya korreksiya işlərinin başa çatdırılması ilə əlaqədar olaraq həyata keçirilir. Yekun konsiliumun məqsədi tədrisin sonunda şagirdin vəziyyətini qiymətləndirməkdir: bütün akademik fənlər üzrə əldə edilmiş biliklər, sosiallaşma səviyyəsi, emosional-könüllü və davranış sahələri və ali zehni funksiyaların vəziyyəti; gələcəkdə şagirdlə işləyəcək müəllimlər üçün tövsiyələr. Yekun konsiliumun materiallarından uşağın psixoloji-pedaqoji xarakteristikasının tərtib edilməsi üçün əsas kimi istifadə olunur.

Konsiliumun təşkili mərhələsində bütün zəruri müayinələr aparılır və şagirdin inkişaf kartında müvafiq qeydlər edilir. Konsiliumdan əvvəl iştirakçılar inkişaf kartının məzmunu, sorğu protokolları və ekspert rəyləri ilə tanış olurlar. Müşavirənin tarixinin əvvəlcədən elan edilməsi tövsiyə olunur. Planlaşdırılan konsilium üçün dinamik müşahidələr həftə ərzində aparıla bilər.

Birinci konsiliuma hazırlıq zamanı anamnezin toplanmasına xüsusi diqqət

yetirilməlidir. Qeyd etmək lazımdır ki, bəzi valideynlər bu "prosedur"a müəyyən dərəcədə etimad göstərir və nəinki psixoloq, hətta məktəb həkiminə də məlumat verməkdən imtina edirlər. Valideynləri inandırmaqla və anamnestik məlumatların öyrənilməsinin məqsədini izah etməklə psixoloq bu problemi olduqca asanlıqla həll edə bilər. Lakin valideynlər özlərinin "ailə" sirləri hesab etdikləri məlumatları açıqlamağı lazım bilmirlərsə, o zaman onları buna məcbur etmək olmaz.

Konsilium zamanı protokolun tərtib edilməsi tövsiyə olunur. Mütəxəssislər öz fikirlərini bildirirlər və müzakirədən sonra onun qısa ifadəsi protokola daxil edilir. Konsilium protokolundakı son qeydlər iştirak edənlər tərəfindən imzalanan və şagirdlərlə korreksiya, tədris və tərbiyə işləri aparan bütün mütəxəssislər üçün məcburi olan qərar və tövsiyələrdir.

Konsiliumun nəticəsi şagirdlə hərtərəfli iş proqramının işlənib hazırlanması olmalıdır. Bu proqramın müxtəlif hissələri bir-birinə zidd olmamalıdır. Buna görə də konsilium zamanı iştirakçılar arasında tam anlaşmanın əldə edilməsi, xüsusilə, vacibdir: hazırki mərhələdə, birinci növbədə, həll olunmalı problemin müəyyənləşdirilməsi; təlim və korreksiya vəzifələrinin bir-biri ilə mütləq uzlaşdırılması; korreksiya proqramının icrası müddəti və növbəti konsiliumun tarixinin təyin edilməsi mütləqdir.

Problemli şagirdlərlə gələcək işin uğurunun təmin edilməsi üçün müəllimdən əlavə, bir neçə mütəxəssisin (loqoped, psixoloq, psixoterapevt və s.) cəlb edilməsi nəzərdə tutula bilər. Bununla yanaşı, eyni zamanda hazırki mərhələdə əsas problem və ona müvafiq aparıcı mütəxəssisin müəyyənləşdirilməsi zəruridir. İnkişaf dinamikasına uyğun olaraq liderin rolunu müxtəlif mütəxəssislər apara bilərlər. Beləliklə, məsələn, "yeni gələn" şagirdlə işləmək üçün ilk növbədə, aparıcı rol psixoloqa məxsus olacaq. Uyğunlaşma dövrünün sonunda aparıcı mütəxəssis loqoped ola bilər (şagirdin nitq problemi varsa) və ya (ehtiyac olarsa) psixoloq öz işini davam etdirəcək.

Planlı konsiliumun vəzifələri aşağıdakıları əhatə edə bilər:

- Uşağın psixoloji-pedaqoji müşayiət yollarının müəyyən edilməsi;
- Şagird şəxsiyyətinin inkişafının tədris və korreksiya-inkişafetdirici trayektoriyasının müəyyənləşdirilməsi üçün razılaşdırılmış qərarların hazırlanması;
- Uşağın vəziyyətinin dinamik qiymətləndirilməsi və əvvəl hazırlanmış proqramda dəyişikliklərin edilməsi;
- Təlim başa çatdırıldıqdan sonra (tədris ili) korreksiya-inkişafetdirici işlərin məzmununun dəyişdirilməsi məsələsinin həlli;
- Tələbələr və onların valideynlərinin profilaktik və maarifləndirmə işlərinin müzakirəsi.

Planlı konsiliumun altı ayda bir dəfə aparılması tövsiyə olunur.

Planlaşdırılmamış konsilium valideynlər, təhsil müəssisəsinin rəhbərliyi, mütəxəssislər, müəllimlər və ya tərbiyəçilərin tələbi ilə keçirilir.

Planlaşdırılmamış məsləhətləşmə aşağıdakı vəzifələrin həllini əhatə edir:

- Qəflətən yaranan psixoloji və pedaqoji problemlərin təhlili və aşkar olunmuş hallar

üçün hər hansı bir təcili tədbirin görülməsi;

- Korreksiya-inkişafetdirici işin nəticələrinin müzakirəsi və zərurət yarandıqda (bu işin effektivliyi aşağı olduqda) - dəyişmiş yeni vəziyyətdə istiqamətin dəyişilməsi.

Bundan əlavə, psixoloji-pedaqoji konsilium müəyyən şagird kateqoriyasının müayinə nəticələri və ya hansısa çətin tələbə ilə fərdi işin müzakirəsinə həsr oluna bilər.

Psixoloji-pedaqoji konsiliumun təşkili və aparılmasının bir neçə forması mümkündür.

Birinci forma - diaqnoz və sonrakı iş üsullarının müəyyənləşdirilməsi üçün əvvəlcədən qoyulmuş problemlə bağlı birgə araşdırma nəticələrinin müzakirə edildiyi və müşavirə şəklində keçirildiyi konsiliumdur. Konsiliumun bu forması zamanı ilə şagird (şagird kollektivi) şəxsiyyətinin inkişaf xüsusiyyətləri, pedaqoji iş strategiyası və taktikası və müştərək tədqiqat predmeti olan konkret problem çərçivəsində pedaqoji təsirin (və ya qarşılıqlı təsirlərin) konkret metodlarının elmi-əsaslı müəyyənləşdirilməsi baş verir.

İkinci forma - təhsil, inkişaf və korreksiya işlərinin həyata keçirilməsi üçün zəruri olan xüsusi proqramların birgə müzakirəsidir. Bu forma ilk forma ilə sıx bağlıdır.

Üçüncü forma - məktəbin bütün müəllim heyəti və ya onun ayrı-ayrı struktur elementlərinin müəyyən şəraitdə inkişaf konsepsiyası, strategiyası və taktikasının birgə müzakirəsidir (pedaqoji heyətin işinin yekun nəticəsinə təsir edən işçi heyətinin xüsusiyyətləri, şagird kontingenti, maddi baza və məktəb həyatının digər aspektləri nəzərə alınmaqla).

Dördüncü forma - müxtəlif formaların sintezidir və bir neçə mürəkkəb problemin birgə müzakirəsi üçün pedaqoji konsilium kimi müəyyən edilə bilər.

Hər bir tələbəni əhatə edən məcburi diaqnostik prosedurlar aşağıdakılardır:

- Məktəbə qəbul mərhələsində məktəbəqədər yaşlı uşaqların müayinəsi;
- Məktəb mühitinə uyğunlaşma mərhələsindəki birinci sinif şagirdləri;
- İbtidai məktəbi bitirmə mərhələsindəki dördüncü sinif şagirdləri;
- İbtidai sinif dövrü, uyğunlaşma mərhələsindəki beşinci sinif şagirdləri;
- Kəskin yaş böhranı zamanı yeniyetmələr;
- Yuxarı sinif şagirdləri.

Konsilium diaqnostik imtahanın hər mərhələsində şagirdlərin imtahan nəticələrinə əsasən aparılır və bunlara daxil edilir:

1. Sorğunun aparılmasında təşkilati və metodiki hazırlıq (materialların hazırlanması və bütün iştirakçılara bildiriş);
2. Diaqnostik müayinənin birinci mərhələsini keçirmək - sinifdəki şagirdlərin monitorinqi (hər sinifdə 2 saat):
    - Bütün şagirdlərlə diaqnostik prosedurların aparılması;
    - Müəllimlərin ekspert sorğusunun keçirilməsi ;
    - Valideynlərin ekspert sorğusunun keçirilməsi;
    - Nəticələrin işlənməsi;
    - Psixodiaqnostikanın dərinləşdirilməsi üçün müxtəlif sxemlərin həyata

keçirilməsi üçün bir qrup şagird seçimi;

3. Psixodiaqnostik müayinənin ikinci mərhələsinin aparılması;
4. Psixoloji-pedaqoji konsiliuma hazırlıq:
   - Qarşıdakı məsləhətləşmə ilə əlaqədar müəllimlərlə müsahibə aparılması;
   - Analitik məlumatların hazırlanması və müşavirədə müzakirə planının tərtib edilməsi (müxtəlif tip problemləri olan şagirdlərin psixoloji cəhətdən əlverişsiz qruplarının müəyyənləşdirilməsi);
   - Müşavirənin sonlandırılması üçün blankların hazırlanması;
5. Psixoloji-pedaqoji konsiliumun aparılması:
   - Müəyyən şagirdlərlə bağlı müəllimlər arasında məlumat mübadiləsi;
   - Hər bir şagirdə dəstək olunması üçün strategiyaların hazırlanması və planlaşdırılması;
   - Hər bir şagird üçün konsilium rəyinin blankının doldurulması;
   - Bütövlükdə, sinif üçün strategiyaların hazırlanması və planlaşdırılması;
6. Konsilium qərarlarının icrası:
   - Ümumi məsləhət fəaliyyətlərinin həyata keçirilməsi (valideyn-müəllim iclaslarının keçirilməsi və rəhbərlik və fənn müəllimlərinə məsləhət verilməsi);
   - Sinif müəllimi və psixoloqun birgə hərəkətlərinin planlaşdırılması;
   - Xüsusi inkişaf qruplarına şagird seçimi;
   - Valideynlər, müəllimlər və şagirdlərlə fərdi məsləhətləşmələrin aparılması;
   - Psixoloji-dispetçer fəaliyyətlərinin həyata keçirilməsi (mütəxəssis axtarılması, pasiyentlə əlaqənin təmin edilməsi və dəstəkləyici tədbirlərin həyata keçirilməsi);
   - Əlaqəli iş formalarının (təhsil, ümumi inkişaf işləri və s.) planlaşdırılması və həyata keçirilməsi;
7. İşin səmərəliliyinin planlaşdırılması və izlənməsi.

Konsiliumda psixoloqun vəzifəsi şagirdin intellektual inkişafı və şəxsiyyətinin əsas keyfiyyətlərinin müxtəlif cəhətlərdən qiymətləndirilməsi üçün hər bir müəllimə kömək etmək, təzahürlər və münasibətlərin mürəkkəbliyi və qeyri-müəyyənliyini göstərmək, özünəinam, motivasiya, xüsusən, idrak və digər maraqlar və emosional əhval-ruhiyyə problemlərini aşkar etmək və ən başlıcası, şagirdə onun gələcək inkişaf perspektivləri ilə bağlı nikbin yanaşma ilə təmin etmək və onunla real iş proqramını tərtib etməkdir.

Konsiliumlar zamanı şagirdlərin aşağıdakı xüsusiyyətlərinə xüsusi diqqət yetirilir:

- Sosial və əmək fəaliyyəti;
- Əxlaqi tərbiyə;
- Öyrənməyə münasibət;
- Mədəni dünyagörüş;

- Aparıcı maraq və meyllər;
- Təhsil materialında əsas olanı vurğulama bacarığı;
- Öyrənməni planlaşdırma bacarığı;
- Öyrənmə zamanı özünüidarəetmə bacarığı;
- Öyrənmədə əzmkarlıq nümayiş etdirmək;
- Sağlamlıq vəziyyəti;
- Ailə və komandanın tərbiyəvi təsiri.

Şəxsiyyətyönümlü yanaşmaya əsaslandırılan innovativ təhsil texnologiyaları tətbiq olunduqca psixoloji-pedaqoji konsiliumların rolu artacaq.

## Tələbələr üçün fəaliyyətlər

1. Psixoloji diaqnostikanın nəticələrini təhlil etmək üçün konsiliumun növünü seçin və təhlil edin.
2. 1-ci sinif şagirdlərinin xüsusiyyətlərini təhlil etmək üçün konsilium proqramını təsvir edin.
3. Uşaqların öz qabiliyyətlərini göstərmələri üçün bir müsabiqə planlaşdırın (inşa, rəsm müsabiqələri nümunələri və s.).

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**“Psixoloji problemlərin qarşısını almaq üçün pedaqoji heyətlə konsiliumlar təşkil edir”**

1. Psixoloji konsilium nədir?
2. Psixoloji konsiliumun əsas məqsədi və vəzifələri nədir?
3. Konsiliumun iştirakçıları kimlər ola bilərlər?
4. Konsiliumun növləri hansıdır?
5. Hansı situasiyalarda planlaşdırılmış və təcili konsilium keçirilir?
6. Müəllim heyətinin xüsusiyyətlərini açıqlayın.
7. Ümumi təhsil müəssisəsinin əsas kollektiv iş formasına nə aiddir?
8. Məktəb müəllimlərinin ümumi yığıncağının məqsədləri nədir?
9. Komandanın ümumi yığıncağının hazırlıq mərhələlərinə nələr daxildir?
10. Ümumi yığıncaqların davranış qaydasını nümayiş etdirin.
11. Məktəbdə psixoloji və pedaqoji məsləhətləşmələrin məqsədlərini adlandırın.
12. Planlı olmayan psixoloji və pedaqoji məsləhətləşmələr nə vaxt aparılır?
13. Psixoloji və pedaqoji məsləhətləşmənin təşkili və aparılmasının mümkün formalarını açıqlayın.
14. Psixoloji və pedaqoji konsilium zamanı məktəblilərin hansı xüsusiyyətlərinə müəllimlər xüsusi diqqət yetirirlər?
15. Kəskin yaş böhranı zamanı yeniyetmələrin diaqnostik müayinəsinin nəticələrinə əsasən planlaşdırılan psixoloji və pedaqoji məsləhətləşmənin qərar layihəsini hazırlayın.

# ƏDƏBİYYAT SİYAHISI


1. Andreyev V.I. Pedaqogika: Yaradıcı yaradıcılıq təhsili üçün təlim kursu. Kazan, 2000.
2. Denisenkova N.S. Pedagoji müəllim heyəti. M., 1984.
3. Məktəbdaxili idarəetmə: Nəzəriyyə və təcrübə sualları / Redaktoru T.I. Şamova. M., 1991.
4. Slastenin V.A. və sayrı. Pedaqogika: Ali pedaqoji təhsil müəssisələrinin tələbələri üçün dərslik. M., 2002.
5. Spirin L.F. Pedaqoji problemlərin həlli nəzəriyyəsi və texnologiyası (peşəkar pedaqoji hazırlıq və özünü təhsili inkişaf etdirmə) / Redakt. P.I. Pidkasist. M., 1997
6. Абрамова, Г. С. Возрастная психология Учебное пособие для вузов / Г. С. Абрамова. - 5-е изд. - М.: Академический проспект ; М. : Альма Матер, 2005. - 701 с. - ISBN 5-8291-0265-Х 3.
7. Выготский Л.С. Лекции по психологии. – С.–П. 1997.
8. Гамезо, М.В. и др. Возрастная и педагогическая психология: Учебное пособие для студентов педагогических Вузов/Гамезо М.В., Петрова Е.А., Орлова Л.М. Под общей ред. Гамезо М.В. - М.: Педагогическое общество России, 2004. - 512 с. - ISBN 5-93134-195-1 4. Зимняя, И. А. Педагогическая психология: Учебник для студентов вузов педагогических и психологических специальностей /И. А. Зимняя. - 2-е изд., доп., исп. и пер. - М.: Логос, 2005. - 383 с. - ISBN 5-94010-018-Х 4.
9. Жан Пиаже: теория, эксперименты, дискуссии: Учеб. пособие для студентов психол. Специальностей и направлений / Под ред. Л. Ф. Обуховой, Г. В. Бурменской. – М: Гардарики, 2001.
10. Карабанова О. А. Возрастная психология. Конспект лекций. – 2005. – С.82-83
11. Кулагина И.Ю. Педагогическая психология [Электронный ресурс]: Учебное пособие для вузов / И.Ю. Кулагина. – Электронные текстовые данные. – М.: Академический Проект, Трикста, 2011. – 317 c. – 978-5- 8291-1289-9. – Режим доступа: http://www.iprbookshop.ru/27407.html
12. Марцинковская Т.Д Психология развития М. 2008.
13. Митина О. В. Факторный анализ для психологов / О. В. Митина, И. Б. Михайловская. – М. : Учеб.-метод. коллектор. Психология, 2001. – 169 с.
14. Нартова-Бочавер, Софья Кимовна. Введение в психологию развития: учеб. пособие для студентов вузов, обучающихся по спец. 050703 (030900) - дошк. педагогика и психология; 050707 (031100) - педагогика и методика дошк. образования / С.К. Нартова-Бочавер, А.В. Потапова; Рос. акад. образования, Моск. психолого-социал. ин-т.? Москва: Флинта: [МПСИ], 2005.214

15. Обухова Л. Ф. Концепция Жана Пиаже: за и против. – 1981. – С.7. http://elib.gnpbu.ru/text/obuhova_kontseptsiya-piazhe_1981/go,0;fs,1/

16. Обухова Л.Ф. Возрастная психология М. 2004.

17. Обухова, Людмила Филипповна. Детская возрастная психология: Учеб. пособие для студентов вузов / Л.Ф.Обухова..3-е изд...М.: Пед. о-во России, 2000.444с.

18. Пиаже Ж. Речь и мышление ребенка / Ж. Пиаже. – М. : РИМИС, 2008.

19. Пиаже Ж. Речь и мышление ребенка. – М., Л., 1932.

20. Психология мышления. Хрестоматия по психологии. / Под ред. Гиппенрейтер Ю.Б. М.2009. http://www.psychology-online.net.

21. Сорокоумова, Е. А. Возрастная психология: Учебное пособие для академического бакалавриата / Е. А. Сорокоумова. - 2-е изд., исп. и доп. - М.: Юрайт, 2018. - 227 с. - (Серия: Бакалавр. Академический курс). - ISBN 978-5-534-04322-8 https://biblio-online.ru/book/vozrastnaya-psihologiya-415544?ref_from=31347